RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 105 (9272) 20 MAY 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham ƏLİYEV: «Ermənistanın sürətlə silahlanması yeni təhlükələr yaradır»



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir ilk növbədə Azərbaycanda Ulu Öndərin anadan olmasının 100-cü ildönümünün qeyd edildiyi bir dövrdə ölkəmizə gəlməsindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, görkəmli şəxsiyyət Heydər Əliyevin və Prezident İlham Əliyevin baxışları belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan çiçəklənən, multikultural və çox güclü iqtisadiyyata malik ölkə qurmaq yolundadır.

Hazırda Azərbaycanın Qoşulmama Hərəkatına, Hindistanın isə Böyük 20-liyə və Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik etdiyini vurğulayan səfir məmnunluq hissi ilə bildirdi ki, ölkəsi Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasındadır və ötən il qarşılıqlı ticarətin 155 faiz artması bunun yaxşı göstəricisidir.

Sridharan Madhusudhanan bildirdi ki, Hindistanın da güclü iqtisadiyyata malik olması nəzərə alınaraq ölkələrimiz üçün iqtisadi əməkdaşlığın genişlənməsi baxımından böyük potensial var.

→ 2

## Azərbaycan töhfəsi



### Respublikamızın qlobal problemlərin həllinə göstərdiyi dəstək təqdir olunur

**Beynəlxalq problemlərin həllində aktiv iştirak edən və onların aradan qaldırılması üçün fəal dəstək göstərən Azərbaycan xüsusilə bu problemlərin həllində dialoq yolunun mümkünlüyünü daim təbliğ edir. Dünyanın mötəbər beynəlxalq qurumlarında uğurla təmsil olunan ölkəmiz həm də hər zaman bəşəri qərarların qəbuluna və icrasına birbaşa mühüm töhfələr verir.**

"Mən burada iki qlobal çağırışı bəyan edirəm. Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır", - deyə Prezident İlham Əliyevin martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü zamanı bəyan etdiyi kimi, dövlətimiz qlobalmiqyaslı çağırışların həllində fəal iştirak edir.

#### Sülhə xidmət edən təşəbbüslər

Mayın 18-də Prezident İlham Əliyevlə görüşündə Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu da Azərbaycanın beynəlxalq təşəbbüslərdəki mühüm rolunu bir daha vurğuladı. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirən qonaq xüsusilə qeyd etdi ki, bu, Prezident İlham Əliyevin Azərbaycan və region üçün verdiyi dəyərli töhfədir.

→ 6

## Azərbaycanın özü qədər əbədi

### İqtisadi tərəqqiyə zəmin yaradan neft diplomatiyası



Danılmaz gerçəklikdir ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkənin sosial-iqtisadi inkişafının strateji xəttini, onun həyata keçirilməsinin istiqamətlərini müəyyənləşdirmişdir. Heydər Əliyev tərəfindən işlənib hazırlanan yeni proqramın əsas amillərindən biri Azərbaycanın Cənubi Qafqazda iqtisadi cəhətdən lider bir ölkəyə çevrilməsini, qloballaşma şəraitində onun dünya iqtisadi sistemində layiqli yer tutmasını təmin etməkdən ibarət idi. Bu illər ərzində Azərbaycanda siyasi sabitlik və davamlı iqtisadi inkişaf təmin olunmuş, həmin strategiyanın uğurla reallaşdırılması nəticəsində ölkə iqtisadi tərəqqinin yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycan iqtisadi gücünə və potensialına görə regionun lider dövlətinə çevrilmişdir.

#### Yeni iqtisadi sistemə keçid

Bazar iqtisadiyyatı yolunu seçmiş hər bir dövlətin iqtisadi siyasət strategiyasının formalaşmasına təsir göstərən ümumi cəhətlər olsa da, ümumilikdə dayanıqlı, sabit və tarazlı inkişaf modelinin irəli sürülərək uğurla həyata keçirilməsi olduqca mürəkkəb, çətin prosesdir. Təcrübə göstərir ki, hansısa dövlətdə sınaqdan uğurla çıxmış və müsbət nəticələri təsdiqlənmiş inkişaf konsepsiyalarının adekvat olaraq digər dövlətin iqtisadi sisteminə transformasiyası heç də həmişə özünü doğrultmur. Bunun üçün dövlətlərin özünəməxsus cəhətləri, coğrafi mövqeyi, təbii ehtiyatları, intellektual və insan resursları mütləq nəzərə alınmalı, mütərəqqi ənənələr əsasında milli inkişaf modeli yaradılmalıdır.

→ 7

## Azərbaycan Avrasiyanın ticarət körpüsünə çevrilir

Bu gün real imkanları ilə Azərbaycan uzaq Çindən Qərbi Avropaya yüklərin təhlükəsiz daşımalarını təmin edir. Xəzər dənizi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti hazırda yüklərin Asiyadan Avropaya daşınmasında ən əlverişli marşrut hesab edilir. Bunu statistik rəqəmlər də təsdiqləyir. Ötən 5 il ərzində, 2017-2022-ci illərdə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə 1 milyon 347 min 585 ton, təkcə ötən il isə 432 min 284 ton yük daşınıb.

Regionun inkişafı, təhlükəsizliyin təmin olunması istiqamətində işlər görən, təşəbbüslərlə çıxış edən Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına öz töhfəsini verməkdədir. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan həm də regionun nəqliyyat-tranzit habına çevriləcək. Beləliklə də, Azərbaycan üzərindən yükdaşımaların artması həm ölkəyə daxil olan valyutanı çoxaltmaqla iqtisadiyyatın inkişafına mühüm töhfə verəcək, həm də ölkəmizin etibarlı tərəfdaş kimi nüfuzu daha da yüksələcək.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin qlobal təşəbbüsləri ilə bu gün Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat və ticarət körpüləri yaradır. Ölkəmiz "Şərq-Qərb", "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi üzərinə düşən bütün öhdəlikləri vaxtında reallaşdırır.

→ 9

## Ermənistanın 1 milyard dollarlıq narkotik biznesi

Ermənistan hər zaman çirkin əməlləri ilə yanaşı, əsrin bəlasına çevrilən narkotik vasitələrin yayılmasında irəlidə gedən dövlətlərdən birinə çevrilib. Hayastanın Milli Təhlükəsizlik Xidmətinin yaydığı son məlumatlar göstərir ki, bu ölkə ümumilikdə böyük narkotik biznesi ilə məşğuldur.

Belə ki, yayılan məlumatda bildirilir ki, ölkədə dəyəri təxminən 250 milyon avro olan 1 ton kokain müsadirə olunub. Həmin narkotik vasitə Hayastana Ekvadordan meyvə idxal edən şirkət tərəfindən gətirilib. Onların böyük hissəsi İtaliya və Gürcüstandan tranzitlə Ermənistana keçirilib.

Əslində, bu, yeni məlumat deyil. Çünki uzun illər Azərbaycan torpaqlarının bir hissəsi Ermənistanın işğalı altında olanda da həmin ərazilər üzərindən narkotik vasitələr daşınırdı. Hayastan Qarabağ və Şərqi Zəngəzuru narkotik biznesi üçün əlverişli ərazi hesab edirdi. Həmin dövrdə bölgədə böyük çətənə plantasiyaları salınmışdı.

→ 9

## Hayastan hər diplomatik görüşdən əvvəl təxribat törədir

Hər diplomatik görüşdən əvvəl və ya sonra Hayastan tərəfindən törədilən təxribatlar bunu sübut edir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə Hayastanın baş naziri Nikol Paşinyanın Brüsseldə baş tutan görüşü sülh yolunda növbəti addımdır. Dünya birliyi də Cənubi Qafqazda sülh və əməkdaşlığın təmin edilməsi üçün Azərbaycanla Hayastan arasında münasibətlərin normallaşdırılmasını həlledici amil kimi dəyərləndirir. Lakin Brüssel görüşü ərəfəsində, mayın 11-13-də Hayastan Kəlbəcər istiqamətində ordumuzun mövqelərini minaatanlardan, toplardan və digər iriçaplı silahlardan atəşə tutdu. Bu təxribatların hər zaman sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında keçirilən görüşlər fonunda baş verməsi rəsmi İrəvanın sülh prosesində maraqlı olmadığını göstərdi.

Anonslarda deyilir ki, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq və sairə. Yəni bu bəyanatlardan sonra xüsusilə Paşinyanın siyasi rəqiblərinin atacaqları addımların təxribat xarakteri daşıyacağı gözlənilir. Bu, məlum məsələdir. Belə təxribatların digər səbəbi də separatçıların status-kvonu saxlamaq istəkləri ilə əlaqəlidir. Onlar havadarlarının tapşırıqlarını yerinə yetirməyə çalışırlar. Mayın 18-də Kəlbəcər rayonunda yerləşən bir sıra mövqelərimizə döyüş PUA-ları tətbiq etmələri də sübut edir ki, Hayastan çirkin əməllərindən əl çəkmir. Diplomatik görüşlər ərəfəsində mütləq şəkildə təxribat törədir, cavablarını aldıqdan sonra isə yeni iddialar irəli sürürlər.

→ 9

## *Qaz ixracımız:* 4 ayda 8,4 milyard kubmetr

Bu ilin yanvar-aprel aylarında ölkəmizdən xaricə qaz satışı 8,4 milyard kubmetr təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz çoxdur.

Bu gün Azərbaycan qaz hasil edən və onun ixracı üçün mükəmməl infrastruktura malik olan ölkə kimi diqqət mərkəzindədir. Avropanın mavi yanacağa tələbatı artdığından ölkəmizdən qaz idxal etmək istəyənlərin sayı getdikcə çoxalır. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış anlaşma memorandumuna əsasən, 2027-ci il üçün qaz təchizatımız iki dəfə artırılacaq. Bu, təqribən 20 milyard kubmetrdir.

→ 10

## Bakıda Bədii Gimnastika üzrə Avropa Çempionatı davam edir








→ 11

# Prezident İlham ƏLİYEV:
# «Ermənistanın sürətlə silahlanması yeni təhlükələr yaradır»



Əvvəli 1-ci səh.

O, bu xüsusda neft sənayesi və əczaçılıq sahələrini qeyd etdi.

Eyni zamanda səfir Azərbaycanda hökm sürən multikulturalizmin Hindistan üçün çox cəlbedici olduğunu dedi, humanitar sahədə də əlaqələrimizin genişləndirilməsinin önəmini bildirdi.

Diplomat turizm sahəsində əməkdaşlığa toxunaraq, Azərbaycana xeyli sayda hindistanlı turistin səfər etməsinin, xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olmasının, ölkəmizdə çox sayda tarixi abidənin mövcudluğunun turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaratdığını bildirdi. Səfir paytaxtımızda qədim, tarixi binalarla yanaşı, modern üslubda inşa edilmiş tikililərin də xoş təəssürat hissi doğurduğunu dedi.



Sridharan Madhusudhanan informasiya texnologiyaları, energetika, təhsil, ekologiya və digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Ulu Öndərin müasir Azərbaycan dövlətçiliyinin banisi və ölkəmizin inkişafının təminatçısı olduğunu vurğulayaraq qeyd etdi ki, Ümummilli Lider prezidentlik fəaliyyətinə başlayarkən Azərbaycanın torpaqları ermənilər tərəfindən artıq işğal olunmuşdu, bu işğalın nəticəsində bir milyon soydaşımız tarixi yurdlarından didərgin düşmüşdü, işğal altında olan ərazilərimiz darmadağın edilmişdi. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədi ərazi bütövlüyümüzün və müdafiə qabiliyyətimizin təmin edilməsi, güclü dövlət və iqtisadiyyat qurmaq idi. Dövlətimizin başçısı vurğuladı ki, iki il yarım əvvəl Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və beləliklə, Ümummilli Liderin arzu və tapşırıqları həyata keçirildi.

Azərbaycan Prezidenti qeyd etdi ki, 30 illik işğal dövründə xalqımız humanitar fəlakətlə üzləşmişdir, bir milyon soydaşımız evsiz-eşiksiz qalmışdır. Bu fakt Azərbaycanın inkişafı üçün böyük əngəllər törədirdi. İndi - torpaqlarımızın işğaldan azad edildiyi bir dövrdə ölkəmiz bütün sahələrdə böyük potensiala malikdir. İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Vətən müharibəsində əldə olunan qələbədən sonra Azərbaycan xalqı qürur hissi ilə yaşayır və bu, özünü bütün sahələrdə göstərir.

Azərbaycan Prezidenti eyni zamanda vurğuladı ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd etdi ki, əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğuladı ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik məsələsinə toxunaraq ölkəmizin sədrliyi dövrünün bu Hərəkatın institusional inkişafı üçün çox səmərəli bir dövr olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, məlum olduğu kimi, bununla bağlı Azərbaycanın irəli sürdüyü bir sıra mühüm təşəbbüslər uğurla həyata keçirilib. Azərbaycan Prezidenti bundan sonra da Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın güclənməsinin, ölkələrin ərazi bütövlüyü və suverenliyinin, məlum Bandunq prinsiplərinə sadiqliyin davam etdirilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev Hindistanın Qoşulmama Hərəkatının əsasını qoymuş dövlətlərdən biri olduğunu xatırladaraq, bu təsisatın yarandığı dövrdən bəri müxtəlif inkişaf yolu keçməsinə baxmayaraq, onun gələcəkdə qlobal siyasətdə mühüm amilə çevrilməsinin önəmini bildirdi.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın uzun illər bu təşkilatda dialoq tərəfdaşı olduğunu, ötən il isə bu təşkilatın Özbəkistanda keçirilmiş sammitində yüksək səviyyədə iştirakımızı önəmli hadisə kimi dəyərləndirdi.

Söhbət zamanı mədəniyyət, nəqliyyat, o cümlədən "Şimal-Cənub" dəhlizi sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər də müzakirə olundu.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Sizə və Azərbaycan xalqına Gürcüstan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Prezident Heydər Əliyev müasir Azərbaycan dövlətinin formalaşmasında mühüm rol oynamış görkəmli dövlət xadimi idi. Məhz onun uzaqgörənliyi güclü və firavan dövlət quruculuğunun əsasını qoydu.

Bütün ölkə üçün ümid çırağı olmuş atanızın Azərbaycan xalqının firavanlığı naminə gördüyü işlər və göstərdiyi səylər gələcək nəsillərin yaddaşında qalacaq, daim onların ilham və qürur mənbəyi olacaqdır.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan özünü qlobal miqyasda mühüm dövlət kimi təsdiqlədi. O, ölkələrimiz arasında əlaqələrin inkişafında həlledici rol oynayıb. Gürcüstan Azərbaycanla möhkəm dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirir. Biz xalqlarımızın firavanlığı naminə bu əlaqələri daha da dərinləşdirməyə hazırıq.

Zati-aliləri, Sizə bir daha dərin ehtiramımı bildirir, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına sülh, cansağlığı və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Salome Zurabişvili,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

BMT-nin Sivilizasiyalar Alyansı və komandası adından Azərbaycan xalqını Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi tərəfindən Nyu Yorkda zati-aliləri Heydər Əliyevin xatirəsinə həsr olunmuş yaddaqalan mərasimdə iştirak etmək şərəfinə nail oldum. Mən bir daha əmin oldum ki, Azərbaycanı inkişaf yoluna çıxaran, ölkənin davamlı iqtisadi və sosial tərəqqisinin möhkəm təməlini qoyan müdrik və uzaqgörən Lider Heydər Əliyevin xidmətləri öz xalqı və onu tanıyanlar tərəfindən hər zaman ehtiramla xatırlanacaqdır.

Bu fürsətdən istifadə edərək BMT-nin Sivilizasiyalar Alyansının Azərbaycan Respublikası ilə strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlığından məmnunluğumu bildirirəm.

Uzun illər ərzində biz Azərbaycanla mədəniyyətlər və dinlərarası dialoqun təşviqi üzrə səmərəli əlaqələri qoruyub inkişaf etdirmişik. Əminəm ki, bu əlaqələr daha da dərinləşəcəkdir.

*Hörmətlə,*

***Migel Anxel MORATİNOS,***
***BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Bu bahar günlərində Azərbaycan xalqı minnətdarlıq hissi ilə əlamətdar tarixi - böyük şöhrətə malik dövlət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edir.

Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzi Qafqaz respublikalarının müftilərinin şəxsində azərbaycanlıların müqəddəs hisslərini tam dəstəkləyərək, XX əsrin görkəmli siyasi xadimi, Azərbaycan Respublikasının sabiq Prezidentinin şəxsiyyətinə dərin ehtiramını ifadə edir.

Biz, yaşlı nəslin nümayəndələri Heydər Əliyevin Sovet İttifaqının sənaye bazasının inkişafı prosesində xidmətlərini və töhfələrini çox yaxşı xatırlayırıq. Güclü dövlətin fəlakətini və keçmiş sovet respublikalarında keçid dövrünün problemlərini xatırlayırıq. Sosialist sisteminin süqutu dövrü məhdud dünyagörüşlü və savadsız siyasətbazları hərəkətə gətirdi. Vətəndaş qarşıdurması dövrlərində öz xalqı Heydər Əlirza oğluna müraciət etdi və o, dövlət strukturlarının dağıldığı ağır şəraitdə parçalanmanı dayandırdı, xalqı öz ətrafında birləşdirdi. Onun yüksək istedadı və siyasi müdrikliyi sayəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra ayaqda dura bildi və dünya birliyi dövlətləri arasında özünün layiqli yerini tutdu.

Heydər Əliyevin sülhsevərliyi, insanpərvərliyi, öz xalqına dərin ehtiramı respublikada ona ümumxalq sevgisi və böyük nüfuz qazandırdı.

Uca Allaha dua edirik ki, Azərbaycan xalqına rifah və mərhəmət bəxş etsin.

Cənab Prezident, Sizə daha çox güc və dəyanət, Azərbaycan dövlətinə sülh və tərəqqi arzulayırıq.

*Hörmətlə,*

***Müfti İsmayıl-Hacı BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri***

# "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar 2022-ci il dekabrın 28-də həyata keçirilmiş notalar mübadiləsi təsdiq edilsin.

2. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 922) adında və mətnində "diplomatik" sözü "ümumvətəndaş, diplomatik və xüsusi/xidməti" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2023-cü il*

# "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825; 2019, № 1, maddə 58, № 4, maddə 618; 2020, № 5, maddə 541; 2021, № 5, maddə 435; 2022, № 2, maddə 102, № 8, maddə 841, № 11, maddə 1263) 9.6-cı bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2023-cü il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.8-ci, 1.1.38-ci, 1.1.59-cu maddələrində, 8.2-ci maddəsinin ikinci cümləsində, 12.1.6-cı, 14.1.7-ci, 14.1.12-ci, 14.1.13-cü, 14.1.18-ci, 14.2.2-ci, 14.3.1-ci, 14.3.2-ci, 16.1.12-ci, 16.1.13-cü, 16.1.14-cü, 16.2.2-ci, 16.4.1-ci, 16.4.2-ci, 17.3-cü, 18.5.5-ci, 18.7-ci maddələrində, 19.16-cı maddəsinin ikinci cümləsində, 20.3-cü, 23.2.12-ci, 26.7-ci, 29.5.2-ci, 33.1-ci, 36.3-cü, 37.1-ci, 37.4-cü, 38-ci, 41.2-ci, 42.2-ci, 42.3.2-ci, 42.3.5-ci, 42.3.6-cı, 42.5.1-ci (hər iki halda), 42.5.6-cı, 42.6-cı, 42.7-ci (hər üç halda) və 42.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.8-ci, 18.7-ci, 33.1-ci, 42.5.1-ci (ikinci halda) və 42.7-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 37.4-cü maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.4. həmin Qanunun 1.1.38-ci, 1.1.59-cu, 14.1.7-ci, 17.3-cü, 29.5.2-ci və 37.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 42.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 8.2-ci maddəsinin ikinci cümləsində, 12.1.6-cı, 14.1.12-ci, 14.1.13-cü, 14.1.18-ci, 14.2.2-ci, 14.3.1-ci, 14.3.2-ci, 16.1.12-ci, 16.1.13-cü, 16.1.14-cü, 16.2.2-ci, 16.4.1-ci, 16.4.2-ci, 18.5.5-ci maddələrində, 19.16-cı maddəsinin ikinci cümləsində, 20.3-cü, 23.2.12-ci, 26.7-ci, 36.3-cü, 38-ci, 41.2-ci, 42.3.2-ci, 42.3.6-cı, 42.5.1-ci (birinci halda), 42.7-ci (ikinci halda) və 42.8-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 42.3.5-ci və 42.5.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

1.8. həmin Qanunun 42.6-cı və 42.7-ci (üçüncü halda) maddələrində "orqan (qurum)" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi qismində Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. elektrik enerjisi bazarı elementlərinin mərhələli tətbiqi ilə bağlı tədbirlər planının layihəsini yeddi ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. altı ay müddətində:

2.2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.2. həmin Qanunun 37.4-cü maddəsinə uyğun olaraq, elektrik şəbəkələrinin mühafizə zonalarının ölçülərini və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.3. həmin Qanunun 29.5.2-ci maddəsinə uyğun olaraq, sərbəst olmayan istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılmasına əsas verən müddəti müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2.4. aşağıdakı normativ-hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1. həmin Qanunun 1.1.38-ci maddəsinə uyğun olaraq, elektrik şəbəkəsinə dair qaydaları;

2. həmin Qanunun 1.1.59-cu maddəsinə uyğun olaraq, sərbəst istehlakçılar üçün illik elektrik enerjisi sərfiyyatının həddini;

3. həmin Qanunun 14.1.7-ci maddəsinə uyğun olaraq, elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısını;

4. həmin Qanunun 17.3-cü maddəsinə uyğun olaraq, qapalı paylayıcı şəbəkələrin fəaliyyət qaydalarını;

5. həmin Qanunun 37.1-ci maddəsinə uyğun olaraq, mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin siyahısını;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi:

3.1. aşağıdakı normativ-hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarını;

3.1.2. həmin Qanunun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarını;

3.1.3. həmin Qanunun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının texniki istismar qaydalarını;

3.1.4. həmin Qanunun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik enerjisinin istehlakı ilə bağlı texniki tələbləri;

3.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

4.1. qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları həmin Qanunun müvafiq maddələrinin qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

4.2. qanunların və normativ xarakterli aktların layihələri hazırlanarkən həmin Qanunun müvafiq maddələrinin qüvvəyəminmə tarixi nəzərə alınsın.

5. Bu Fərman (bu Fərmanın 2.1-ci bəndi istisna olmaqla) 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2023-cü il*

# Elektroenergetika haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq, elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatı, idxalı, ixracıvə istehlakı ilə bağlı elektroenergetika subyektləri, istehlakçılar və elektroenergetika sektorunda fəaliyyət göstərən dövlət orqanları (qurumları) arasında yaranan münasibətləri tənzimləyir, elektroenergetikanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

**1-ci fəsil**
**Ümumi müddəalar**

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **aktiv istehlakçı** - elektrik enerjisini istehlak etməklə yanaşı, bərpa olunan enerji mənbələri hesabına 150 kVt-dək (150 kVt daxil olmaqla) elektrik enerjisi istehsal edən hüquqi və ya fiziki şəxslər;

1.1.2. **balanslaşdırma** - ötürücü sistem operatoru tərəfindən keyfiyyət göstəricilərinə (tezlik, güc və gərginlik həddi) uyğun elektrik enerjisinin istehsalı, saxlanması, idxalı, ixracı və istehlakı arasında davamlı balansı təmin edən hərəkət və proseslər;

1.1.3. **balanslaşdırıcı elektrik enerjisi** - ötürücü sistem operatoru tərəfindən müəyyən edilmiş elektrik enerjisinin istehsal-istehlakının gündəlik qrafikinin icrası zamanı yaranan elektrik enerjisinin qeyri-balansının aradan qaldırılması üçün istifadə edilən elektrik enerjisi;

1.1.4. **balanslaşdırma məsuliyyəti** - elektrik enerjisinin topdansatış bazarı subyektlərinin elektrik enerjisi istehsalının, saxlanmasının, istehlakının və alqı-satqısının qəbul edilmiş qrafiklərə uyğun olaraq balanslaşdırılmasına dair öhdəlikləri, həmçinin onların ötürücü sistem operatoru qarşısında elektrik enerjisinin qeyri-balansının tənzimləməsindən irəli gələn maliyyə öhdəlikləri üçün məsuliyyəti;

1.1.5. **balanslaşdırıcı qrup** - elektrik enerjisinin qeyri-balansının tənzimlənməsi üçün elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında müqavilə əsasında yaradılan və həmin müqavilə ilə müəyyən edilmiş qaydada hər bir iştirakçısının balanslaşdırma məsuliyyəti daşıdığı qrup;

1.1.6. **balanslaşdırıcı bazar** - ötürücü sistem operatoru tərəfindən balanslaşdırma funksiyası, həmçinin elektrik enerjisinin qeyri-balansı ilə bağlı maliyyə məsələlərinin həlli zamanı topdansatış bazarı subyektləri arasında yaranan münasibətlər sistemi;

1.1.7. **balanslaşdırma qaydaları** - balanslaşdırıcı bazarda və köməkçi xidmətlər bazarında elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında yaranan münasibətləri tənzimləyən qaydalar;

1.1.8. **bazar operatoru** - elektrik enerjisinin mərkəzləşdirilmiş bazarının fəaliyyətini təşkil etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan hüquqi şəxs;

1.1.9. **bərpaolunan enerji mənbələri** - ətraf mühitdə daim mövcud olan, yaxud mütəmadi yaranan enerji mənbələri (hidroenerji, külək enerjisi, günəş enerjisi, geotermal enerji, biokütlə enerjisi, dəniz və okeanlarda dalğa enerjisi, qabarma və çəkilmə enerjisi, su axınlarının enerjisi və s.);

1.1.10. **elektroenergetika** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatını özündə ehtiva edən energetika sahəsinin sektoru;

1.1.11. **elektroenergetika sistemi** - mərkəzi operativ-dispetçer idarəetməsi yolu ilə elektrik enerjisinin istehsalını, saxlanmasını, ötürülməsini və paylanmasını vahid texnoloji prosesdə birləşdirən elektroenergetika obyektlərinin məcmusu;

1.1.12. **elektroenergetika obyektləri** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi və paylanması prosesində istifadə olunan elektrik stansiyaları, yarımstansiyalar, elektrik verilişi xətləri, mərkəzi operativ-dispetçer idarəetməsini təmin edən bina və qurğular;

1.1.13. **elektroenergetika subyektləri** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatı ilə məşğul olan hüquqi və ya fiziki şəxslər;

1.1.14. **elektroenergetika sisteminin rejimləri** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və istehlakı prosesini, habelə elektroenergetika obyektlərinin, o cümlədən elektrik qurğularının vəziyyətini xarakterizə edən texniki parametrlərin toplusu;

1.1.15. **enerji təhlükəsizliyi** - elektrik enerjisinin təminatının etibarlılığı, o cümlədən texniki təhlükəsizlik;

1.1.16. **elektrik enerjisi təminatının etibarlılığı** - elektroenergetika sisteminin bu Qanunda nəzərdə tutulan qaydada istehlakçıları elektrik enerjisi ilə fasiləsiz və dayanıqlı təchiz etmək qabiliyyəti;

1.1.17. **elektrik enerjisinin istehsalçısı (istehsalçı)** - elektrik enerjisinin istehsalını həyata keçirən elektroenergetika subyekti;

1.1.18. **elektrik enerjisinin təchizatçısı (təchizatçı)** - istehlakçıları elektrik enerjisi ilə təchiz edən elektroenergetika subyekti;

1.1.19. **elektrik enerjisinin istehlakçısı (istehlakçı)** - öz ehtiyacları üçün elektrik enerjisini satın alan sərbəst və ya sərbəst olmayan istehlakçı, habelə məişət və ya qeyri-məişət istehlakçısı;

1.1.20. **elektrik şəbəkəsi** - elektrik enerjisinin ötürülməsi və paylanması üçün nəzərdə tutulmuş elektrik qurğularının məcmusu;

1.1.21. **elektrik şəbəkələrinə çıxış** - ötürücü və ya paylayıcı şəbəkə istifadəçilərinin (elektrik enerjisi istehsalçıları, təchizatçıları, istehlakçıları, habelə ötürücü sistem operatoru və paylayıcı sistem operatoru) həmin şəbəkələrdən əvvəlcədən müəyyən edilmiş, ayrı-seçkiliyə yol verilməyən (bu Qanunun 11.6-cı maddəsinin tələblərinəzərə alınmaqla) və şəffaf şərtlərlə (müqavilə şərtlərinə və tənzimlənən qiymətlərə (tariflərə) uyğun) istifadə etmək hüququ, həmçinin ötürücü və paylayıcı sistem operatorlarının bu hüququn təmin edilməsi üzrə vəzifələri;

1.1.22. **elektrik enerjisinin qeyri-balansı** - ötürücü sistem operatoru tərəfindən müəyyən edilmiş elektrik enerjisinin istehsal-istehlakının gündəlik qrafikinin saathesabı hədləri ilə faktiki istehsal-istehlakın saathesabı hədləri arasındakı fərq;

1.1.23. **elektrik enerjisi bazarı** - elektrik enerjisinin topdansatış bazarı və pərakəndə satış bazarı;

1.1.24. **elektrik enerjisinin topdansatış bazarı(topdansatış bazarı)** - elektrik enerjisinin alqı-satqısı, sistem və köməkçi xidmətlərin göstərilməsi zamanı topdansatış bazarının subyektləri arasında yaranan münasibətlər sistemi;

1.1.25. **elektrik enerjisinin pərakəndə satış bazarı(pərakəndə satış bazarı)** - elektrik enerjisinin istehlakçılara təchizatı zamanı pərakəndə satış bazarının subyektləri arasında yaranan münasibətlər sistemi;

1.1.26. **elektrik enerjisinin topdansatış bazarının subyektləri** - elektrik enerjisinin topdansatış bazarında iştirak edən elektrik enerjisinin istehsalçıları, ötürücü sistem operatoru, paylayıcı sistem operatoru, təchizatçılar, sərbəst istehlakçılar və bazar operatoru;

1.1.27. **elektrik enerjisinin pərakəndə satış bazarının subyektləri** - elektrik enerjisinin pərakəndə satış bazarında iştirak edən elektrik enerjisinin istehsalçıları, ötürücü sistem operatoru, paylayıcı sistem operatoru, təchizatçılar,qapalı paylayıcı şəbəkələrin operatorları və istehlakçılar;

1.1.28. **elektrik enerjisinin mərkəzləşdirilmiş bazarı** - elektrik enerjisinin qısamüddətli (elektrik enerjisinin spot ticarəti), ortamüddətli (həftə, ay) və uzunmüddətli (rüb, il) dövrlər üçün informasiya sistemi vasitəsilə elektron ticarəti zamanı elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında yaranan münasibətlər sistemi;

1.1.29. **elektrik enerjisinin istehsalı** - elektrik stansiyalarında bütün növ enerji resurslarının elektrik enerjisinə çevrilməsi ilə əlaqədar hərəkətlər, həmçinin elektrik və istilik enerjisinin birgə istehsalı;

1.1.30. **elektrik enerjisinin saxlanması** - elektrik enerjisinin istehsal edildiyi anda elektrik şəbəkəsindən qəbul edilərək sonradan istifadə edilməsi məqsədilə elektrik qurğusu vasitəsilə yığılması və müəyyən müddətdən sonra elektrik şəbəkəsinə ötürülməsi ilə əlaqədar fəaliyyət;

1.1.31. **elektrik enerjisinin ötürülməsi** - elektrik enerjisinin ötürücü şəbəkə vasitəsilə paylayıcı şəbəkəyəvə istehlakçılara verilişi (təchizatı istisna olmaqla);

1.1.32. **elektrik enerjisinin paylanması** - elektrik enerjisinin paylayıcı şəbəkə vasitəsilə istehlakçılara verilişi (təchizatı istisna olmaqla);

1.1.33. **elektrik enerjisinin təchizatı** - elektrik enerjisinin istehlakçılara elektrik enerjisinin təchizatı müqavilələri əsasında satışı;

1.1.34. **elektrik enerjisinin istehsal-istehlakının gündəlik qrafiki** - elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında elektrik enerjisinin alqı-satqısına dair bağlanılmış müqavilələrə uyğun olaraq, hər gün üzrə elektrik enerjisinin saathesabı istehsal-istehlakının ötürücü sistem operatoru tərəfindən təsdiq edilmiş həcmi;

1.1.35. **elektrik enerjisinin spot-ticarəti** - elektrik enerjisinin əməliyyat günü dövrü və bir gün əvvəl rejimləri və saathesabı həcmlərlə qısamüddətli ticarəti;

1.1.36. **elektrik qurğuları** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və istehlakı üçün lazım olan qarşılıqlı əlaqəli avadanlıq və onlara aid tikililər kompleksi;

1.1.37. **elektrik stansiyası** - bütün növ enerji resurslarından, o cümlədən bərpa olunan enerji mənbələrindən elektrik enerjisinin istehsalı üçün lazım olan qarşılıqlı əlaqəli avadanlıq və onlara aid tikililərin kompleksi;

1.1.38. **elektrik şəbəkəsinə dairqaydalar** - elektroenergetika sisteminin planlaşdırılması, inkişafı, o cümlədən istehsal və saxlama güclərinin proqnozlaşdırılması, habelə elektrik şəbəkələrinə çıxış və elektrik şəbəkələrinə qoşulma, elektroenergetika sistemi rejimlərinin, o cümlədən əməliyyat rejiminin planlaşdırılması, habelə mərkəzi operativ-dispetçer idarəetməsi və paylayıcı sistem operatoru tərəfindən operativ-dispetçer idarəetməsi, əməliyyatın təhlükəsizliyi ilə bağlı elektroenergetika subyektləri, həmçinin həmin subyektlərlə istehlakçılar arasındakı qarşılıqlı münasibətlərin texniki aspektlərini tənzimləyən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən qaydalar toplusu;

1.1.39. **əməliyyat günü** - elektrik enerjisinin topdansatış bazarının subyektləri arasında bağlanılmış elektrik enerjisinin alqı-satqı müqavilələrinin icrası üçün ötürücü sistem operatorunun mərkəzi operativ-dispetçer idarəetmə funksiyasını həyata keçirdiyi cari gün;

1.1.40. **ikitərəfli müqavilə** - istehsalçılarla təchizatçılar və ya sərbəst istehlakçılar, habelə təchizatçılarla sərbəst istehlakçılar arasında bağlanılan elektrik enerjisinin alqı-satqı müqaviləsi;

1.1.41. **ikitərəfli müqavilələr bazarı** - ikitərəfli müqavilə əsasında elektrik enerjisinin alqı-satqısının həyata keçirildiyi bazar;

1.1.42. **köməkçi xidmətlər** - elektroenergetika sisteminin təhlükəsiz və etibarlı fəaliyyətini təmin etmək məqsədilə ötürücü sistem operatorunun elektrik enerjisinin topdansatış bazarı subyektlərindən əldə etdiyi,bu Qanunun 27.1-ci maddəsində nəzərdə tutulmuş xidmətlər;

1.1.43. **köməkçi xidmətlər bazarı** - elektrik enerjisinin topdansatış bazarı subyektləri tərəfindən ötürücü sistem operatoruna bu Qanunun 27.1-ci maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsi zamanı yaranan münasibətlər sistemi;

1.1.44. **kommersiya uçotu** - elektrik enerjisinin ötürülməsi, paylanması və təchizatı müqavilələri üzrə tərəflər arasında qarşılıqlı hesablaşmaların aparılması məqsədi ilə elektrik enerjisinin ölçülməsi və ölçmə nəticələrinin, habelə hesablama yolu ilə əldə edilən elektrik enerjisinin miqdarı haqqında məlumatların toplanması, saxlanması, emalı və ötürülməsi prosesi;

1.1.45. **kommersiya uçotu qaydaları** - elektrik enerjisi bazarında elektrik enerjisi bazarı subyektlərinin kommersiya uçotunun təşkili və təmin edilməsi ilə bağlı hüquqlarını və vəzifələrini müəyyən edən qaydalar;

1.1.46. **qapalı paylayıcı şəbəkə** - müəyyən ərazi ilə məhdudlaşan istehsal zonasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə həmin ərazidə yerləşən şəbəkə istifadəçilərini elektrik enerjisi ilə təmin edən və texniki səbəblərə görə istifadəçilərinin texnoloji proseslərinin əlaqəli olduğu və elektrik enerjisinin elektrik şəbəkəsinin mülkiyyətçisi və ya operatoru, yaxud onların mülkiyyətində və ya istifadəsində olan obyektlər tərəfindən istehlak olunduğu elektrik şəbəkəsi;

1.1.47. **qeyri-məişət istehlakçısı** - bu Qanunun 1.1.50-ci maddəsində nəzərdə tutulan istehlakçılar istisna olmaqla digər istehlakçılar;

1.1.48. **qəza** - elektrik qurğularının və ya onların hissələrinin fəaliyyətinin istismar zamanı dayanmasına və ya istismardan çıxmasına səbəb olan onların istismarının texnoloji parametrlərindən kənarlaşma;

1.1.49. **qəza ehtiyatı (bron)** - qəza hallarında elektrik enerjisinin fasiləsiz təchizatını tələb edən obyektlərin əsas qurğularının işləməsini təmin etməklə onların fəaliyyətinin pozulmasının, həmçinin ekoloji, sosial və iqtisadi fəsadların qarşısının alınması üçün sərf olunan elektrik enerjisinin minimal istehlak gücü;

1.1.50. **məişət istehlakçısı** - yaşayış evlərində və mənzillərdə, o cümlədən Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələrində, həmçinin bağlarda və qarajlarda məişət ehtiyacları üçün (sahibkarlıq fəaliyyəti istisna olmaqla) elektrik enerjisindən istifadə edən fiziki şəxs;

1.1.51. **mərkəzi operativ-dispetçer idarəetməsi** - ötürücü sistem operatoru tərəfindən elektroenergetika sistemində elektrik enerjisi təminatının etibarlılığına və elektrik enerjisinin keyfiyyət göstəricilərinə riayət olunması üzrə elektrik enerjisinin istehsalına, saxlanmasına, ötürülməsinə və paylanmasına fasiləsiz nəzarət və onların texniki tənzimlənməsi prosesi;

1.1.52. **mühafizə zonası** - elektrik şəbəkələrinin mühafizəsinin təmin olunması, istismarı üçün normal şəraitin yaradılması və zədələnməsinin qarşısının alınması, həmçinin insanların həyat və sağlamlığının təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyən olunmuş torpaq sahələri, su və hava məkanı;

1.1.53. **ötürücü şəbəkə** - elektrik enerjisinin ötürülməsi üçün nəzərdə tutulmuş elektrik qurğularının, o cümlədən 110 kV və ondan yuxarı gərginlikli transformator yarımstansiyalarının və elektrik verilişi xətlərinin məcmusu;

1.1.54. **ötürücü sistem operatoru** - icazə əsasında ötürücü şəbəkə ilə elektrik enerjisinin ötürülməsini, ötürücü şəbəkənin istismarını, yenilənməsini, genişləndirilməsini və mərkəzi operativ-dispetçer idarəetməsini həyata keçirən, sistem xidmətləri göstərən, həmçinin elektroenergetika sisteminin qonşu dövlətlərin elektroenergetika sistemləri ilə paralel işini təşkil edən hüquqi şəxs;

1.1.55. **paylayıcı sistem operatoru** - icazə əsasında paylayıcı şəbəkə ilə elektrik enerjisinin paylanmasını həyata keçirən hüquqi şəxs;

1.1.56. **paylayıcı şəbəkə** - elektrik enerjisinin paylanması üçün nəzərdə tutulmuş elektrik qurğularının, o cümlədən 110 kV və aşağı gərginlikli transformator yarımstansiyalarının və elektrik verilişi xətlərinin məcmusu;

1.1.57. **pərakəndə satış bazarı qaydaları** - elektrik enerjisinin pərakəndə satış bazarının subyektləri arasında yaranan münasibətləri tənzimləyən qaydalar;

1.1.58. **səlahiyyətli təchizatçı** - sərbəst olmayan istehlakçıların, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatını həyata keçirən hüquqi şəxs;

1.1.59. **sərbəst istehlakçı** - illik elektrik enerjisi sərfiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən həddə və ondan yuxarı olan istehlakçı;

1.1.60. **sərbəst olmayan istehlakçı** - illik elektrik enerjisi sərfiyyatı bu Qanunun 1.1.59-cu maddəsində nəzərdə tutulan həddən aşağı olan istehlakçı;

1.1.61. **sistem xidmətləri** - ötürücü sistem operatoru tərəfindən topdansatış bazarının subyektlərinə mərkəzi operativ-dispetçer idarəetmə funksiyalarının həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlər;

1.1.62. **tənzimləyici** - elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatı sahələrində dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən və statusu qanunla müəyyən edilən qurum;

1.1.63. **topdansatış bazarı qaydaları** - mərkəzləşdirilmiş elektrik enerjisi bazarında və ya ikitərəfli müqavilələr bazarında elektrik enerjisinin alqı-satqısı zamanı elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında yaranan münasibətləri tənzimləyən qaydalar;

1.1.64. **texniki şərtlər** - elektrik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulan tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə əlaqədar layihənin hazırlanmasına əsas verən, elektrik enerjisinin verilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə nəzərdə tutulmuş mənaları ifadə edir.

**Maddə 2. Elektroenergetika haqqında qanunvericilik**

2.1. Elektroenergetika haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının elektroenergetika sektorunu tənzimləyən digər normativ-hüquqi aktlarından ibarətdir.

2.2. Ələt azad iqtisadi zonasında elektroenergetika sektorunda münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Elektroenergetika sektorunda bazar münasibətlərinin tənzimlənməsi**

3.1. Elektroenergetika sektorunda bazar münasibətləri tənzimləyicinin təsdiq etdiyi aşağıdakı qaydalarla tənzimlənir:

3.1.1. topdansatış bazarı qaydaları;

3.1.2. balanslaşdırma qaydaları;

3.1.3. kommersiya uçotu qaydaları;

3.1.4. pərakəndə satış bazarı qaydaları;

3.1.5. ötürücü və paylayıcısistem operatorlarının elektrik enerjisi itkilərinin hesabat dövrü üçün normativ göstəricilərinin müəyyənləşdirilməsi qaydası;

3.1.6. elektrik enerjisi bazarının monitorinqi qaydası.

**2-ci fəsil**
**Elektroenergetika sektorunda dövlət siyasəti və dövlət tənzimlənməsi**

**Maddə 4. Elektroenergetika sektorunda dövlət siyasətinin əsas prinsipləri**

4.1. Elektroenergetika sektorunda dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

4.1.1. elektroenergetika sisteminin vahidliyi, etibarlılığı və təhlükəsizliyi;

4.1.2. elektroenergetika sektorunda idarəetmə və tənzimləmənin effektivliyi və şəffaflığı;

4.1.3. elektroenergetika subyektlərinin xidmətlərindən, habelə elektrik şəbəkəsindən bərabər və ayrı-seçkiliyə yol verilmədən istifadə imkanının yaradılması.

**Maddə 5. Elektroenergetika sektorunda dövlət tənzimləməsinin məqsədləri və dövlətin vəzifələri**

5.1. Elektroenergetika sektorundadövlət tənzimləməsininəsas məqsədləri aşağıdakılardır:

5.1.1. enerji təhlükəsizliyinin təmin edilməsi;

5.1.2. elektroenergetika subyektlərinin və istehlakçıların maraqları arasında balansın təmin olunması;

5.1.3. istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi.

5.2. Elektroenergetika sektorunda dövlətin vəzifələri aşağıdakılardır:

5.2.1. regional əməkdaşlığın inkişafı, özəl investisiyaların və davamlı iqtisadi inkişafın dəstəklənməsi;

5.2.2. əlverişli investisiya mühitinin yaradılması;

5.2.3. elektrik enerjisi bazarında rəqabət mühitinin formalaşdırılması və elektroenergetika sektorunda inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması;

5.2.4. elektroenergetika subyektlərinin effektiv və təhlükəsiz fəaliyyətinin təmin edilməsi;

5.2.5. istehlakçıların hüquqlarının müdafiəsi, o cümlədən sərbəst istehlakçıların elektrik enerjisi təchizatçısını seçmək hüququnun təmin edilməsi;

5.2.6. təbii inhisar sahəsində fəaliyyətin tənzimlənməsi;

5.2.7. elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadənin stimullaşdırılması və inkişaf etdirilməsi;

5.2.8. enerji resurslarından səmərəli istifadənin təşviq edilməsi;

5.2.9. ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin həyata keçirilməsinin təmin edilməsi;

5.2.10. elektroenergetika sektorunda dövlət nəzarətinin, o cümlədən elektrik enerjisi bazarının monitorinqinin həyata keçirilməsi;

5.2.11. elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən edilməsi;

5.2.12. elektrik enerjisi bazarının effektiv fəaliyyətinin, həmçinin istehlakçılara keyfiyyətli xidmət göstərilməsinin təmin edilməsi;

5.2.13. elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatı üzrə xərclərin minimuma endirilməsi və qiymətlərin (tariflərin) iqtisadi əsaslar olmadan dəyişdirilməsinin qarşısının alınması.

**Maddə 6.Elektroenergetika sektorunda tənzimləyicinin səlahiyyətləri**

6.1. Elektroenergetika sektorunda tənzimləyici aşağıdakıları həyata keçirir:

6.1.1. elektroenergetika subyektlərinə bu Qanunun 8.1.1-8.1.4-cü maddələrində nəzərdə tutulan icazələri verir;

6.1.2. bu Qanunun 3-cü maddəsində nəzərdə tutulan qaydaları, habelə elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması qaydalarını təsdiq edir;

6.1.3. elektroenergetika sektorunda tənzimlənən qiymətləri (tarifləri) müəyyən edir;

6.1.4. elektroenergetika subyektləri tərəfindən icazə şərtlərinə, habelə həmin subyektlər və istehlakçılar tərəfindən elektroenergetika sektorunu tənzimləyən-normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə riayət edilməsinə nəzarət edir;

6.1.5. elektroenergetika subyektləri üçün ödənilməsi məcburi olan, bu Qanunun 10-cu maddəsinə nəzərdə tutulan tənzimləmə haqqının məbləğini hesablayır və həmin subyektlərə bildirir;

6.1.6. elektroenergetika subyektləri arasında yaranan mübahisələrə baxır;

6.1.7. elektrik enerjisi istehlakçılarının şikayətlərinə baxır;

6.1.8. bu Qanunun 3.1.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq, ötürücü və paylayıcı sistem operatorlarının elektrik enerjisi itkilərinin hesabat dövrü üçün normativ göstəricilərini müəyyənləşdirir;

6.1.9. elektrik enerjisinin keyfiyyətinə dair texniki tələblərə riayət olunmasına nəzarət edir;

6.1.10. elektrik stansiyalarının, elektrik şəbəkələrinin payız-qış mövsümünə hazırlığının təmin edilməsinə nəzarət edir;

6.1.11. ötürücü və paylayıcı sistem operatorlarının hər il üzrə gəlir və xərclər smetalarının razılaşdırılmasında və onların icrasına nəzarətin həyata keçirilməsində iştirak edir.

6.2. Tənzimləyici bu Qanunun 3.1.6-cı maddəsində göstərilən qaydaya uyğun olaraq, aşağıdakılar daxil olmaqla, elektrik enerjisi bazarının monitorinqini həyata keçirir:

6.2.1. elektrik enerjisi istehsalçılarının elektrik şəbəkələrinə çıxışının;

6.2.2. ötürücü və paylayıcısistem operatorlarının maliyyə vəziyyətinin və maliyyə nəticələrinin;

6.2.3. icazə tələb olunan fəaliyyət növlərinin həyata keçirilməsində şəffaflığın;

6.2.4.elektroenergetika subyektlərinin elektrik qurğularının texniki göstəricilərinin;

6.2.5. elektroenergetika sektorunda təchizatın etibarlılığının və keyfiyyətinin;

6.2.6. elektrik şəbəkələrinə qoşulmanın;

6.2.7. elektroenergetika sektorunda təchizatçı-istehlakçı münasibətlərinin;

6.2.8. bu Qanunun 6.1.4-cü maddəsində nəzərdə tutulan tələblərə əməl olunmasının.

6.3. Tənzimləyici tərəfindən elektroenergetika sektorunu tənzimləyən Azərbaycan Respublikasının qanunları və onlara uyğun qəbul olunmuş digər normativ-hüquqi aktlar ilə müəyyən edilmiş sahibkarlıq fəaliyyətinə dair məcburi tələblərə riayət edilməsinin qiymətləndirilməsi məqsədilə sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə yoxlamalar "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

6.4. Elektroenergetika sektorunda dövlət nəzarətihəyata keçirilərkən elektroenergetika sektorunu tənzimləyən normativ-hüquqi aktların və normativ xarakterli aktların tələblərinin pozulması aşkar edildikdə, onların aradan qaldırılması ilə bağlı tənzimləyici tərəfindən yazılı göstərişlər verilir. Belə göstərişlərin icrası barəsində göstəriş verilmiş elektroenergetika subyektləri və istehlakçılar üçün məcburidir.

**Maddə 7. Elektrik enerjisi təminatının etibarlılığı**

7.1. Elektrik enerjisi təminatının etibarlılığı aşağıdakı tədbirlərlə təmin edilir:

7.1.1. elektroenergetika sisteminin vahid mərkəzi operativ-dispetçer idarəetməsinin və paylayıcı sistem operatoru tərəfindən operativ-dispetçer idarəetməsinin təmin olunması, həmçinin sistem avtomatikası vasitələrinin tətbiqi ilə elektroenergetika sisteminin dayanıqlı işinin təmin edilməsi;

7.1.2. elektrik enerjisi üzrə tələb və təklif balansının təmin edilməsi;

7.1.3. bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı daxil olmaqla, elektrik enerjisi istehsalının və istehlakının proqnozlaşdırılması;

7.1.4. istehsal və saxlama güclərinin tələbata uyğun səviyyəsinin təmin edilməsi, o cümlədən ehtiyat güclərin yaradılması məqsədilə yeni elektroenergetika obyektlərinin tikintisi;

7.1.5. elektrik enerjisinə olan tələbin, həmçinin uzunmüddətli perspektivdə tələbin qarşılanmasına kifayət etməsi üçün ötürücü və paylayıcı şəbəkələrin inkişafı və dayanıqlı fəaliyyətinin təmin edilməsi;

7.1.6. qiymət (tarif) tənzimlənməsi tədbirlərinin tətbiqi, o cümlədən elektrik enerjisi təminatının etibarlılığının artırılmasını və istehlakçılar üzrə sistem operatoru tərəfindən təsdiqlənən yük qrafiklərinin nizamlanmasını stimullaşdıran tədbirlərin görülməsi;

7.1.7. elektrik enerjisi təminatında çatışmazlıq halları ilə bağlı təxirəsalınmaz tədbirlərin hazırlanması və həyata keçirilməsinin təmin edilməsi.

**Maddə 8. Elektroenergetika sektorunda icazələr**

8.1. Elektroenergetika sektorunda aşağıdakı işlər bu Qanuna və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilənicazələr əsasında həyata keçirilir:

8.1.1. su-elektrik stansiyaları və bio kütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyalarında elektrik enerjisinin istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan yuxarı elektrik enerjisinin istehsalı;

8.1.2. elektrik enerjisinin ötürülməsi;

8.1.3. elektrik enerjisinin paylanması;

8.1.4. 150 kVt-dan yuxarı elektrik qurğularının istismarı;

8.1.5. elektrik enerjisinin idxalı və ixracı.

8.2. Bu Qanunun 8.1.1-8.1.4-cü maddələrində nəzərdə tutulan icazələr tənzimləyici tərəfindən verilir. Bu Qanunun 8.1.5-ci maddəsində nəzərdə tutulan icazə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

8.3. Elektrik enerjisinin ötürülməsinə və elektrik enerjisinin paylanmasına icazə hüquqi şəxslərə, elektrik enerjisinin istehsalına icazə isə hüquqi və ya fiziki şəxslərə verilir.

8.4. Bu Qanunun 8.1.1-8.1.3-cü maddələrində nəzərdə tutulan icazələrin şərtləri aşağıdakılardır:

8.4.1. icazə tələb olunan hərəkəti həyata keçirmək üçün şəxsin mülkiyyətində və ya istifadəsində müvafiq olaraq elektrik stansiyası, ötürücü və ya paylayıcı şəbəkə olmalı;

8.4.2. icazə tələb olunan hərəkəti həyata keçirmək üçün şəxs energetika və texniki sahələrdə müvafiq ixtisaslı kadrlara malik olmalı;

8.4.3. icazə tələb olunan hərəkət elektroenergetika sektorunu tənzimləyən normativ-hüquqi aktlarla müəyyən edilmiş texniki, hüquqi və iqtisadi tələblərə cavab verməli;

8.4.4. elektrik enerjisinin istehsalçısı bu Qanunun 11.3-cü və 11.4-cü maddələrinin, ötürücü sistem operatoru bu Qanunun 13.2-ci maddəsinin,paylayıcı sistem operatoru bu Qanunun 15.3-cü maddəsinin tələblərinə əməl etməlidir.

8.5. Bu Qanunun 8.1.1-8.1.3-cü maddələrində nəzərdə tutulan icazələrin alınması üçün ərizəyə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsində göstərilən sənədlərlə yanaşı, aşağıdakı sənədlər də əlavə olunur:

8.5.1. hüquqi şəxs əvvəlki ildə fəaliyyət göstərdiyi halda son bir il üzrə maliyyə hesabatı yaxud bank hesabından çıxarış;

8.5.2. balans mənsubiyyəti və kommersiya uçotu qurğularının quraşdırıldığı nöqtələr göstərilməklə, icazə tələb olunan hərəkətin həyata keçirildiyi obyektin, ötürücü və paylayıcı sistem operatorları tərəfindən isə, həmçinin müvafiq şəbəkənin sxemi;

8.5.3. hüquqi şəxsin nizamnaməsinin (xarici hüquqi şəxsin filialının və ya nümayəndəliyinin əsasnaməsinin) notarial qaydada təsdiq edilmiş surəti, hüquqi şəxsin təsisçiləri (iştirakçıları), müşahidə şurası (direktorlar şurası) və icra orqanının üzvləri (təkbaşçı icra orqanı) barədə məlumatlar, habelə olduğu halda,təsis müqavilələri və kənar (etibarnaməli) idarəçilik müqavilələrinin notarial qaydada təsdiq edilmiş surətləri;

8.5.4. fərdi sahibkarın elektroenergetika sektorunda fəaliyyətin həyata keçirilməsi üçün istifadə olunan əmlakı etibarnamə ilə idarəetməyə verildiyi halda, bu barədə müqavilənin notarial qaydada təsdiq olunmuş surəti.

**Maddə 9. Elektroenergetika sektorunda qiymətlər (tariflər)**

9.1. Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər tənzimləyici tərəfindən müəyyən edilir.

9.2. Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər aşağıdakılardır:

9.2.1. elektrik enerjisinin ötürülməsi tarifləri;

9.2.2. elektrik enerjisinin paylanması tarifləri;

9.2.3. bazar operatorunun xidmətlərinin tarifləri;

9.2.4. ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətləri;

9.2.5. sərbəst olmayan istehlakçılara, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçılara səlahiyyətli təchizatçı tərəfindən elektrik enerjisinin təchizatı tarifləri.

9.3. Elektroenergetika sektorunda qiymətlər (tariflər) elektroenergetika subyektlərinin elektrik enerjisinin ötürülməsi və paylanması üzrə əsaslandırılmış xərclərini tam ödəməklə, elektroenergetikanın inkişafını təmin etməli və sosial-iqtisadi inkişafı stimullaşdırmalıdır.

9.4. Elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması qaydaları tənzimləyici tərəfindən təsdiq edilirvə onun rəsmi internet səhifəsində dərc olunur.

9.5. Elektroenergetika sektorunda qiymətlərin (tariflərin) müəyyən olunması zamanı nəzərə alınmalı olan itkilər bu Qanunun 3.1.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq hesablanır.

9.6. Elektrik enerjisinin topdansatış bazarında bazar qiymətlərinin formalaşması mexanizmləri aşağıdakılara əsaslanır:

9.6.1. elektrik enerjisi alıcıları və satıcılarının qiymət təklifləri əsasında tələb və təklifin balansı;

*Ardı 4-cü səh.*

# Elektroenergetika haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

9.6.2. qiymətləri elektrik enerjisinin alqı-satqı müqaviləsi tərəflərinin müəyyən etməsi.

9.7. Topdansatış bazarında qiymət təkliflərinin verilməsi və qiymətin formalaşması topdansatış bazarı qaydaları və balanslaşdırma qaydaları ilə müəyyən edilir.

9.8. İkitərəfli müqavilələr bazarında elektrik enerjisinin alıcıları və satıcıları ikitərəfli müqavilə şərtlərini və qiymətləri sərbəst müəyyən edirlər.

**Maddə 10. Tənzimləyiciyə ödənilən tənzimləmə haqqı**

Elektrik enerjisi istehsalçıları, ötürücü sistem operatoru və paylayıcı sistem operatoru, habelə təchizatçılar tərəfindən tənzimləyiciyə tənzimləmə haqqı ödənilir.

### 3-cü fəsil
### Elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması, təchizatı və istehlakı

**Maddə 11. Elektrik enerjisinin istehsalı**

11.1. Elektrik enerjisinin istehsalı istehsalçı tərəfindən həyata keçirilir.

11.2. İstehsalçı istehsal etdiyi elektrik enerjisini pərakəndə satış bazarında yalnız elektrik enerjisinin təchizatına icazə aldığı təqdirdə satmaq hüququna malikdir.

11.3. İstehsalçı elektrik enerjisinin ötürülməsi və ya paylanması fəaliyyətini həyata keçirən şəxslərə münasibətdə hüquqi və iqtisadi baxımdan müstəqil olmalıdır.

11.4. İstehsalçı elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyəti ilə məşğul ola bilməz.

11.5. İstehsalçı istehsal etdiyi elektrik enerjisini ayrı-seçkiliyə yol vermədən və topdansatış bazarı qaydaları ilə müəyyən edilmiş prinsiplər əsasında satır.

11.6. Bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalçıları elektrik enerjisinin ötürülməsi və paylanması üçün üstünlüyə malikdirlər.

**Maddə 12. Elektrik enerjisi istehsalçısının vəzifələri və hüquqları**

12.1. Elektrik enerjisi istehsalçısının aşağıdakı vəzifələri vardır:

12.1.1. "Ətraf mühitin mühafizəsi haqqında" və "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən ətraf mühitin mühafizəsi və təhlükəsizlik tələblərinə, elektrik şəbəkəsinə dair qaydalarla müəyyən edilən keyfiyyət göstəricilərinə uyğun elektrik enerjisi istehsal etmək;

12.1.2. icazə şərtlərinə uyğun olaraq ötürücü və paylayıcı şəbəkələrə qoşulma nöqtəsində güc həcmlərini təmin etmək;

12.1.3. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, icazə şərtlərinə, habelə bu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;

12.1.4. elektrik enerjisi bazarında iştirak etmək üçün bu Qanunun 29-cu maddəsində nəzərdə tutulan müvafiq müqavilələri bağlamaq və onların şərtlərinə əməl etmək;

12.1.5. balanslaşdırma və köməkçi xidmətlər bazarlarında iştirak etmək, habelə balanslaşdırma qaydalarına uyğun olaraq balanslaşdırma məsuliyyətini daşımaq;

12.1.6. elektrik şəbəkəsinə dair qaydalarla müəyyən edilən texniki məsələlər barədə hesabat və məlumatları həmin qaydalara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

12.1.7. elektrik stansiyasının etibarlı və fasiləsiz işini təmin etmək;

12.1.8. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.3-cü maddəsi ilə müəyyən edilən enerji resurslarından səmərəli istifadəyə dair öhdəliklərə riayət etmək.

12.2. Elektrik enerjisinin istehsalçısı aşağıdakı hüquqlara malikdir:

12.2.1. topdansatış bazarında elektrik enerjisini almaq və satmaq;

12.2.2. bu Qanunun 11.2-ci maddəsinə uyğun olaraq pərakəndə satış bazarında elektrik enerjisini satmaq;

12.2.3. elektrik şəbəkəsinə qoşulmaq və istehsal etdiyi elektrik enerjisinin qoşulduğu şəbəkə vasitəsilə ötürülməsini tələb etmək;

12.2.4. istehsal etdiyi elektrik enerjisini saxlamaq.

**Maddə 13. Elektrik enerjisinin ötürülməsi**

13.1. Ötürücü sistem operatoru elektrik enerjisinin ötürülməsinə verilmiş icazə əsasında fəaliyyət göstərir.

13.2. Ötürücü sistem operatoru, habelə onun təsisçisi olduğu, yaxud birbaşa və ya dolayısı ilə iştirak etdiyi, eləcə də idarə etdiyi hüquqi şəxslər elektrik enerjisinin istehsalı, paylanması və təchizatı fəaliyyəti ilə məşğul ola biməz.

**Maddə 14. Ötürücü sistem operatorunun vəzifələri və hüquqları**

14.1. Ötürücü sistem operatorunun vəzifələri aşağıdakılardır:

14.1.1. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, icazə şərtlərinə,habelə bu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;

14.1.2. bu Qanunun 11.6-cı maddəsi nəzərə alınmaqla, elektrik enerjisi bazarının yeni subyektlərinin tikinti obyektlərinin ayrı-seçkiliyə yol verilmədən ötürücü şəbəkəyə qoşulmasını təmin etmək və elektrik enerjisinin ötürülməsini həyata keçirmək;

14.1.3. elektrik enerjisinin ötürülməsi xidmətinə uzunmüddətli tələbatın saxlanılması məqsədilə ötürücü şəbəkəyə texniki xidmət göstərmək, onun təmirini və inkişafını təmin etmək;

14.1.4. elektrik stansiyalarının və yüksəkgərginlikli elektrik şəbəkələrinin işinin təmin edilməsi üçün, sistem xidmətləri də daxil olmaqla,mərkəzi operativ-dispetçer idarəetməsini təmin etmək;

14.1.5. elektroenergetika sisteminin fasiləsiz balanslaşdırılmasını təmin etmək;

14.1.6. bu Qanunun 27-ci maddəsində nəzərdə tutulan köməkçi xidmətləri tətbiq etmək;

14.1.7. elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən istehlakçılar istisna olmaqla, digər istehlakçıların elektrik enerjisinin təminatına elektrik şəbəkəsinə dair qaydalara uyğun olaraq məhdudiyyətlər tətbiq etmək;

14.1.8. ötürücü şəbəkədə baş verən qəzaların aradan qaldırılmasını təmin etmək;

14.1.9. fövqəladə hallar zamanı elektroenergetika sisteminin idarəedilməsini ehtiyat dispetçer məntəqəsindən istifadə etməklə təmin etmək;

14.1.10. balanslaşdırıcı bazarın və köməkçi xidmətlər bazarının işini təmin etmək;

14.1.11. paralel iş rejiminin dayanıqlılığını təmin etmək üçün qonşu dövlətlərin elektroenergetika sistemləri ilə əməkdaşlıq etmək;

14.1.12. elektrik şəbəkəsinə dair qaydalarla müəyyən edilən texniki məsələlər barədə hesabat və məlumatları həmin qaydalara uyğun olaraq,müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

14.1.13. bu Qanunun 3.1.1-3.1.3-cü, 3.1.5-ci və 3.1.6-cı maddələrində nəzərdə tutulan qaydalar ilə tənzimlənən məsələlər barədə hesabat və məlumatları həmin qaydalara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

14.1.14. bu Qanunun 29.6-cı maddəsi ilə müəyyən edilən hallarda elektrik enerjisi verilişinin dayandırılacağı barədə istehlakçıya 3 (üç) gün əvvəl yazılı xəbərdarlıq göndərmək;

14.1.15. tikinti obyekti ötürücü şəbəkəyə qoşulmuş istehlakçının sayğacını (ağıllı sayğaclar istisna olmaqla) hər ay oxumaq və bu barədə istehlakçıya bildiriş, habelə bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq elektrik enerjisinin təchizatçısı ilə bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda təchizatçının adından hesab təqdim etmək;

14.1.16. tikinti obyekti ötürücü şəbəkəyə qoşulmuş istehlakçının sayğacının işlək vəziyyətdə olduğunu müəyyən etmək məqsədilə 3 (üç) ayda bir dəfə həmin sayğaca və onun qoşulma sxeminə baxış keçirmək (sahibkarlıq subyektlərinə münasibətdə bu Qanunun 19.14-cü maddəsinin tələblərinə uyğun olaraq);

14.1.17. hər növbəti il üçün ötürücü şəbəkənin istismarı və təmiri planlarını tərtib etmək;

14.1.18. hər növbəti il üçün ötürücü şəbəkə üzrə gəlir və xərclər smetasını hazırlayıb müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

14.1.19. elektrik enerjisinin idxalı və ixracı üçün infrastrukturu yaratmaq.

14.2. Ötürücü sistem operatorunun hüquqları aşağıdakılardır:

14.2.1. elektrik enerjisinin topdansatış bazarında şəffaf şəkildə, ayrı-seçkiliyə yol verilmədən və topdansatış bazarı qaydalarına uyğun olaraq ötürücü şəbəkədə elektrik enerjisi itkilərinin ödənilməsi məqsədilə elektrik enerjisini almaq, həmçinin balanslaşdırma məqsədilə elektrik enerjisini almaq və satmaq;

14.2.2. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların təkmilləşdirilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)və tənzimləyiciyətəkliflər vermək;

14.2.3. elektrik enerjisinin idxalı və ixracı üçün tələb olunan infrastrukturun ötürmə imkanları və ölkə ərazisində elektrik enerjisinə olan tələbat nəzərə alınmaqla məhdudiyyətlər müəyyən etmək.

14.3. Ötürücü sistem operatoru ötürücü şəbəkənin inkişaf etdirilməsi məqsədilə aşağıdakıları həyata keçirməlidir:

14.3.1. hər il ötürücü şəbəkənin inkişafı üzrə növbəti onillik plan və istehsal güclərinin kifayət edici səviyyədə olmasının qiymətləndirilməsi barədə məlumat hazırlamaq və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

14.3.2. hər il elektrik enerjisinə illik, beşillik və onillik tələbat proqnozunu hazırlayıb müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək.

14.4. Ötürücü sistem operatoru bu Qanununun 20.3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən elektroenergetika obyektlərini ötürücü şəbəkəyə qoşmaqdan imtina edə bilməz.

14.5. Ötürücü sistem operatoru mərkəzi operativ-dispetçer idarəetməsi ilə bağlı aşağıdakı funksiyaları həyata keçirir:

14.5.1. elektroenergetika sistemi rejimlərinin, həmçinin ölkələrarası elektrik enerjisi axınlarının idarə olunması;

14.5.2. elektroenergetika sistemində texnoloji pozuntuların qarşısının alınması, lokallaşdırılması və aradan qaldırılması;

14.5.3. elektroenergetika sistemində ehtiyat gücün operativ idarə edilməsi;

14.5.4. elektroenergetika sistemində elektrik enerjisinin istehsal-istehlakının gündəlik qrafikinin tərtib və təsdiq edilməsi, habelə onlara riayət olunmasının təmin edilməsi;

14.5.5. elektrik enerjisinin topdansatış bazarında elektrik enerjisinin istehsal-istehlakı üzrə gündəlik faktiki balansın tərtib edilməsi;

14.5.6. elektrik enerjisi tezliyinin sabit saxlanması üzrə gücün avtomatik tənzimlənmə sisteminin, əks-qəza və sistem avtomatikasının normal fəaliyyətinin təmin edilməsi.

14.6. Mərkəzi operativ-dispetçer xidmətinin fəaliyyəti ötürücü sistem operatorunun təklifləri nəzərə alınmaqla tənzimləyici tərəfindən təsdiq edilən təlimatla tənzimlənir.

14.7. Ötürücü sistem operatoru tərəfindən mərkəzi operativ-dispetçer idarəetməsi funksiyası həyata keçirilərkən elektrik şəbəkəsinə dair qaydalara uyğun olaraq, elektroenergetika sistemi rejimləri üzrə elektrik enerjisinin keyfiyyət göstəriciləri əsasında verilən göstərişlərin icrası elektrik enerjisi bazarının subyektləri üçün məcburidir.

14.8. Ötürücü sistem operatoru bu Qanunun 14.7-ci maddəsinə əsasən verilən göstərişlərini yerinə yetirməyən elektroenergetika subyektlərinin elektrik qurğularını elektrik şəbəkələrindən ayırmaq hüququna malikdir.

**Maddə 15. Elektrik enerjisinin paylanması**

15.1. Paylayıcı sistem operatoru elektrik enerjisinin paylanmasına verilmiş icazə əsasında fəaliyyət göstərir.

15.2. Paylayıcı sistem operatoru paylayıcı şəbəkənin idarə edilməsini, gücləndirilməsini və genişləndirilməsini, ona texniki xidmətin göstərilməsini, həmçinin istehlakçılara və paylayıcı şəbəkənin digər istifadəçilərinə elektrik enerjisinin paylanmasını təmin edir.

15.3. Paylayıcı sistem operatoru, habelə onun təsisçisi olduğu, yaxud birbaşa və ya dolayısı ilə iştirak etdiyi, eləcə də idarə etdiyi hüquqi şəxslər elektrik enerjisinin istehsalı, ötürülməsi və təchizatı fəaliyyəti ilə məşğul ola biməz.

15.4. Elektrik enerjisinin paylanması birdən çox paylayıcı sistem operatoru tərəfindən həyata keçirildikdəhər bir paylayıcı sistem operatoruna verilmiş icazədə onun xidmət etdiyi ərazi göstərilir.

**Maddə 16. Paylayıcı sistem operatorunun vəzifələri və hüquqları**

16.1. Paylayıcı sistem operatorunun vəzifələri aşağıdakılardır:

16.1.1. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, icazə şərtlərinə, habelə bu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;

16.1.2. elektrik enerjisi bazarında iştirak üçün bu Qanunun 29-cu maddəsində nəzərdə tutulan müvafiq müqavilələri bağlamaq və onların şərtlərinə riayət etmək;

16.1.3. bu Qanunun 29-cu maddəsinə əsasən bağlanılmış müqavilələrə uyğun olaraq ayrı-seçkiliyə yol verilmədən elektrik enerjisinin paylanması xidmətini göstərmək;

16.1.4. bu Qanunun 29.1.10-cu maddəsində nəzərdə tutulan elektrik şəbəkəsinə qoşulma müqaviləsinə, habelə bu Qanunun 29.1.11-ci və ya 29.1.12-ci maddələrində nəzərdə tutulan təchizat müqavilələrinə uyğun olaraq istehlakçıları razılaşdırılmış həcmdə və keyfiyyət göstəricilərinə uyğun etibarlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək;

16.1.5. elektrik enerjisinin paylanması xidmətinə uzunmüddətli tələbin təmin edilməsi məqsədilə paylayıcı şəbəkəyə texniki xidmət göstərilməsini, onun təmirini və inkişafını təmin etmək;

16.1.6. paylayıcı şəbəkə üzrə itkilərin səviyyəsinin müəyyən edilmiş texnoloji normalar daxilində saxlanılmasını təmin etmək;

16.1.7. bu Qanunun 29.6-cı maddəsi ilə müəyyən edilən hallarda elektrik enerjisi verilişinin dayandırılacağı barədə istehlakçıya 3 (üç) gün əvvəl yazılı xəbərdarlıq göndərmək;

16.1.8. paylayıcı şəbəkə istifadəçilərinin kommersiya sirri hesab edilən sənədlərinin və ya məlumatlarının konfidensiallığını təmin etmək;

16.1.9. paylayıcı şəbəkədə baş verən qəzaların aradan qaldırılmasını təmin etmək;

16.1.10. bu Qanunun 11.6-cı maddəsinin tələbləri nəzərə alınmaqla, elektrik enerjisi bazarının yeni subyektlərinin tikinti obyektlərinin ayrı-seçkiliyə yol vermədən paylayıcı şəbəkəyə qoşulmasını təmin etmək;

16.1.11. hər növbəti il üçün paylayıcı şəbəkənin istismarı və təmiri planlarını tərtib etmək;

16.1.12. hər növbəti il üçün paylayıcı şəbəkə üzrə gəlir və xərclər smetasını hazırlayıb müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

16.1.13. elektrik şəbəkəsinə dairqaydalarla müəyyən edilən texniki məsələlər barədə hesabat və məlumatları həmin qaydalara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

16.1.14. bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan qaydalarla tənzimlənən məsələlər barədə hesabat və məlumatları həmin qaydalara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

16.1.15. tikinti obyekti paylayıcı şəbəkəyə qoşulmuş istehlakçının sayğacını (ağıllı sayğaclar istisna olmaqla) hər ay oxumaq və bu barədə istehlakçıya bildiriş, habelə bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq elektrik enerjisinin təchizatçısı ilə bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda təchizatçının adından hesab təqdim etmək;

16.1.16. tikinti obyekti paylayıcı şəbəkəyə qoşulmuş istehlakçının sayğacının işlək vəziyyətdə olduğunu müəyyən etmək məqsədilə 3 (üç) ayda bir dəfə həmin sayğaca və onun qoşulma sxeminə baxış keçirmək (sahibkarlıq subyektlərinə münasibətdə bu Qanunun 19.14-cü maddəsinin tələblərinə uyğun olaraq);

16.1.17. paylayıcı şəbəkəni idarə etmək və bu məqsədlə operativ-dispetçer idarəetməsini həyata keçirmək.

16.2. Paylayıcı sistem operatorunun hüquqları aşağıdakılardır:

16.2.1. paylayıcı şəbəkədə elektrik enerjisi itkilərinin kompensasiyası üçün topdansatış bazarında elektrik enerjisi almaq;

16.2.2. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların təkmilləşdirilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təkliflər vermək.

16.3. Paylayıcı sistem operatoru xidmət etdiyi ərazidə elektrik enerjisinin paylanması prosesinin texnoloji, həmçinin operativ-dispetçer idarəetməsini həyata keçirir və həmin ərazidə elektrik şəbəkəsinin təhlükəsiz, etibarlı və səmərəli fəaliyyətinə cavabdehdir.

16.4. Paylayıcı sistem operatoru paylayıcı şəbəkənin inkişaf etdirilməsi məqsədilə aşağıdakıları həyata keçirməlidir:

16.4.1. hər il paylayıcı şəbəkənin inkişafı üzrə növbəti onillik plan hazırlamaq və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim etmək;

16.4.2. hər il elektrik enerjisinə illik, beşillik və onillik tələbat proqnozunu hazırlayıb müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)və tənzimləyiciyə təqdim etmək.

**Maddə 17. Qapalı paylayıcı şəbəkə**

17.1. Qapalı paylayıcı şəbəkənin idarə edilməsini, istismarını, yenilənməsini və genişləndirilməsini qapalı paylayıcı şəbəkə operatoru təmin edir.

17.2. Qapalı paylayıcı şəbəkə operatoru elektrik enerjisinin paylanmasına verilən icazə əsasında fəaliyyət göstərir.

17.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qapalı paylayıcı şəbəkələrin fəaliyyət qaydalarını müəyyən edir.

**Maddə 18. Elektrik enerjisinin təchizatı**

18.1. Elektrik enerjisinin təchizatçısı elektrik enerjisinin topdan və ya pərakəndə satışını həyata keçirir.

18.2. Elektrik enerjisinin təchizatçısı elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyəti ilə məşğul ola bilməz.

18.3. Elektrik enerjisinin təchizatı elektrik enerjisinin ötürülməsi və ya paylanması fəaliyyətinə münasibətdə hüquqi və iqtisadi baxımdan müstəqil fəaliyyətdir.

18.4. Ötürücü və paylayıcı sistem operatoru, habelə onun idarəetmə və ya qərar qəbuletmə prosesində iştirak edən şəxslər elektrik enerjisi təchizatçısının əmlakı üzərində mülkiyyət və ya istifadə hüququna, yaxud elektrik enerjisi təchizatçısının idarəetmə orqanlarının tərkibinin formalaşdırılmasında və ya həmin orqanların qərar qəbuletmə prosesində iştirak etmək hüququna malik ola və bu məqsədlə əqdlər bağlaya bilməzlər.

18.5. Elektrik enerjisi təchizatçısının vəzifələri aşağıdakılardır:

18.5.1. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə, habelə bu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;

18.5.2. istehlakçı qrupları üzrə elektrik enerjisi təchizatının şərtlərini rəsmi internet saytında dərc etmək;

18.5.3. istehlakçılara onların hüquqlarını, vəzifələrini, habelə sərbəst istehlakçılara elektrik enerjisinin təchizatçısını seçmək hüququnu izah etmək;

18.5.4. öz təşəbbüsü ilə istehlakçı (sərbəst olmayan istehlakçılar istisna olmaqla) ilə bağlanılmış müqavilə şərtlərinin dəyişdirilməsi nəzərdə tutulan tarixdən 1 (bir) ay əvvəl istehlakçıya bu barədə bildiriş təqdim etmək (göndərmək);

18.5.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), tənzimləyiciyə, bazar operatoruna, bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq müqavilə bağladığı ötürücü və (və ya) paylayıcı sistem operatoruna və elektrik enerjisinin istehsalçısına elektrik enerjisi bazarında fəaliyyətinə dair topdansatış bazarı qaydaları ilə müəyyən edilən hesabatlar və məlumatlar təqdim etmək;

18.5.6. bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq ötürücü və ya paylayıcı sistem operatoru ilə bağlanılmış müqavilədə nəzərdə tutulmadığı halda hər ay istehlakçıya istehlak edilmiş elektrik enerjisinin dəyəri barədə hesab təqdim etmək;

18.5.7. istehlakçı ilə bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq elektrik enerjisinin tələb olunan həcmdə və keyfiyyətdə verilməməsi nəticəsində istehlakçıya vurulmuş ziyanı ödəmək.

18.6. Elektrik enerjisi təchizatçısının hüquqları aşağıdakılardır:

18.6.1. ötürücü və (və ya) paylayıcı sistem operatorlarından müvafiq olaraq ötürmə, yaxud paylama xidmətlərinin göstərilməsini tələb etmək;

18.6.2. istehlakçıya təqdim edilmiş hesaba uyğun olaraq ondan istehlak etdiyi elektrik enerjisinin dəyərinin ödənilməsini tələb etmək.

18.7. Sərbəst olmayan istehlakçıların, habelə bu Qanunun 19.8-ci maddəsində nəzərdə tutulan sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli təchizatçı müəyyən edilir.

**Maddə 19. Elektrik enerjisinin istehlakı**

19.1. İstehlakçıların elektrik enerjisi ilə təchizatı təchizatçılar tərəfindən həyata keçirilir.

19.2. Sərbəst və sərbəst olmayan istehlakçıların elektrik enerjisi ilə təchizatının xüsusiyyətləri pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir.

19.3. Sərbəst istehlakçı elektrik enerjisini ölkə ərazisində fəaliyyət göstərən istənilən təchizatçıdan almaq hüququna malikdir. Sərbəst olmayan istehlakçılar elektrik enerjisini yalnız səlahiyyətli təchizatçıdan alırlar.

19.4. Təchizatçı ərazi məhdudiyyəti olmadan sərbəst istehlakçılara elektrik enerjisinin topdan və ya pərakəndə satışını həyata keçirir. Sərbəst istehlakçıların elektrik enerjisi təchizatı ikitərəfli müqavilələr, mərkəzləşdirilmiş bazarda bağlanan alqı-satqı müqavilələri və ya pərakəndə satış bazarında təchizatçı ilə bağlanılan elektrik enerjisinin təchizatı müqaviləsi əsasında həyata keçirilir.

19.5. Sərbəst olmayan istehlakçıların elektrik enerjisi ilə təchizatı yalnız həmin istehlakçının yerləşdiyi ərazidə fəaliyyət göstərən səlahiyyətli təchizatçı tərəfindən onlar arasında bağlanılan birtipli müqavilələr əsasında həyata keçirilir.

19.6. Elektrik enerjisi istehlakçısının vəzifələri aşağıdakılardır:

19.6.1. bu Qanunun 20.3-cü maddəsində nəzərdə tutulan elektrik qurğularının quraşdırılması qaydalarına, 36.3-cü maddəsində nəzərdə tutulan elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarına və elektrik qurğularının texniki istismar qaydalarına, həmçininbu Qanunun 6.4-cü maddəsinə uyğun olaraq verilən yazılı göstərişlərə əməl etmək;

19.6.2. elektrik enerjisinin təchizatı müqaviləsi ilə müəyyən edilmiş enerji istehlakı rejimlərinə riayət etmək;

19.6.3. elektrik qurğularını onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar etmək;

19.6.4. istehlak edilən elektrik enerjisinin dəyərini elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq təchizatçıya ödəmək;

19.6.5. ötürücü və ya paylayıcı sistem operatorunun səlahiyyətli nümayəndələrinin bu Qanunun 14.1.16-cı və 16.1.16-cı maddələrinə uyğun olaraq sayğacın işlək vəziyyətdə olduğunu müəyyən etmək, habeləbu Qanunun 14.1.15-ci və 16.1.15-ci maddələrinə uyğun olaraq sayğacın oxunması məqsədilə tikinti obyektlərinin daxilində quraşdırılmış elektrik sayğacına baxış keçirmək üçün sayğac quraşdırılmış yerə maneəsiz daxil olmalarını təmin etmək;

19.6.6. pərakəndə satış bazarı qaydalarına riayət etmək.

19.7. Elektrik enerjisi istehlakçısının hüquqları aşağıdakılardır:

19.7.1. bu Qanunun tələblərinə uyğun olaraq elektrik şəbəkələrinə qoşulmaq;

19.7.2. təchizatçı ilə müqavilə bağlamazdan əvvəl müqavilə şərtləri, tariflər (qiymətlər) barədə məlumat əldə etmək;

19.7.3. elektrik enerjisinin təchizatı müqaviləsində nəzərdə tutulmuş keyfiyyət göstəricilərinə uyğun, etibarlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmaq;

19.7.4. öz istehlakı üçün elektrik enerjisini saxlamaq;

19.7.5. elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərinə uyğun olaraq elektrik enerjisinin razılaşdırılmış həcmdə verilməməsi və ya aşağı keyfiyyətdə verilməsi nəticəsində vurulmuş ziyanın təchizatçı tərəfindən ödənilməsini tələb etmək;

19.7.6. təchizatçıdan bu Qanunla müəyyən edilən hallarda bildiriş almaq;

19.7.7. təchizatçı tərəfindən təklif olunan elektrik enerjisinə görə ödəniş üsullarından və sistemlərindən birini seçmək.

19.8. Təchizatçı seçmək hüququndan istifadə etməyən və ya bu Qanunun 19.9-cu maddəsində nəzərdə tutulan hallarda sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatı bu Qanunun 9-cu maddəsinə əsasən müəyyən edilən qiymət (tarif) əsasında səlahiyyətli təchizatçı tərəfindən həyata keçirilir.

19.9. Elektrik enerjisi təchizatçısının fəaliyyətinin dayandırılması və ya onun icazəsinin dayandırılması, yaxud ləğvi istehlakçıya elektrik enerjisi verilişinin dayandırılmasına səbəb ola bilməz.Bu hallarda istehlakçının təchizatçını dəyişdirməsi pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir.

19.10. Qeyri-məişət istehlakçıları elektrik qurğularına xidmət edən ayrıca işçiyə və ya işçi heyətinə malik olmalı, yaxud elektrik qurğularına xidmət göstərən hüquqi və ya fiziki şəxslə müqavilə bağlamalıdır.

19.11. Təchizatçı ilə bağlanılan elektrik enerjisinin təchizatı müqaviləsinin şərtləri pərakəndə satış bazarı qaydaları ilə müəyyən edilir.

19.12. Təchizatçı sərbəst istehlakçılarla bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinin şərtlərini dəyişdirmək istədikdə, dəyişikliklərin edilməsi nəzərdə tutulan tarixdən 1 (bir) ay əvvəl onlara bildiriş göndərməli və bildirişə həmin istehlakçıların onunla bağlanılmış müqaviləyə mülki qanunvericiliyə uyğun olaraq xitam vermək hüququ barədə məlumatı da daxil etməlidir. Sərbəst istehlakçılar təchizatçı tərəfindən onlara təqdim edilmiş yeni şərtlər ilə razılaşmadıqda,bağlanılmış elektrik enerjisinin təchizatı müqaviləsinə xitam verə bilərlər.

19.13. Aktiv istehlakçıların istehsal edilmiş elektrik enerjisinin istehlakından artıq hissəsini "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satmaq hüququ vardır.

19.14. Ötürücü və ya paylayıcı sistem operatorunun səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

19.15. Ötürücü və ya paylayıcı sistem operatorunun səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin sayğacının oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar ötürücü və ya paylayıcı şəbəkəyə qanunsuz (ötürücü və ya paylayıcı sistem operatorunun razılığı olmadan) qoşulma hallarını müəyyən etdikdə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.

19.16. Qanunsuz qoşulma halları aşkar edildikdə, ötürücü və ya paylayıcı sistem operatoru qanunsuz xətti dərhal elektrik şəbəkəsindən ayırmaqla, elektrik enerjisinin verilməsini dayandırmalıdır. Sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə ötürücü və ya paylayıcı sistem operatoru bu barədə akt tərtib etməli və həmin aktın bir nüsxəsini barəsində akt tərtib edilmiş şəxsə (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə), bir nüsxəsini isə inzibati xəta haqqında iş üzrə icraata başlanılması məsələsinə baxılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə, cinayət tərkibinin əlamətləri olduqda isə cinayət təqibi orqanına təqdim etməlidir. İstehlakçının elektrik enerjisinin talanmasında təqsirli olması həmin orqanların (qurumların) və ya məhkəmənin qərarı ilə müəyyən edildikdə ötürücü və ya paylayıcı sistem operatoru vurulmuş zərərin ödənilməsini istehlakçıdan tələb etməlidir. İstehlakçı tərəfindən sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində ötürücü və ya paylayıcı sistem operatoruna vurulmuş zərərin hesablanması ilə bağlı məsələlər pərakəndə satış bazarı qaydaları ilə tənzimlənir.

**Maddə 20. Elektrik şəbəkələrinə qoşulma**

20.1. Elektrik enerjisi bazarı subyektlərinin tikinti obyektlərinin elektrik şəbəkələrinə qoşulması şəffaf və ayrı-seçkiliyə yol verilmədən həyata keçirilir.

20.2. Elektrik enerjisi bazarı subyektlərinin tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə onların elektrik şəbəkəsinə qoşulması elektrik şəbəkəsinə dair qaydalar ilə tənzimlənir.

20.3. Elektrik enerjisi bazarı subyektləri tərəfindən onların tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş qaydaların və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən elektrik qurğularının quraşdırılması qaydalarının tələbləri yerinə yetirildikdən və ötürücü sistem operatoruna və ya paylayıcı sistem operatoruna qoşulma xidmətinə görə ödəniş edildikdən sonra ötürücü sistem operatoru və ya paylayıcı sistem operatoru elektrik enerjisi bazarı subyektlərinin tikinti obyektlərini elektrik şəbəkəsinə qoşmalıdır.

### 4-cü fəsil
### Elektrik enerjisi bazarının təşkili və fəaliyyəti

**Maddə21. Elektrik enerjisi bazarı**

21.1. Elektrik enerjisinin alqı-satqısı elektrik enerjisi bazarında həyata keçirilir.

21.2. Elektroenergetika subyektləri bu Qanun və topdansatış bazarı qaydalarıilə müəyyən edilmiş hallarda və qaydada topdansatış bazarında elektrik enerjisini sata və ala, habelə onunla bağlı xidmətlər göstərə və əldə edə bilərlər.

21.3. Təchizatçı pərakəndə satış bazarı qaydalarına uyğun olaraq pərakəndə satış bazarında elektrik enerjisi istehlakçılarına elektrik enerjisi sata bilər.

**Maddə 22. Elektrik enerjisi bazarının subyektləri**

22.1. Elektrik enerjisi bazarının subyektləri aşağıdakılardır:

22.1.1. elektrik enerjisi istehsalçıları;

22.1.2. ötürücü sistem operatoru;

22.1.3. paylayıcı sistem operatoru;

22.1.4. qapalı paylayıcı şəbəkə operatoru;

22.1.5. bazar operatoru;

22.1.6. təchizatçı (topdan və pərakəndə satış üzrə);

22.1.7. istehlakçılar.

22.2. Elektrik enerjisi istehsalçıları və təchizatçıları elektrik enerjisinin idxalı və ya ixracına icazə alaraq Azərbaycan Respublikasının ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələri əsasında regional elektrik enerjisi bazarlarında iştirak etmək hüququna malikdirlər.

*Ardı 5-ci səh.*

# Elektroenergetika haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

22.3. Elektrik enerjisinin idxalı və ya ixracı topdansatış bazarı qaydaları ilə tənzimlənir.

**Maddə 23. Bazar operatoru**

23.1. Elektrik enerjisinin mərkəzləşdirilmiş bazarının fəaliyyətinin təşkilibazar operatoru tərəfindən həyata keçirilir.

23.2. Bazar operatorunun vəzifələri aşağıdakılardır:

23.2.1. elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktların və normativ xarakterli aktların tələblərinə riayət etmək;

23.2.2. elektrik enerjisinin spot ticarətini (qısamüddətli) təşkil etmək;

23.2.3. elektrik enerjisinin ortamüddətli (həftə, ay) və uzunmüddətli (rüb, il) dövrlər üçün mərkəzləşdirilmiş ticarətini təşkil etmək;

23.2.4. topdansatış bazarı subyektlərinin elektrik enerjisinin mərkəzləşdirilmiş bazarına girişini təmin etmək;

23.2.5. topdansatış bazarı subyektlərini qiymətlər (tariflər) haqqında,topdansatış bazarı qaydaları və balanslaşdırma qaydaları ilə müəyyən olunan digər məlumatlarla təmin etmək;

23.2.6. bu Qanuna, elektrik şəbəkəsinə dair qaydalara, bazar qaydalarına və balanslaşdırma qaydalarına uyğun olaraq, ötürücü sistem operatorunun mərkəzi operativ-dispetçer xidmətinin ixtisaslaşmış bölməsi ilə qarşılıqlı əlaqədə elektrik enerjisinin topdansatış bazarını təşkil və idarə etmək;

23.2.7. topdansatış bazarı qaydaları və balanslaşdırma qaydalarına uyğun olaraq topdansatış bazarında elektrik enerjisi qiymətlərinin formalaşmasını təmin etmək;

23.2.8. topdansatış bazarı subyektlərinin bağladıqları elektrik enerjisinin alqı-satqı müqavilələri əsasında gündəlik tələb-təklif qrafiklərini qeydiyyata almaq, yoxlamaq və bu qrafiklərin vaxtlı-vaxtında ötürücü sistem operatoruna təqdim edilməsini təmin etmək;

23.2.9. balanslaşdırma qaydalarına uyğun olaraq balanslaşdırıcı bazarın işinin təşkili ilə bağlı, habelə həmin qaydalara və kommersiya uçotu qaydalarına uyğun olaraq topdansatış bazarı subyektlərinin tələb və təkliflərinin faktiki həcminin müəyyən edilməsi və elektrik enerjisinin topdansatış bazarının balansının tərtib edilməsi məqsədilə ötürücü sistem operatoru ilə əməkdaşlıq etmək;

23.2.10. topdansatış bazarı subyektləri arasında bu Qanunun 29-cu maddəsinə uyğun olaraq bağlanılan müqavilələrin və müqavilə öhdəliklərinin qeydiyyatınıaparmaq və bazar əməliyyatlarının sxemini tərtib etmək;

23.2.11. topdansatış bazarının fəaliyyəti barədə məlumatları topdansatış bazarı qaydaları ilə müəyyən olunan qaydada dərc etmək;

23.2.12. öz fəaliyyəti və topdansatış bazarının fəaliyyəti barədə topdansatış bazarı qaydaları ilə müəyyən edilən hesabatları və məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)və tənzimləyiciyə təqdim etmək.

23.3. Bazar operatorunun hüquqları aşağıdakılardır:

23.3.1. topdansatış bazarının tədqiqatını və təhlilini aparmaq;

23.3.2. elektrik enerjisi bazarının təkmilləşdirilməsi, habelə elektroenergetika sektorunu tənzimləyən normativ hüquqi aktlarda, o cümlədən topdansatış bazarı qaydalarında dəyişikliklər barədə tənzimləyiciyə təkliflər vermək.

23.4. Bazar operatoru topdansatış bazarında elektrik enerjisinin alqı-satqısını həyata keçirə və digər əqdlər bağlaya bilməz.

23.5. Topdansatış bazarının subyektləri bu Qanunda və topdansatış bazarı qaydalarında tələb olunan məlumatları bazar operatoruna təqdim etməlidirlər.

23.6. Bazar operatoru elektrik enerjisi bazarının subyektləri tərəfindən təqdim edilən kommersiya sirri-hesab edilən sənədlərin və ya məlumatların məxfiliyini qoruyub saxlamalıdır.

23.7. Bazar operatoru elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatı fəaliyyətləri ilə məşğul ola bilməz.

23.8. Elektroenergetika subyektlərinin idarəetmə və ya qərar qəbuletmə prosesində iştirak edən şəxslər bazar operatorunun müstəqilliyini təmin etmək məqsədi ilə onun idarə olunmasında və topdansatış bazarının fəaliyyətinin təşkili funksiyasının həyata keçirilməsində iştirak etməməlidirlər.

**Maddə 24. Elektrik enerjisinin topdansatış bazarı**

24.1. Topdansatış bazarının fəaliyyətinin təşkilinin əsas prinsipləri aşağıdakılardır:

24.1.1. topdansatış bazarı subyektlərinin topdansatış bazarına ayrı-seçkiliyə yol verilmədən çıxışı;

24.1.2. topdansatış bazarı subyektlərinin sərbəst qarşılıqlı əlaqələrinin təmin edilməsi;

24.1.3. alıcı və satıcıların qiymət təklifləri əsasında elektrik enerjisinin bazar qiymətinin formalaşması;

24.1.4. topdansatış bazarı subyektlərinin müqavilə öhdəliklərinə riayət etməsi.

24.2. Elektrik enerjisinin topdansatış bazarı aşağıdakılardan ibarətdir:

24.2.1. ikitərəfli müqavilələr bazarı;

24.2.2. mərkəzləşdirilmiş bazar;

24.2.3. balanslaşdırıcı bazar;

24.2.4. köməkçi xidmətlər bazarı.

**Maddə 25. İkitərəfli müqavilələr bazarı**

25.1. İkitərəfli müqavilələr bazarında elektrik enerjisinin alqı-satqısı ikitərəfli müqavilələr əsasında həyata keçirilir.

25.2. İkitərəfli müqavilə ilə elektrik enerjisinin alqı-satqısı müddəti (ən azı altı ay olmaqla) topdansatış bazarı qaydaları ilə müəyyən olunan maksimal müddətdən çox olmamalıdır.

25.3. İkitərəfli müqavilədə satılan elektrik enerjisinin həcmi, qiyməti, satış müddəti, ödəniş qaydası və tərəflərin hüquqları və vəzifələri göstərilməlidir.

25.4. İkitərəfli müqavilə bağlayan elektrik enerjisi bazarının subyektləri topdansatış bazarı qaydalarında nəzərdə tutulmuş müddətdə bazar operatorunu ikitərəfli müqavilə üzrə qeydə alınmış elektrik enerjisinin həcmləri barədə məlumatlandırır.

**Maddə 26. Balanslaşdırıcı bazar**

26.1. Balanslaşdırma qaydalarına uyğun olaraq, ötürücü sistem operatoru balanslaşdırıcı bazarda aşağıdakıları həyata keçirir:

26.1.1. elektroenergetika sisteminin balanslaşdırılması məqsədilə elektrik enerjisinin istehsalçıları ilə elektrik enerjisinin alqı-satqısını;

26.1.2. topdansatış bazarı subyektlərinin elektrik enerjisinin qeyri-balansının alqı-satqısını.

26.2. Elektrik enerjisinin istehsalçıları ötürücü sistem operatoru ilə bağlanılmış müqavilə əsasında balanslaşdırıcı bazarda iştirak etməli, habelə sərbəst (müqavilə bağlanılmamış) güclər üzrə balanslaşdırıcı elektrik enerjisi haqqında təkliflərini ötürücü sistem operatoruna təqdim etməlidirlər.

26.3. Bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalçılarının balanslaşdırmada iştirakı "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

26.4. Topdansatış bazarının subyektləri elektrik enerjisinin qeyri-balansının tənzimlənməsi üçün ötürücü sistem operatoru ilə bağlanılmış müqavilə əsasında balanslaşdırıcı bazarda iştirak etməlivə balanslaşdırma məsuliyyətini sərbəst şəkildə, yaxud balanslaşdırıcı qrup çərçivəsində daşımalıdırlar.

26.5. Balanslaşdırıcı qrup elektrik enerjisinin topdansatış bazarı subyektləri arasında balanslaşdırma qrupunun yaradılması haqqında müqavilə əsasında yaradılır və həmin müqavilə ilə müəyyən edilmiş qaydada balanslaşdırıcı qrupun hər bir iştirakçısı balanslaşdırma məsuliyyəti daşıyır.

26.6. Topdansatış bazarının subyektləri balanslaşdırma qaydalarında nəzərdə tutulmuş şərtlərə və qaydalara uyğun olaraq müqavilə münasibətləri əsasında balanslaşdırıcı qruplarda könüllü birləşmək hüququna malikdirlər.

26.7. Ötürücü sistem operatoru balanslaşdırıcı bazarın fəaliyyətinə dair balanslaşdırma qaydaları ilə müəyyən edilən hesabat və məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)və tənzimləyiciyə təqdim edir.

**Maddə 27. Köməkçi xidmətlər bazarı**

27.1. Elektrik enerjisi təminatının etibarlılığının və elektrik enerjisinin keyfiyyətinin artırılması məqsədilə topdansatış bazarının subyektləri ötürücü sistem operatoruna aşağıdakı köməkçi xidmətləri göstərirlər:

27.1.1. elektroenergetika sisteminin tezliyinin və gücünün tənzimlənməsi;

27.1.2. gərginlik və reaktiv enerjinin tənzimlənməsi;

27.1.3. sistem qəzalarından sonra elektroenergetika sisteminin fəaliyyətinin bərpası;

27.1.4. ehtiyat gücün saxlanılması.

27.2. Köməkçi xidmətlərin göstərilməsinə dair tələblər elektrik şəbəkəsinə dairqaydalarda müəyyən olunur.

27.3. Köməkçi xidmətlərin göstərilməsi müddəti və qaydaları, onların qiymətlərinin müəyyən olunması və ödənişlərin (xidmətlər ödənişli əsaslarla aparıldığı hallarda) həyata keçirilməsi qaydası balanslaşdırma qaydaları ilə müəyyən olunur.

**Maddə 28. Elektrik enerjisinin pərakəndə satış bazarı**

28.1. Pərakəndə satış bazarında təchizatçı aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

28.1.1. elektrik enerjisinin təchizatının icazə əsasında həyata keçirilməsi;

28.1.2. elektrik enerjisinin təchizatının bu Qanuna və pərakəndə satış bazarı qaydalarına uyğun həyata keçirilməsi;

28.1.3. elektrik enerjisinin təchizatının istehlakçılarla bağlanılmış müqavilələr əsasında həyata keçirilməsi.

28.2. Təchizatçı ilə elektrik enerjisinin təchizatı müqaviləsi bağlayan istehlakçının elektrik enerjisi ilə təchizatı həmin təchizatçı ilə ötürücü sistem operatoru və ya paylayıcı sistem operatoru arasında bağlanılmış müqavilə əsasında həyata keçirilir.

**Maddə 29. Elektrik enerjisi bazarında müqavilə münasibətləri**

29.1. Elektrik enerjisi bazarının subyektləri arasında aşağıdakı müqavilələr bağlanılır:

29.1.1. elektrik enerjisi bazarının subyektləri arasında bağlanılan ikitərəfli alqı-satqı müqaviləsi;

29.1.2. mərkəzləşdirilmiş bazarda iştirak etmək üçün bazar operatoru ilə bağlanılan müqavilə;

29.1.3. mərkəzləşdirilmiş bazarda bağlanılan elektrik enerjisinin alqı-satqı müqaviləsi;

29.1.4. balanslaşdırıcı elektrik enerjisi bazarında iştirak etmək üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;

29.1.5. elektrik enerjisinin qeyri-balansının tənzimlənməsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;

29.1.6. ötürmə xidmətlərinin göstərilməsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;

29.1.7. köməkçi xidmətlərin göstərilməsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;

29.1.8. paylanma xidmətlərinin göstərilməsi üçün paylayıcı sistem operatoru ilə bağlanılan müqavilə;

29.1.9. ötürücü şəbəkəyə qoşulmaq üçün ötürücü sistem operatoru ilə bağlanılan qoşulma müqaviləsi;

29.1.10. paylayıcı şəbəkəyə qoşulmaq üçün paylayıcı sistem operatoru ilə bağlanılan qoşulma müqaviləsi;

29.1.11. elektrik enerjisinin səlahiyyətli təchizatçı tərəfindən istehlakçıya təchizatı müqaviləsi;

29.1.12. elektrik enerjisinin sərbəst istehlakçıya təchizatı müqaviləsi;

29.1.13. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə zidd olmayan digər müqavilələr.

29.2. Bu Qanunun 29.1.2-29.1.11-ci maddələrində nəzərdə tutulan müqavilələr müvafiq olaraq elektrik şəbəkəsinə dair qaydalara, balanslaşdırma qaydalarına, topdansatış bazarı qaydalarına və ya pərakəndə satış bazarı qaydalarına əlavə edilmiş birtipli müqavilələrə uyğun tərtib edilməlidir. Bu Qanunun 29.1.1-ci və 29.1.12-ci maddələrində nəzərdə tutulan müqavilələrə dair tələblər topdansatış bazarı qaydaları və pərakəndə satış bazarı qaydaları ilə müəyyən edilir.

29.3. Topdansatış bazarındakı müqavilələrdə razılaşdırılmış müddətdə ödənişlər edilmədiyi hallarda maliyyə zəmanətinin olması və (və ya) elektrik enerjisi alqı-satqısının (xidmətlərin göstərilməsinin) dayandırılması şərtləri nəzərdə tutulmalıdır.

29.4. İstehlakçı müqavilə müddəti bitməmiş müqaviləni ləğv edərsə, təchizatçının müqavilənin ləğvi nəticəsində ona dəyən zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

29.5. Ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən istehlakçıya elektrik enerjisinin verilişi aşağıdakı hallarda dayandırıla bilər:

29.5.1. istehlakçının müvafiq yazılı müraciəti (elektrik enerjisinin verilməsinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

29.5.2. elektrik enerjisinin sayğacla müəyyənləşən dəyəri barədə hesabı istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra sərbəst olmayan istehlakçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən müddətdə, sərbəst istehlakçı tərəfindən isə elektrik enerjisinin təchizatı müqaviləsi ilə nəzərdə tutulmuş müddətdə tam məbləğdə ödənilmədikdə təchizatçının təşəbbüsü ilə;

29.5.3. təchizatçı dəyişdikdə yeni təchizatçı ilə müvafiq müqavilə bağlanılmadıqda;

29.5.4. təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda ötürücü və ya paylayıcı sistem operatorunun təşəbbüsü ilə;

29.5.5. məhkəmənin qərarı ilə;

29.5.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda həmin əməliyyatın aparılma zonasında dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanın göstərişi əsasında.

29.6. İstehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılması (dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar dayandırılma halı istisna olmaqla) yalnız fərdi qaydada həyata keçirilir. Elektrik enerjisinin dəyərini vaxtında ödəməyən istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılması, elektrik enerjisinin dəyərini vaxtında ödəyən digər istehlakçıların hüquqlarının pozulması ilə nəticələnməməlidir. Bu Qanunun 29.5.2-ci və 29.5.3-cü maddələrində nəzərdə tutulan hallarda, habelə illik iş planında göstərilən müddətlərdə təmir-profilaktika işləri aparılarkən yazılı xəbərdarlıq göndərilmədən elektrik enerjisinin verilməsinin dayandırılması qadağandır.

29.7. Ötürücü və ya paylayıcı sistem operatoru istehlakçıya verdiyi elektrik enerjisinin miqdarını yalnız sayğacın göstəricilərinə əsasən müəyyən etməli və bu barədə istehlakçıya hər ay bildiriş, habelə bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq elektrik enerjisinin təchizatçısı ilə bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda istehlakçının istifadə etdiyi elektrik enerjisinin dəyərini tam hesablayaraq təchizatçının adından hesab təqdim etməlidir (göndərməlidir). Ağıllı sayğacı olan istehlakçıya istifadə etdiyi elektrik enerjisinin dəyəri haqqında bildirişin və hesabın təqdim edilməsi (göndərilməsi) tələb olunmur.Bu Qanunun 28.2-ci maddəsinə uyğun olaraq təchizatçı ilə bağlanılmış müqavilədə nəzərdə tutulmadığı halda istehlakçıya hesab təchizatçı tərəfindən təqdim edilməlidir (göndərilməlidir). Hesabda istehlakçının elektrik enerjisinə görə sayğacın son göstəricisinə uyğun mövcud qalıq borcu və həmin qalıq borcun ödənilməli olduğu son tarix göstərilməlidir. İstehlakçı tərəfindən elektrik enerjisinin hesabında göstərilən dəyəri tam ödənildikdən sonra təchizatçı yol verilmiş səhvə görə düzgün hesablanmamış elektrik enerjisinin dəyərinin ödənilməsini istehlakçıdan tələb edə bilməz.

29.8. Bu Qanunun 29.5-ci maddəsində göstərilən elektrik enerjisinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən istehlakçının iştirakıilə aktla rəsmiləşdirildikdən sonra 1 (bir) gün müddətində elektrik enerjisinin verilməsi bərpa edilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir.

29.9. Tikinti obyektinin qoşulduğu ötürücü və ya paylayıcı şəbəkədən asılı olaraq məişət istehlakçıları üçün sayğaclar müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə sayğaclar istehlakçının vəsaiti hesabına müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir.

29.10. İstehlakçıların ağıllı sayğaclarla təchiz edilməsi "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

### 5-ci fəsil
### Elektroenergetika sektorunda təbii ehtiyatlardan istifadə

**Maddə 30. Torpaq sahələrindən istifadə**

30.1. Elektroenergetika obyektlərinin tikintisi, genişləndirilməsi, yenidən qurulması, təmiri və istismarı-məqsədilə torpaq sahələri üzərində hüquqlar torpaq qanunvericiliyinin tələblərinə uyğun olaraq əldə edilir.

30.2. Elektroenergetika sektorunda dövlət ehtiyacları üçün torpaqların alınması "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

**Maddə 31. Su ehtiyatlarından istifadə**

Elektrik stansiyaları tərəfindən süni və təbii sututarların ehtiyatlarından istifadə Azərbaycan Respublikasının Su Məcəlləsinə uyğun həyata keçirilir.

**Maddə 32. Ətraf mühitin mühafizəsi**

Elektroenergetika subyektləri ətraf mühitin mühafizəsi üzrə texniki reqlamentlərə əməl etməklə onların pozulmasına görə məsuliyyət daşıyır və ətraf mühitə zərərli təsirin azaldılmasına yönəldilmiş texniki və təşkilati tədbirlər həyata keçirirlər.

### 6-cı fəsil
### Elektroenergetikanın inkişafı

**Maddə 33. Elektroenergetikanın inkişafı üzrə dövlət proqramı**

33.1. Elektroenergetikanın inkişafı məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qısamüddətli (5 il müddətinə), orta müddətli (5 ildən 10 ilədək müddətə) və uzunmüddətli (10 ildən yuxarı müddətə) dövlət proqramları qəbul edilir.

33.2. Bu Qanunun 33.1-ci maddəsində nəzərdə tutulmuş dövlət proqramı layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirmə (SEQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilir.

**Maddə 34. Elektroenergetika obyektlərinin tikintisi, genişləndirilməsi və yenidən qurulması**

34.1. Elektroenergetika obyektlərinin tikintisi, genişləndirilməsi və yenidən qurulması Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, şəhərsalma və tikintiyə dair digər normativ-hüquqi aktlara, o cümlədən texniki normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

34.2. Elektroenergetika obyektlərinin layihələndirilməsi zamanı "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

34.3. Mövcud elektroenergetika obyektlərinin ətraf mühitə təsirinin qiymətləndirilməsi zamanı "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4.20-ci və 4.21-ci maddələrinin tələblərinə riayət olunmalıdır.

34.4. Elektroenergetika obyektlərinin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.

### 7-ci fəsil
### Elektroenergetika obyektlərinin təhlükəsizliyi və mühafizəsi

**Maddə 35. Elektroenergetika sektorunda təhlükəsizliyə dair ümumi tələblər**

35.1. Elektrik qurğularının, elektrik şəbəkələrinin, istehlakçılara məxsus avadanlıqların istismarı üzrə həyata keçirilən texniki-təşkilati tədbirlər insanların sağlamlığının, həyatının və ətraf mühitin təhlükəsizliyini təmin etməlidir.

35.2. İstehlakçılara paylanan elektrik enerjisi elektrik şəbəkəsinə dairqaydalarla müəyyən edilən keyfiyyət göstəricilərinə uyğun olmalıdır.

**Maddə 36. Elektroenergetika sektorunda istifadə edilən qurğuların və elektrotexniki avadanlıqların təhlükəsizliyinə dair tələblər**

36.1. Elektroenergetika subyektləri tikinti, quraşdırma, istismar və təmir işləri apararkən elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarına riayət etməli, inşa olunan və istismar edilən qurğuların zərərli və təhlükəli təsirinin azaldılmasına yönəldilmiş texniki, təşkilati və digər tədbirlər həyata keçirməlidirlər.

36.2. Elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması və istehlakı üçün nəzərdə tutulmuş elektrik stansiyalarının, elektrik şəbəkələrinin avadanlıqları, istehlakçıların elektrik qurğuları texniki reqlamentlərlə müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

36.3. Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydaları, elektrik qurğularının texniki istismar qaydaları, həmçinin elektrik enerjisinin istehlakı ilə bağlı texniki tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 37. Elektroenergetika obyektlərinin mühafizəsinin təmin edilməsi və elektrik şəbəkələrinin mühafizə zonaları**

37.1. Mühafizəsi təmin edilən mühüm əhəmiyyətli elektroenergetika obyektlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

37.2. Elektrik şəbəkələrinin mühafizəsinin təmin olunması, istismarı üçün normal şəraitin yaradılması və zədələnməsinin qarşısının alınması, həmçinin insanların həyat və sağlamlığının, təhlükəsizliyinin təmin edilməsi məqsədilə elektrik şəbəkələri ətrafında mühafizə zonaları müəyyənləşdirilir.

37.3. Mühafizə zonalarında Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan təsərrüfat işləri aparıla bilər.

37.4. Mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 38. Qəza ehtiyatı (bron) üzrə elektrik enerjisi təminatı**

Sistem qəzaları baş verən zaman obyektin enerji təchizatı ötürücü, yaxud paylayıcı sistem operatorunun dispetçer xidməti tərəfindən hazırlanmış və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmış qəza ehtiyatını (bron) təmin edən sxemlər əsasında həyata keçirilir.

### 8-ci fəsil
### Yekun müddəalar

**Maddə 39. Bu Qanunun qüvvəyə minməsi**

39.1. Bu Qanunun 39.2-ci və 39.3-cü maddələrində nəzərdə tutulanlar istisna olmaqla, bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

39.2. Bu Qanunun 9.2.2-ci, 9.2.3-cü, 9.2.5-ci, 11.3-11.5-ci, 13.2-ci, 14.3-cü, 15-ci (15.3-cü maddə istisna olmaqla), 16-cı (16.1.14-cü maddə istisna olmaqla), 17-ci, 18-ci (18.2-18.4-cü, 18.5.5-ci maddələr istisna olmaqla), 19.3-19.5-ci, 19.8-ci, 21.1-ci, 22-ci, 23-cü (23.2.2-23.2.7-ci, 23.2.9-cu, 23.2.11-ci, 23.2.12-ci, 23.3.2-ci və 23.4-cü, 23.5-ci maddələr istisna olmaqla), 24-cü (24.1.1-ci və 24.2-ci maddələr istisna olmaqla), 29.1.6-cı, 29.1.8-29.1.12-ci maddələri 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

39.3. Bu Qanunun 3-cü, 6.1.1-6.1.3-cü, 6.1.5-ci, 6.1.8-ci, 6.2-ci maddələri, 8.2-ci maddəsinin birinci cümləsi, 9.1-ci, 9.4-9.8-ci, 11.2-ci, 12.1.4-cü, 12.1.5-ci, 12.2.1-ci, 12.2.2-ci, 14.1.6-cı, 14.1.10-cu, 14.1.13-cü, 14.2.1-ci, 14.6-cı, 15.3-cü, 16.1.14-cü, 18.2-18.4-cü, 18.5.5-ci, 19.2-ci, 19.6.6-cı, 19.9-cu, 19.11-ci, 21.2-ci, 21.3-cü, 23.2.2-23.2.7-ci, 23.2.9-cu, 23.2.11-ci, 23.2.12-ci, 23.3.2-ci və 23.4-cü, 23.5-ci, 24.1.1-ci, 24.2-ci, 25-28-ci, 29.1.1-29.1.5-ci, 29.1.7-ci, 29.2-ci və 29.3-cü maddələri 2028-ci il iyulun 1-dən qüvvəyə minir.

39.4. Bu Qanunun qüvvəyə mindiyi gündən "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 1998-ci il 3 aprel tarixli 459-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 363; 2001, № 11, maddə 696; 2002, № 12, maddə 709; 2003, № 1, maddə 12; 2006, № 8, maddə 657; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 261, № 12, maddə 1090; 2016, № 12, maddə 1990; 2018, № 3, maddə 379; 2019, № 6, maddə 988;2021, № 5, maddə 429; 2022, №7, maddələr 696, 697; Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanunu)və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli 784-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 127; 2018, № 3, maddə 381; 2019, № 6, maddə 991) ləğv edilir.

39.5. Bu Qanunda nəzərdə tutulan normativ-hüquqi aktlar və normativ xarakterli aktlar qüvvəyə minənədək, elektroenergetika sektorunda yaranan münasibətləri tənzimləyən mövcud normativ-hüquqi aktlar və normativ xarakterli aktlar öz hüquqi qüvvəsini saxlayır və həmin aktların tələblərinə riayət olunmalıdır.

**Maddə 40. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 41. Hesabların ayrılması**

41.1. Elektroenergetika subyektləri qiymətləri tənzimlənən və tənzimlənməyən fəaliyyətlər üçün ayrıca mühasibat uçotu aparmalıdırlar. Hər bir fəaliyyət üzrə hesabatlar, həmçinin mənfəət və itkilər üzrə hesabatlar ayrıca tərtib olunmalıdır.

41.2. Elektroenergetika subyektləri qiymətləri tənzimlənən və tənzimlənməyən hər bir fəaliyyət barədə hesabatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim edirlər.

**Maddə 42. Keçid müddəalar**

42.1. Elektroenergetika subyektlərinin və istehlakçıların elektrik enerjisi bazarındakı dəyişikliklərə uyğunlaşması, o cümlədən azad rəqabət münasibətlərinin tətbiqi və subsidiyalaşmanın ləğv edilməsi məqsədilə elektrik enerjisi bazarı elementlərinin tətbiqi prosesinin üç mərhələdən ibarət olmaqla, aşağıdakı müddətlərdə həyata keçirilməsi nəzərdə tutulur:

42.1.1. birinci mərhələ bu Qanunun qüvvəyə mindiyi gündən 2025-ci il iyunun 30-dək davam edir;

42.1.2. ikinci mərhələ 2025-ci il iyulun 1-dən 2028-ci il iyunun 30-dək davam edir;

42.1.3. üçüncü mərhələ 2028-ci il iyulun 1-dən başlayır.

42.2. Hər bir mərhələdə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

42.3. Birinci mərhələdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

42.3.1. elektrik enerjisinin istehsalı və ötürülməsi fəaliyyətinin hüquqi və idarəçilik nöqteyi-nəzərindən ayrılması;

42.3.2. bu Qanunun 39-cu maddəsində göstərilən müddətlər nəzərə alınmaqla elektroenergetika subyektləri tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) icazələrin alınması;

42.3.3. ötürücü sistem operatorunun mərkəzi operativ-dispetçer xidmətinin ixtisaslaşmış bölməsi tərəfindən elektrik enerjisi istehsalının iqtisadi optimallaşdırılmasının tətbiqi;

42.3.4. elektrik enerjisinin paylanması və təchizatı fəaliyyətlərinin maliyyə və funksional nöqteyi-nəzərindən ayrılması;

42.3.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektrik enerjisinin ötürülməsi, elektrik enerjisinin topdan və pərakəndə satış qiymətlərinin (tariflərinin) (ikitərəfli müqavilələrlə satılan elektrik enerjisinin qiyməti istisna olmaqla),habelə ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətlərinin tənzimlənməsi;

42.3.6. ikinci mərhələyə hazırlıq, o cümlədən normativ hüquqi aktların qəbul edilməsi, eləcə də ikinci mərhələdə bağlanılması nəzərdə tutulan birtipli müqavilələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilməsi.

42.4. Bu Qanunun 42.3.2-ci maddəsində nəzərdə tutulmuş icazələr alınanadək elektroenergetika subyektlərinin fəaliyyəti onlar tərəfindən bu Qanunun qüvvəyə mindiyi tarixədək verilmiş və qüvvədə olan icazələr əsasında həyata keçirilir.

42.5. İkinci mərhələdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

42.5.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi ikinci mərhələ üçün nəzərdə tutulanmüvəqqəti topdansatış bazarı qaydaları əsasında elektrik enerjisinin topdansatış bazarının fəaliyyətini təşkil etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ikinci mərhələdə ötürücü sistem operatorunun tabeliyində ayrıca hüquqi şəxs kimi, üçüncü mərhələdə isə müstəqil bazar operatorunun yaradılması;

42.5.2. bazar operatoru tərəfindən bütün istehsalçılardan ("Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elektrik enerjisini zəmanətli alıcıya satan istehsalçılar istisna olmaqla) elektrik enerjisinin alınması;

42.5.3. bazar operatoru tərəfindən elektrik enerjisinin bütün təchizatçılara satılması;

42.5.4. elektrik enerjisinin paylanması və təchizatı fəaliyyətlərinin hüquqi və idarəçilik nöqteyi-nəzərindən ayrılması;

42.5.5. elektrik şəbəkəsinə dair qaydalara və ikinci mərhələ üçün nəzərdə tutulan müvəqqəti topdansatış bazarı qaydalarına uyğun olaraq, ötürücü və paylayıcı sistem operatorları tərəfindən elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyətlərinin həyata keçirilməsi;

42.5.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan qiymət və tariflərin tənzimlənməsi;

42.5.7. üçüncü mərhələyə hazırlıq, o cümlədən normativ hüquqi aktların qəbulu, eləcə də üçüncü mərhələdə bağlanılması nəzərdə tutulan bir tipli müqavilələrin təsdiq edilməsi.

42.6. Bu Qanunun 39-cu maddəsi nəzərə alınmaqla, birinci və ikinci mərhələdə tənzimləyicinin bu Qanunda nəzərdə tutulan səlahiyyətləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

42.7. Bu Qanunun 10-cu maddəsində nəzərdə tutulan tənzimləmə haqqının məbləği və ödənilmə qaydası birinci və ikinci mərhələ üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)tərəfindən müəyyən edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür.

42.8. İkinci mərhələdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə elektrik enerjisinin topdansatış bazarında balanslaşdırıcı bazarın və köməkçi xidmətlər bazarının ayrı-ayrı elementləri tətbiq edilə bilər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 160 QƏRAR Bakı şəhəri, 18 may 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, elektron nəzarət vasitələri tətbiq edilən məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslər üzərində nəzarətin daha effektiv həyata keçirilməsinin təmin olunması, habelə bu sahədə səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 795; 2021, № 3, maddə 285) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 6.7.3-cü yarımbəndə "təkrarlayır" sözündən sonra ", həmçinin elektron qolbağın açılması və ya ərazi məhdudiyyətinin pozulması halları mövcud olduqda, bununla bağlı dərhal məsul icra məmuruna (probasiya üzrə) və ya polis orqanının müvafiq vəzifəli şəxsinə məlumat verir" sözləri əlavə edilsin.

2. 6.7.4-cü yarımbəndə "olmadıqda," sözündən sonra "bu Qaydaların 6.7.3-cü yarımbəndində nəzərdə tutulmayan digər pozuntularla bağlı" sözləri əlavə edilsin və həmin yarımbənddə "onun" sözü "aşkar edilmiş bütün pozuntuların" sözləri ilə əvəz edilsin.

3. 8.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.2. Aşağıdakı hallarda elektron nəzarət vasitəsi nəzarət subyektinin üzərindən icra məmurunun (probasiya üzrə) və ya polis orqanının müvafiq vəzifəli şəxsinin əsaslandırılmış qərarı ilə müvəqqəti çıxarılır:

8.2.1. tibb müəssisəsinin rəyinə əsasən nəzarət subyektinə tibbi yardım göstərilməsi zərurəti olduqda;

8.2.2. barəsində inzibati həbs növündə tənbeh tədbiri tətbiq edildikdə;

8.2.3. barəsində həbs növündə qətimkan tədbiri seçildikdə;

8.2.4. nəzarət subyekti alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə ixtisaslaşdırılmış tibb müəssisəsinə və ya psixi pozuntusu ilə əlaqədar psixiatriya stasionarına yerləşdirildikdə.".

4. Aşağıdakı məzmunda 8.2-1-ci bənd əlavə edilsin:

"8.2-1. Bu Qaydaların 8.2.1-8.2.4-cü yarımbəndlərində qeyd olunan hallar aradan qalxdıqda və bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulan hallar olmadıqda, elektron nəzarət vasitəsi şəxsə yenidən tətbiq olunur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib



Mayın 19-da Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu günlərdə Milli Məclisdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasın keçirilməsinin əhəmiyyətindən danışıb.

O, Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlamentin bu tədbiri yüksək səviyyədə təşkil etməsini xüsusi vurğulayıb, iclasda böyük şəxsiyyət və müdrik rəhbər Heydər Əliyev haqqında spiker Sahibə Qafarovanın geniş məruzəsini, xarici ölkə parlamentləri sədrlərinin, parlamentlərin vitse-spikerlərinin, komitə sədrlərinin, parlamentlərarası dostluq qrupları rəhbərlərinin, beynəlxalq təşkilatların başçılarının çıxışlarını yüksək dəyərləndirib.

Sonra komitənin iclasının gündəliyi barədə məlumat verən Əhliman Əmiraslanov bildirib ki, gündəliyə iki məsələ - "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Özəl tibb fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin müzakirəsi daxil edilib.

Qanun layihələri barədə məlumatı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin əməkdaşı Seymur Əşrəfli təqdim edib.

Bildirilib ki, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində dəqiqləşdirmə xarakterli dəyişiklik təklif olunur. Belə ki, qüvvədə olan qanunun vətəndaşların tibbi-sosial yardım almaq hüququnu təsbit edən müvafiq maddəsində "Müvafiq icra hakimiyyəti orqanları" anlayışının "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" anlayışı ilə əvəz olunması təklif edilib.

"Özəl tibb fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin "Nağdsız hesablaşmalar haqqında" qanunun icrası məqsədilə hazırlandığını deyən məruzəçi bildirib ki, sənəddə nağdsız hesablaşmaların əhatə dairəsi genişləndirilərək bu sıraya tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlərin də əlavə edilməsi təklif olunub.

Sənədlər barədə fikrini bildirən komitə sədri Əhliman Əmiraslanov vurğulayıb ki, qanun layihələrində təklif olunan dəyişikliklər qüvvədə olan normativ hüquqi aktlara uyğunlaşdırma xarakteri daşıyır.

Deputatlar hər iki qanun layihəsini müzakirə olunmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Sonra iclasda cari məsələlərin müzakirəsi aparılıb. Komitə sədri Əhliman Əmiraslanov komitədə nəzərdə tutulan dinləmələrin keçirilməsi haqqında danışıb. Komitə sədrinin müavini Rəşad Mahmudov, deputatlar Soltan Məmmədov, Sədaqət Vəliyeva, İlham Məmmədov çıxış edərək bu barədə qeyd və təkliflərini diqqətə çatdırıblar.

***"Azərbaycan"***

# Azərbaycan töhfəsi

*Əvvəli 1-ci səh.*

Baş katib onu da qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdəndir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir.

Görüş zamanı dövlət başçısı İlham Əliyev COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunun Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi.

Xatırladaq ki, Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə bu quruma sədrliyə başlamış və sonra ölkəmizin sədrliyi müddəti yekdil qərarla daha bir il uzadılmışdı. O da danılmaz reallıqdır ki, 120 ölkə arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu və effektiv dövrünü yaşadı. COVID-19 pandemiyasının başlamasından dərhal sonra Qoşulmama Hərəkatı bu bəlaya qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış etdi.

Bu istiqamətdə atılan ilk uğurlu addımlardan biri 2020-ci ilin may ayında QH-nin onlayn Zirvə toplantısının keçirilməsi oldu. Eyni zamanda QH-nin sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə xüsusi sessiyasının keçirilməsi xüsusi önəm kəsb etdi. Eləcə də İlham Əliyevin təşəbbüsü ilə QH-nin Azərbaycan sədrliyi tərəfindən əvvəlcə BMT-nin İnsan Hüquqları Şurasında, daha sonra isə BMT Baş Assambleyasında "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə layihələrinin irəli sürülməsi və qəbul edilməsi beynəlxalq əhəmiyyətli nailiyyətlərdir.

## Azərbaycan pandemiya dövründə 100-ə yaxın ölkəyə yardım əli uzatdı

Dövlətimiz pandemiya dövründə 100-ə yaxın ölkəyə yardım əli uzadaraq humanitar kömək etdi. Belə ki, həmin çətin dövrdə Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərdi.

Martın 2-də baş tutan Zirvə görüşündə dövlət başçısı İlham Əliyev bildirdi ki, COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək.

Bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı fəlakətin aradan qaldırılması üçün qardaş ölkəyə ilk beynəlxalq yardımı da məhz Azərbaycan etdi. Dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması üçün dövlətimiz qardaş ölkəyə hər cür dəstək göstərdi.

Azərbaycan dövləti zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksi inşa edəcək. Bu yaşayış kompleksinin bir il ərzində tikilib istifadəyə verilməsi nəzərdə tutulur.

Türkiyəyə Azərbaycan dövlətinin böyük ərməğanı olan bu yaşayış kompleksinin aprelin 29-da qardaş ölkədə keçirilən və Prezident İlham Əliyevin də iştirak etdiyi "TEKNOFEST" festivalı çərçivəsində onlayn rejimdə təməlinin qoyulması mərasimi keçirildi.

Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün baş tutması da təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün qardaş ölkələrin güclərini birləşdirməsi baxımından mühüm əhəmiyyət daşıdı.

Gətirdiyimiz qısa nümunələrdən də göründüyü kimi, Azərbaycan qlobalmiqyaslı çağırışlara dərhal reaksiya verən və bu problemlərin aradan qaldırılması istiqamətində mühüm effektiv işlər gerçəkləşdirən, bir sözlə, hər zaman əməli işlərlə beynəlxalq təşəbbüslərə töhfələr verən ölkələrdən biridir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı ilə görüşüb



Mayın 19-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Sergey Lavrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Rusiya ikitərəfli əməkdaşlıq əlaqələri, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Tərəflər Azərbaycanla Rusiya arasında çoxşaxəli əməkdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edib və əlaqələrin geniş perspektivlərinin olduğunu bildiriblər. Bununla yanaşı, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi və "Heydər Əliyev İli" çərçivəsində yüksək səviyyədə keçirilmiş tədbirlərin xüsusi əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi, bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı olduğunu, sülh sazişinin razılaşdırılmasının və imzalanmasının əhəmiyyətini vurğulayıb. Eyni zamanda Azərbaycan tərəfi normallaşmanın digər istiqamətləri, belə ki, Azərbaycanla Ermənistan arasında ikitərəfli əsasda sərhədin delimitasiyası üzrə danışıqlarda, eləcə də nəqliyyat-kommunikasiyaların açılması prosesi üzrə Azərbaycanın mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Nazir eyni zamanda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, habelə Ermənistan tərəfindən qəbul edilmiş öhdəliklərə zidd olaraq erməni silahlı qüvvələrinin hələ də tam olaraq Azərbaycan ərazisindən çıxarılmamasının ciddi təhdid mənbəyi olduğunu vurğulayıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Moskvada Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb

Mayın 19-da Rusiya xarici işlər naziri Sergey Lavrovun dəvəti ilə Moskvada Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov və Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatlarının icrası ilə bağlı mövqelərini təqdim ediblər. Tərəflər "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi üzərində işi davam etdiriblər. Tərəflər arasında hələ də fikir ayrılıqlarının mövcud olduğu mövzular ətrafında konstruktiv fikir mübadiləsi aparılıb. Nazirlər Azərbaycan və Ermənistan arasında danışıqların təşkilinə görə Rusiya tərəfinə minnətdarlıqlarını bildiriblər. Tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

Nazirlər həmçinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovla da ayrıca görüşlər keçiriblər.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Şəki şəhərində Şəki və Qax rayonlarının sakinlərini qəbul edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbul zamanı vətəndaşlar aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlbedilmə, ünvanlı sosial yardım, mənzil və avtomobillə təminat, əlillik, reabilitasiya və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında müharibə iştirakçıları da olublar.

Hər bir müraciət fərdi qaydada araşdırılaraq nəticəsinə uyğun tədbirlər görülüb.

Vətəndaşlar müraciətlərinə əsasən aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq, ictimai işlər proqramlarına, reabilitasiya xidmətlərinə cəlb edilmələri üçün qeydiyyata alınıblar. Sorğu xarakterli müraciətlərlə bağlı müvafiq mövzularda izahatlar verilib.

* * *

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev mayın 19-da Göygöl rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, mineral xammal, biomüxtəliflik, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov mayın 19-da Xaçmaz su-kanal sahəsinin inzibati binasında Xaçmaz, Şabran və digər rayonlardan olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, kanalların beton üzlüyə alınması, yeni subartezian quyularının qazılması, uzun müddət işlənmiş subartezian quyularının təmiri və bərpası, şəxsi təsərrüfatlarda olan subartezian quyularının balansa götürülməsi, içməli suya olan tələbatın ödənilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması və digər məsələlərlə bağlı olub.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov Qəbələ rayonunda vətəndaşlarla görüşüb.

Daha sonra Qəbələ rayonu "10 №-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda Qəbələ və Oğuz rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək agentliyin balansında olan avtomobil yolları ilə bağlı şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Agentliyin balansında olmayan şəhər, qəsəbə və kənddaxili küçə və yollara aid şikayətlərlə bağlı isə vətəndaşlara aidiyyəti üzrə yerli strukturlara (yerli icra hakimiyyəti və yerli bələdiyyələr) müraciət etmələri tövsiyə olunub.

* * *

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsin İdarə Heyətinin sədri Nigar Alimova Gəncədə bu şəhərdən olan vətəndaşları qəbul edib.

Dövlət Xidmətindən bildirilib ki, qəbula gələnlər mülkiyyət hüquqlarının qeydiyyatı, kadastr, bələdiyyə torpaqlarının sərhədlərinin dəqiqləşdirilməsi, torpaqların təyinatının dəyişdirilməsi, işə qəbul və s. məsələlər barədə müraciət ediblər. Qəbulda bəzi məsələlər həllini tapıb, araşdırma tələb edən müraciətlər baxılması üçün qeydiyyata alınıb, vətəndaşlara qanunvericiliyin tələbləri barədə məlumat və əsaslandırılmış izahatlar verilib.

***AZƏRTAC***

# Silah və texnikanın yay mövsümündə istismar rejiminə keçidi başa çatıb

Bu ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun bütün qoşun növləri, hərbi hissə və bölmələrində silah, döyüş, eləcə də xüsusi texnika yay mövsümündə istismar rejiminə keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Plana uyğun olaraq yay mövsümündə silah və texnikanın fasiləsiz, eləcə də dayanıqlı istismarını təmin etmək məqsədilə hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində iqlim şəraitinin xüsusiyyətləri də nəzərə alınmaqla texnikaya mövsümi qulluq göstərilib. Qeyd edək ki, silah və texnikanın yay istismar rejiminə keçidi ilə əlaqədar bölmələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırlığının yüksək səviyyədə saxlanılması üçün planlı şəkildə bütün zəruri tədbirlər həyata keçirilib.



## Azərbaycanın QURTULUŞ salnaməsi:

# Heydər Əliyevdən İlham Əliyevə

30

# İqtisadi tərəqqiyə zəmin yaradan neft diplomatiyası

*Əvvəli 1-ci səh.*

Belə bir modelin nəzəri-praktik əsaslarının formalaşdırılması və iqtisadiyyatda uğurla tətbiqi isə həm də güclü şəxsiyyət amili ilə şərtlənir. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyini qoruyub saxlamaq mümkün olmuş və tənəzzül prosesinin aradan qaldırılmasına yönəlmiş ardıcıl tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmişdir. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürmüş və onun həyata keçirilməsinə nail olmuşdur.

Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı, aqrar islahatlar, o cümlədən torpağın özəl mülkiyyətə verilməsi və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır. Uğurla reallaşdırılan bu strategiya nəticəsində ölkə iqtisadiyyatının strukturu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirilmiş, bir sıra mərkəzi və dövlət idarəetmə orqanları ləğv edilmişdir. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul edilmiş Konstitusiyası ölkədə yeni iqtisadi sistemə keçidin hüququ əsası olmuşdur.

Yeni iqtisadi sistemin formalaşdırılması üçün 500-dən çox qanun qəbul olunmuş, dövlət başçısı tərəfindən çoxsaylı fərman və sərəncam imzalanmışdır. Bütün bu aktların praktikada hayata keçirilməsi iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, iqtisadiyyatın dövlət tərəfindən səmərəli tənzimlənməsinə gətirib çıxarmışdır.

Məlumdur ki, yeni iqtisadi sistemə keçid prosesində islahatların dərinləşməsində özəlləşdirmənin həlledici rolu var. Bu baxımdan nəzər salanda görürük ki, dövlət mülkiyyətinin özəlləşdirilməsinə, respublikada kiçik va orta sahibkarlığın inkişafına dair dövlət proqramlarının, müvafiq qanunların, Prezidentin fərman və sərəncamlarının həyata keçirilməsi Azərbaycanda bazar iqtisadiyyatı meyarlarının formalaşmasına, qeyri-neft sektorunun inkişafına zəmin yaratmışdır. Ölkənin ümumi daxili məhsulunda özəl bölmənin payı 1994-cü ildəki 9 faizdən 2003-cü ildə 73,3 faizə çatmışdır.

## Yeni neft strategiyası

Heydər Əliyev Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi üçün ölkənin malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni son dərəcə vacib sayaraq ilk gündən yeni neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi üçün əzmlə çalışmışdır. Azərbaycanın keçid dövründə məhdud maliyyə imkanları ilə zəngin neft-qaz yataqlarının mənimsənilməsinin, bu əvəzsiz təbii sərvətin Qərb bazarlarına çıxarılmasının çətinliyini başa düşən Heydər Əliyev çıxış yolunu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görmüşdür. 1993-cü ilin əvvəllərində hazırlanan layihənin iqtisadi və siyasi baxımdan Azərbaycanın deyil, Qərb şirkətlərinin maraqlarına daha çox cavab verdiyindən Heydər Əliyev bu istiqamətdə aparılan danışıqların yeni şərtlər çərçivəsində aparılmasını təmin etmişdir. Diplomatiya sahəsində zəngin bilikləri olan, biznes mühitinin incəliklərini dərindən mənimsəyən cənab İlham Əliyevin 1994-cü ilin aprelində ARDNŞ-nin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti təyin edilməsi də xalq və dövlət naminə düzgün seçim olmaqla Ulu Öndərin Qərb şirkətləri ilə aparılacaq danışıqlara necə böyük əhəmiyyət verməsinin bariz göstəricisi idi.

Milli iqtisadiyyatı, o cümlədən neft sənayesini dirçəltməyin yeganə yolu xarici sərmayələrin cəlb edilməsi olsa da, bu istiqamətdə ciddi problemlər mövcud idi. Qərb şirkətləri milyardlarla dollar sərmayəni mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycana yatırmağı riskli hesab edirdilər. Cəbhə bölgəsində atəşkəsin kövrək olduğu, dövlət idarəetmə mexanizmlərinin hələ tam oturuşmadığı, məlum qonşu dövlətlərlə münasibətlərdə ciddi gərginliyin hökm sürdüyü, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi bir vaxtda "Əsrin müqaviləsi"nin imzalanması hətta ölkə daxilində də bir çoxlarına utopiya kimi görünürdü. Qərb şirkətlərinin Xəzərlə bağlı hansısa layihənin gerçəkləşməsində iştirakı təkcə iqtisadi deyil, həm də strateji-siyasi məsələ kimi nəzərdən keçirilirdi. Azərbaycana kənar təzyiqlərin getdikcə artması fonunda bu danışıqları davam etdirmək ölkə iqtidarından ciddi siyasi iradə və əzmkarlıq tələb edirdi. Bəzi transmilli neft şirkətləri Azərbaycanın düşdüyü çətin vəziyyətdən istifadə edərək neft müqavilələrin özlərinin xeyrinə olan qaydada imzalamağa çalışır, rəsmi Bakı üçün bir sıra qəbuledilməz şərtlər irəli sürürdülər. Bu vəzifəyə təyinatından cəmi iki həftə sonra neft müqaviləsi layihəsinin hazırlanması məqsədilə əvvəl Türkiyəyə, daha sonra isə ABŞ-nin Hyuston şəhərinə yola düşən cənab İlham Əliyev diplomatik bacarığını yüksək səviyyədə nümayiş etdirmiş, Qərb şirkətlərində inam və etimad formalaşdırmağa nail olmuşdur.

Azərbaycan rəhbərliyi həmin illər aparıcı Qərb şirkətləri ilə danışıqların məntiqi sonluqla yekunlaşmasına nail olmuşdur. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı ilə düşmüş qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirilmişdir. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk ölkə olmaqla Xəzər dənizində beynəlxalq iqtisadi əməkdaşlığın bünövrəsini qoymuşdur. Heydər Əliyev o dövrün böhranlı sosial-iqtisadi şəraitində növbəti dəfə böyük siyasi iradə, dəqiq iqtisadi hesablama və müdriklik nümayiş etdirərək müstəqil Azərbaycanın yeni neft strategiyasını irəli sürmüş, buna qarşı yönəlmiş bütün maneələri mətinliklə dəf etmişdir.



Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", Günəşli" yataqlarının birgə mənimsənilməsini nəzərdə tutan bu sazişin reallaşması təkcə respublikamız üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyət daşıyırdı. Regionda beynəlxalq əməkdaşlığın təməlini qoymuş bu qlobal enerji müqaviləsi eyni zamanda Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqləyirdi. Bununla regionda digər qlobal enerji və kommunikasiya layihələrinin gerçəkləşdirilməsi anlamında da müsbət meyil yaranmış, Azərbaycanın Qərb dövlətləri ilə münasibətləri strateji müstəvidə inkişaf etməyə başlamışdır.

"Əsrin müqaviləsi"nin imzalanması ilə Xəzərdə maraqları təmin olunmuş bəzi aparıcı Qərb dövlətlərinin, o cümlədən ABŞ-nin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağı artmış, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq sahəsində tamamilə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Bu müqavilə respublikamızın dövlət müstəqilliyinin mühüm təminatına çevrilməklə azad iqtisadi mexanizmlərin tətbiqini və dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etmişdir. Onun imzalanması ilə Azərbaycan Cənubi Qafqaz regionunda sülhün, sabitliyin, iqtisadi tərəqqi və inkişafın başlıca təminatçısına çevrilmişdir. Yeni neft strategiyasının uğurları Azərbaycanın Avroatlantik məkana inteqrasiya prosesini də sürətləndirmiş, respublikamıza sərmayə qoyulması sahəsində ciddi dönüş yaratmış, ölkə iqtisadiyyatının digər sahələrinin, habelə sosial infrastruktur obyektlərinin inkişafına əsaslı təkan vermişdir. Bütün müqavilələr üzrə Azərbaycanın neft-qaz sənayesinə yönəldiləcək xarici sərmayənin həcmi isə təqribən 60 milyard dollardan çox olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, indiyə kimi "Azəri-Günəşli-Çıraq" yataqlar blokunun işlənməsinə 40 milyard dollardan çox sərmayə qoyulmuşdur. "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda indiyədək minlərlə yeni iş yeri açılmışdır. Müqavilənin digər mühüm üstünlüyü odur ki, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından çıxarılan qaz ehtiyatlarının hamısı bilavasitə Azərbaycana çatır.

Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının təməli olan "Əsrin müqaviləsi"nin imzalanması ilə həyata keçirilməyə başlayan yeni neft strategiyası ölkədə yeni iqtisadi sistemə keçidin lokomotivinə çevrildi.

## İqtisadi tənəzzüldən dayanıqlı inkişafa doğru

Yeni iqtisadi sistemə keçidlə bağlı Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər ölkənin sosial-iqtisadi inkişafı yolunda öz bəhrələrini verdi. 1995-ci ildə ölkə iqtisadiyyatında sabitlik təmin edildi, sonrakı ildə isə artıq sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başladı. 1996-cı ildə əhalinin əməkhaqqı 50, pensiya, müavinətlər və büdcə təşkilatlarında əməkhaqqı 70 faiz artdı. 1997-ci ildə neft sənayesində azalma sürəti 0,3 faizə endi, 1998-ci ildə hasilat tam sabitləşdi və sonrakı illərdə isə artmağa başladı. Yeni neft strategiyası ölkənin valyuta ehtiyatlarını 1994-cü ildəki 10 milyon dollardan 2003-cü ildə 1,4 milyard dollara çatdırmağa, 800 milyon dollar vəsaiti olan Dövlət Neft Fondunu yaratmağa imkan verdi. 1996-cı ildə ümumi daxili məhsul istehsalında ilk dəfə artım (1,3 faiz) qeydə alındı, 1997-ci ildə bu artım 5,8, 1999-cu ildə 7,4, 2000-ci ildə 11,1, 2001-ci ildə 9,9, 2002-ci ildə 19,6, 2003-cü ildə isə 11,2 faiz oldu. Bütövlükdə 1996-2003-cü illərdə ÜDM 89 faiz artdı.

Ölkəmizin bir çox beynəlxalq iqtisadi və maliyyə qurumlarına daxil olmasına, kənd təsərrüfatının səmərəliyinin yüksəldilməsi, kiçik və orta biznesin inkişafı, gerilənmənin azaldılması, inflyasiyanın aşağı salınması və dövlətimizin beynəlxalq iqtisadi münasibətlərdə bərabərhüquqlu tərəfdaş imicinin yaxşılaşdırılması da daxil olmaqla milli iqtisadiyyatın təkmilləşdirilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə təminat yaratdı.

## Xarici iqtisadi siyasətdə də uğurlar əldə edildi

Azərbaycan dövlətinin iqtisadi siyasətində xarici ticarət münasibətlərinin sərbəstləşdirilməsi ilə bağlı tədbirlər də görülürdü. Bunun da nəticəsində ixrac edilən mallara norma, lisenziyalaşdırma tətbiq olunmurdu. Gömrük rüsumlarının maksimum səviyyəsi isə 15 faizdən çox deyildi. 1997-ci ildə Azərbaycan 84 ölkə ilə ticarət edirdisə, 2000-ci ildə xarici ticarət tərəfdaşlarının sayı 120-dən çox idi. 1995-2003-cü illərdə ixrac 4,1, idxal 3,9 dəfə artmışdır. Bu müddətdə ölkənin xarici ticarət dövriyyəsi 4 dəfə artaraq 1,3 milyard dollardan 5,2 milyard dollara çatmışdır.

Xarici sərmayədarların Azərbaycan iqtisadiyyatında iştirakı sənayeni müasir texnologiyalarla təchiz etmək baxımından real imkanlar yaradırdı. 1995-2003-cü illərdə ölkə iqtisadiyyatına 16 milyard dollardan çox sərmayə qoyulmuşdu. Bunun 12,3 milyard dolları və ya 77 faizi xarici sərmayələr idi. Qalanını isə milli iqtisadiyyatın inkişafı üçün müsbət amil olan daxili sərmayələr təşkil edirdi. Təkcə 2000-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 7,5 milyard dollardan çox xarici sərmayə qoyulmuşdu. Adambaşına düşən sərmayələrin həcminə görə bu, MDB məkanında ən yüksək göstərici idi.

Xarici sərmayələrin əksəriyyəti ölkə iqtisadiyyatının inkişafında xüsusi yeri olan neft sənayesinə və elektrik enerjisi sahəsinin yenidən qurulmasına yönəldilirdi.

## Qeyri-neft sektorunun inkişafı prioritet oldu

Azərbaycanda metallurgiyanın kompleks inkişafına dair proqramın həyata keçirilməsində görülən işlər çərçivəsində 1995-2003-cü illər ərzində qara metallurgiya müəssisələrinə 920 milyon, əlvan metallurgiya müəssisələrinə 700 milyon dollar sərmayə qoyulmuşdu.

Kimya və neft kimyası, maşınqayırma sənayesi müəssisələrinin yenidən qurulması və modernləşdirilməsinə xeyli məbləğdə xarici sərmayə cəlb edilirdi. Neftdən qazanılan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına nail olunurdu.

Torpaq islahatının aparılması tezliklə müsbət nəticələrini verir və 1996-cı ildən etibarən əsas kənd təsərrüfatı məhsullarının istehsalında dinamik inkişaf müşahidə edilirdi. 2003-cü ilin əvvəllərində aqrar islahatın birinci mərhələsi ümumən başa çatmış, əhaliyə 1 milyon 350 min hektardan artıq torpaq paylanmışdır. Azərbaycanın torpaq mülkiyyətinin 50 faizə yaxını dövlət mülkiyyətində saxlanılmaqla qalan hissəsi bələdiyyə (23,5 faiz və xüsusi mülkiyyətə (19,6 faiz) verilmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən torpaq islahatı öz unikallığı ilə seçilirdi. Məhz bu islahatlar nəticəsində 1990-cı illərin əvvəllərində tənəzzül dayandırılmış və gələcək inkişafın əsası qoyulmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında əvvəlki vergi borcları silinmiş, vergi tətilləri tətbiq olunmuş, kənd təsərrüfatı məhsulları istehsalçıları vergilərdən tam azad edilmişlər. Həyata keçirilən ardıcıl aqrar islahatlar nəticəsində kənd təsərrüfatında 2003-cü ildə özəl sektorun payı 100 faizə yaxınlaşmışdır.

## Qətiyyətin daha bir uğuru - nəqliyyat boru kəmərlərinin tikintisi

"Əsrin müqaviləsi" imzalandıqdan sonra hasil olunacaq milyonlarla ton xam nefti Qərb bazarlarına çıxaracaq ixrac boru kəmərlərinin hansı ölkələrin ərazisindən keçəcəyi də uzun müddət mübahisəli müzakirə mövzularından biri olmuşdur. Lakin Heydər Əliyevin siyasi iradəsi, prinsipial və qətiyyətli mövqeyi, habelə o zaman ARDNŞ-nin birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin danışıqlar prosesində nümayiş etdirdiyi diplomatik məharəti sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə optimal qərarlar qəbul edilmişdir. 1996-cı ilin yanvar ayında "Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında" Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanmış, 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verilmişdir.

Geosiyasi amillərlə bağlı ixrac boru, kəmərlərinin çoxvariantlığının zəruriliyi alternativ layihələr üzərində də gərgin iş aparılmasını aktual məsələ kimi gündəmə gətirmişdir. 1997-ci ildə Azərbaycan və Gürcüstan hökumətləri arasında neftin Qara dənizə çıxarılması üçün Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqlini nəzərdə tutan saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Azərbaycanın tarixində daha bir əlamətdar hadisə yaşanmışdır. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti isə 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verilmişdir.

Bununla belə, həmin kəmərlər də Azərbaycanın getdikcə artan ehtiyaclarını tam ödəmək iqtidarında deyildi. "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatının artması əsas ixrac boru kəmərinin qısa zamanda inşasını zərurətə çevirmişdir. Heydər Əliyev bununla bağlı müdrik və uzaqgörən qərarını hələ ötən əsrin 90-cı illərinin ortalarında vermiş, Bakı-Tbilisi-Ceyhan neft kəməri ideyasını ilk dəfə olaraq gündəmə gətirmişdi. Azərbaycan xalqının mənafelərini daim uca tutan Heydər Əliyev sonrakı mərhələdə də böyük diplomatik ustalıqla həmin kəmərin alternativsizliyini "Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlərə, habelə onların təmsilçisi olan dövlətlərə qəbul etdirə bilmişdir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin üzərində dayanan Heydər Əliyev bunun strateji və siyasi baxımdan ən optimal qərar olduğunu sübuta yetirmişdir.

1998-ci il oktyabrın 29-da Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri BTC-nin tikintisi ilə bağlı Ankara Bəyannaməsi imzalamışlar. 1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" razılaşma əldə olunmuşdur. Həmin razılaşmaya ABŞ və Qazaxıstanın dövlət başçıları da imza atmaqla üzərlərinə müəyyən hüquqi və siyasi öhdəliklər götürmüşlər.

BTC-nin reallaşması "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan üçün ikinci mühüm tarixi əhəmiyyət kəsb edən hadisə olmuşdur. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. Bu tədbir Heydər Əliyevin yeni neft strategiyasının əməli nəticəsi, cənab İlham Əliyevin göstərdiyi fədakarlığın məntiqi sonluğu idi.

Məlum olduğu kimi, bu yaxınlarda "Şahdəniz" Konsorsiumu Azərbaycan qazını Avropaya nəql edəcək layihə kimi Trans-Adriatik Qaz Kəmərini (Trans-Adriatik Pipeline (TAP)) seçib. Qeyd edək ki, TAP layihəsi Cənubi Qafqaz Qaz Kəmərinin (Bakı-Tbilisi-Ərzurum) və Trans-Anadolu Qaz Kəmərinin (TANAP) davamı olub, "Şahdəniz-2" yatağındakı qazın Yunanıstan və Albaniya üzərindən Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu kəmərlə 20 milyard kubmetrə yaxın qazın Avropa ölkələrinə nəql edilməsi gözlənilir.

Göründüyü kimi, son illər Azərbaycanda həyata keçirilən bütün layihələr, o cümlədən enerji-nəqliyyat layihələri Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının və onu uğurla davam etdirən İlham Əliyevin iqtisadi siyasətinin məntiqi nəticəsidir.

## Yaradılan Neft Fondu "qara qızıl"ı xalqın sərvəti etdi

Neft Azərbaycanın ən böyük sərvətidir və ondan son dərəcə qənaətlə istifadə olunmalıdır. Bu sərvət Azərbaycanın bütün nəsilləri arasında ədalətli şəkildə bölünməlidir. Heydər Əliyev neftdən əldə olunan gəlirlərin düzgün və səmərəli istifadəsi məsələsini daim diqqətdə saxlamış, 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Dövlət Neft Fondunu yaratmışdır. Fondun yaradılması neft sazişlərinin həyata keçirilməsi ilə əlaqədar əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsi mexanizmi kimi nəzərdən keçirilmişdir. Burada neft-qaz ehtiyatlarının işlənməsindən əldə olunan gəlirlərdən düzgün istifadə edilməsi, eləcə də şəffaflığın tam təmin edilməsi ön plana çəkilmişdir.

Heydər Əliyevin fərmanı ilə Dövlət Neft Fondundan ilk maliyyə vəsaiti Azərbaycanın ən ağrılı probleminin həlli - qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, çadır düşərgələrinin ləğvi məqsədilə ayrılmışdır. Daha sonralar Neft Fondunun gəlirləri Azərbaycanda həyata keçirilən genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində və işğaldan azad edilmiş ərazilərin bərpasında əhəmiyyətli rol oynamışdır.

## İqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə qaldırılması

Respublikamızın dinamik sosial-iqtisadi inkişafına təkan verən yeni neft strategiyasını 2003-cü ilin oktyabrından Azərbaycan Prezidenti İlham Əliyev inamla davam etdirmiş və əsası Ümummilli Lider tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsinə nail olmuşdur. Dövlət başçısının çevik və işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial-iqtisadi inkişafın nəticəsi olaraq bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycan Prezidenti iqtisadiyyatın neft amilindən asılılığını aradan qaldırmaq məqsədilə bir sıra əməli tədbirlər həyata keçirir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, neft Azərbaycan üçün son məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün bir vasitədir. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsini önə çəkir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid dövründə özəl sektorun fəaliyyətinə normal şərait yaratmadan qarşıda duran strateji vəzifələri gerçəkləşdirmək, iqtisadi yüksəlişi təmin etmək, işsizliyin səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, eləcə də sosial xarakterli digər problemlərin həllinə nail olmaq mümkün deyil. Praqmatik və rasional siyasi baxışlara malik olan İlham Əliyev bu reallığı düzgün qiymətləndirdiyi üçün sahibkarlığın inkişafına, bölgələrin tarixi məşğulluq ənənələrinin bərpasına, habelə regional tarazlığın təmin olunmasına xidmət edən əməli tədbirlər həyata keçirir. Dövlət başçısı iqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan, haqsız rəqabətdən azad olunması, özəl sektorun dəstəklənməsi, sahibkarlara, fermerlərə güzəştli kreditlərin verilməsi sahəsində ciddi addımlar atır, verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirir.

Prezident İlham Əliyev iqtisadiyyatı hökumətin hansısa iqtisadi layihəyə müdaxiləsi yolu ilə deyil, sahibkarlar üçün lazımi infrastrukturun və maliyyə mənbəyinin yaradılması vasitəsilə stimullaşdırmağı vacib sayır. Bu ilk növbədə cəmiyyətdə siyasi sabitliyin daha da möhkəmlənməsinin təminatçısına çevrilən sahibkarlar təbəqəsinin fəaliyyətinə geniş imkanların yaradılmasını, iqtisadiyyatın inkişafında onların geniş potensialından və imkanlarından maksimum dərəcədə səmərəli istifadə edilməsini nəzərdə tutur.

Məhz bu strategiya nəticəsində Azərbaycan nəinki öz maliyyə və enerji müstəqilliyini əldə etmiş, həmçinin Avropanın enerji müstəqilliyinin təmin edilməsində həlledici rola malik olmuşdur. Təsadüfi deyil ki, bu gün dünyanın əsas inkişaf etmiş ölkələri Azərbaycanla hesablaşır, regionda heç bir layihə Azərbaycanın razılığı olmadan həyata keçirilmir. Bu isə o deməkdir ki, "Əsrin müqaviləsi" Azərbaycanın ümumi iqtisadi rifahına və beynəlxalq aləmdə əhəmiyyətli uğurlarına stimul yaratmaqla regiondakı siyasi-iqtisadi münasibətlər sisteminə yeni impuls vermişdir. Azərbaycanın neft strategiyasının ölkəmizə gətirdiyi uğurlar onun beynəlxalq münasibətlər sistemində yerinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynamışdır.

Ümumilikdə "Əsrin müqaviləsi"nin Azərbaycanın xarici siyasətinin müəyyənləşdirilməsinə təsir imkanlarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. *Əsrin müqaviləsi Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılmasına müsbət təsir göstərməklə beynəlxalq iqtisadi münasibətlərin daha səmərəli şəkildə qurulmasına imkan yaratdı.*
2. *Azərbaycanın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdi və o, regionun şəksiz liderinə çevrildi.*
3. *Azərbaycanda dayanıqlı iqtisadi münasibətlər sistemi yarandı ki, bu da yeni iqtisadi tərəfdaşların, xarici investisiyaların ölkəyə cəlb olunmasına imkan verdi.*
4. *Beynəlxalq birlik regionun taleyi ilə bağlı bütün məsələlərdə ilk növbədə Azərbaycanın maraqlarını nəzərə almaq zərurəti ilə qarşılaşdı.*
5. *Bu müqavilələr Azərbaycanın müstəqil xarici-iqtisadi siyasət yürütdüyünü ortaya qoydu və buna bütün dünyanı inandırdı.*
6. *Bir çox nəhəng dövlətləri Azərbaycana təzyiq göstərmək imkanlarından məhrum etdi. Bu, ölkənin iqtisadi və siyasi müstəqilliyinin möhkəmləndirilməsi üçün həyati əhəmiyyət kəsb edirdi.*
7. *Azərbaycanda demokratik ənənələrin, bazar iqtisadiyyatı prinsiplərinin təşəkkül tapmasına ciddi təsir göstərdi.*
8. *Müstəqilliyin dönməzliyinə əsaslı təminat yaratdı. Bu isə Azərbaycan üçün hər şeydən vacib idi.*
9. *Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi.*
10. *Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi.*
11. *İşğalda olan torpaqların azad edilməsi, bərpa olunması və Böyük qayıdışın təmin edilməsi üçün əsaslı iqtisadi zəmin yaratdı.*
12. *Azərbaycanı regionun lider dövlətinə çevirdi.*

Bu gün ölkənin bütün sahələrində əldə edilən uğurlar "Əsrin müqaviləsi"nin xalqın taleyində oynadığı müstəsna rolu əyani surətdə aşkara çıxarır. Heydər Əliyevin ciddi elmi əsaslara söykənən yeni neft strategiyası hələ uzun illər Azərbaycan xalqının mənafeyinə xidmət edəcək.

44 günlük Vətən savaşında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin azad edilməsi də ölkəmizin iqtisadi qüdrəti, Prezidentin müdrik siyasətinin və qətiyyətinin məntiqi nəticəsidir. Çünki bütün bunların təməlində əsası Heydər Əliyev tərəfindən qoyulan iqtisadi strategiya və onun tərkib hissəsi olan neft strategiyası dayanır. Heydər Əliyevin sözləri ilə desək, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Bu gün heç kim şübhə etmir ki, Heydər Əliyev iqtisadi strategiyasını uğurla davam etdirən, onu keyfiyyətcə yeni mərhələyə qaldıran İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizin iqtisadiyyatı yaxın gələcəkdə tam bərpa ediləcək, həmin torpağın sahibləri geri qayıdacaq, ölkəmizin iqtisadiyyatı daha da güclənəcək və xalqımızın həyat səviyyəsi yaxşılaşacaqdır.

***Müşviq ATAKİŞİYEV,***
***iqtisad elmləri doktoru, professor,***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun icraçı direktoru***

# ADA Universitetinin rektoru Hafiz Paşayev GTU-nun fəxri doktoru adına layiq görülüb

**ADA Universitetinin rektoru professor Hafiz Paşayev Gürcüstan Texniki Universitetinin (GTU) fəxri doktoru adına layiq görülüb.**



AZƏRTAC xəbər verir ki, fəxri ad və diplom Hafiz Paşayevə mayın 19-da GTU-da təqdim olunub.

GTU-nun rektoru David Qurqenidze bildirib ki, universitetin Elmi Şurası ADA Universitetinin rektoru Hafiz Paşayevin fəxri doktor adına layiq görülməsi barədə qərar qəbul edib. O, GTU-nun fəxri doktoru diplomunu və fəxri döş nişanını Hafiz Paşayevə təqdim edib.

Professor Hafiz Paşayev onu bu yüksək mükafata layiq gördüklərinə görə GTU-nun rektoruna və Elmi Şurasına minnətdarlığını bildirib.

Mərasimdə Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev, səfir Faiq Quliyev, Gürcüstan təhsil və elm nazirinin müavini Nodar Papukaşvili və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanın elm və təhsil naziri Gürcüstanın Baş naziri ilə görüşüb

**Tbilisidə səfərdə olan Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev mayın 19-da Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətləri diqqət mərkəzində olub.

Söhbət zamanı müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sahəsində mövcud əməkdaşlığın inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Bu xüsusda iki ölkənin elm və təhsil qurumları arasında 2022-ci ildə imzalanmış sazişin əhəmiyyəti qeyd edilib.

Tərəflər gələcəkdə iki ölkə arasında elm və təhsil sahəsində mövcud məhsuldar əməkdaşlığın daha da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını vurğulayıblar. Eyni zamanda ali təhsil müəssisələri arasında əlaqələr, xüsusi peşə təhsili sahəsində birgə əməkdaşlıq məsələləri də müzakirə olunub.

Söhbət zamanı Azərbaycanın ADA Universiteti ilə Gürcüstanın üç aparıcı təhsil ocağı arasında imzalanan müqavilələrin əhəmiyyəti xüsusi qeyd olunub.

Görüşdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın səfiri Faiq Quliyev və Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari iştirak ediblər.

# Tbilisidə professor Hafiz Paşayevin gürcü dilinə tərcümə edilmiş "Bir səfirin manifesti" kitabının təqdimatı olub




**Mayın 19-da Gürcüstan Milli Elmlər Akademiyasında (GMEA) Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin gürcü dilinə tərcümə edilmiş "Bir səfirin manifesti" kitabının təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın Elm və Təhsil Nazirliyinin, Gürcüstandakı səfirliyinin, ADA Universitetinin əməkdaşları, GMEA-nın, Gürcüstanın Təhsil və elm, Xarici İşlər nazirliklərinin rəhbərliyi, ictimai-siyasi xadimlər, elm adamları iştirak ediblər.

GMEA-nın prezidenti akademik Qiorqi Kvesitadze kitab haqqında danışıb, səfir Hafiz Paşayevin Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra xaricdə ölkəmizin təmsil olunması, düzgün tanıdılması istiqamətində mühüm işlər gördüyünü vurğulayıb. O deyib ki, bu kitab oxucuların Azərbaycan diplomatiyası haqqında məlumatlandırılması baxımından çox önəmlidir.

Akademikin sözlərinə görə, bu cür təşəbbüslər həmçinin ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələrin inkişafına xidmət edir.



Professor Hafiz Paşayev çıxış edərək "Bir səfirin manifesti"nin ərsəyə gəlməsinin tarixçəsindən söhbət açıb, nəşrdə real faktlarla yanaşı, öz daxili hisslərini və düşüncələrini qələmə aldığını bildirib. Müstəqilliyinin bərpasından sonra Azərbaycanın ABŞ-də ilk səfiri olduğunu xatırladan Hafiz Paşayev diqqətə çatdırıb ki, kitabda bu iki ölkə arasında münasibətlərin yaranması və inkişafına dair mülahizələr toplanılıb. O vurğulayıb ki, yaxşı diplomat ilk növbədə ölkəsinin güclü təbliğatçısı olmalıdır. Səfirlər öz memuarlarını qələmə almaqla gələcək diplomatlar üçün dəyərli vəsait hazırlamış olurlar.

GMEA-nın vitse-prezidenti Roin Metreveli çıxış edərək Azərbaycan-Gürcüstan münasibətlərindən danışıb. Müstəqilliyimizin bərpasından sonra məhz Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrik siyasəti nəticəsində ölkələrimiz arasında münasibətlərin yeni müstəvidə inkişaf etdiyini vurğulayıb. Bildirib ki, bu cür tədbirlər ölkələrimiz arasında münasibətlərin bütün istiqamətlərində inkişafına xidmət edir.

Gürcüstan təhsil və elm nazirinin müavini Nodar Papukaşvili bu kitabın, əslində, gürcü diplomatların ABŞ haqqında məlumat alması üçün əhəmiyyətli olduğunu bildirib.

Tədbirdə digər çıxış edənlər də "Bir səfirin manifesti" kitabının əhəmiyyətindən danışıblar. Bildirilib ki, nəşrdə diplomatların yararlana biləcəyi çox dəyərli məlumatlar var. Kitab diplomatiya sahəsində uğurlu karyera qurmaq istəyən gənc nəsil üçün önəmli vəsaitdir.

# QMİ sədri "Rusiya - İslam aləmi strateji baxış qrupu"nun növbəti illik görüşündə iştirak edir



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının Tatarıstan Respublikasının başçısı Rüstəm Minnixanovun dəvəti ilə Kazan şəhərində keçirilən "Rusiya - İslam aləmi strateji baxış qrupu"nun növbəti illik görüşündə iştirak edir.**






QMİ-dən AZƏRTAC-a bildirilib ki, Kazan Ratuşasında keçirilən "Rusiya - İslam aləmi: ənənəvi mənəvi dəyərlər dinlərarası əməkdaşlığın əsasıdır" mövzusuna həsr olunmuş plenar iclasda Tatarıstan başçısı R.Minnixanov, Moskva və Bütün Rusiyanın Patriarxı Kiril, Rusiya müsəlmanları ruhani idarələrin başçıları, müftilər, federasiyanın hökumət nümayəndələri, eləcə də İslam aləmini təmsil edən xarici dini liderlər və elm xadimləri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını qardaş Tatarıstan xalqına və forum iştirakçılarına çatdıran QMİ sədri qeyd edib ki, Rusiya tarixən İslam dünyasına və müsəlman irsinə dərin hörməti ilə tanınır, İslam dininin mütərəqqiliyini və mənəvi əhəmiyyətini yüksək qiymətləndirir.

Şeyxülislam İslam dünyası ilə dinlərarası dialoqun və əməkdaşlığın inkişafına verdiyi layiqli töhfəyə görə, eləcə də Cənubi Qafqazda sülhün əldə edilməsinə və qarşılıqlı etimadın bərpasına yönəlmiş fəaliyyətinə görə Patriarx Kirilə öz minnətdarlığını bildirib.

QMİ sədri tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin zəngin irsinin nəhəng potensialı sayəsində qazandığı təcrübədən istifadə edərək, onun başlatdığı işləri nəinki qoruyub saxlamış, onun rəhbərliyi ilə xalqımız Ümummilli Liderin əsas vəsiyyətini yerinə yetirərək Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa etməyə nail olub.

"Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Prezidentinin ünvanına, o cümlədən bu tədbirdə iştirak edən bir çox siyasi, dini və ictimai xadimlərdən təbrik mesajları gəlməkdə davam edir, onların çoxu bu parlaq şəxsiyyətlə ünsiyyətdə olublar", - deyən Allahşükür Paşazadə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə belə həssaslıqla yanaşdıqları üçün Azərbaycan xalqı adından tədbir iştirakçılarına təşəkkür edib.

"Müharibələrin səngimədiyi müasir dünyada milli və ya dini dözümsüzlük səbəbindən zorakılıq aktları davam edir, dindən siyasi məqsədlər üçün sui-istifadə meyilləri xüsusilə təhlükəlidir. Terrorizm və ya hər hansı zorakılığın heç bir dini əsası yoxdur və ola da bilməz", - deyə Şeyxülislam vurğulayıb.

* * *

Həmçinin Şeyxülislam A.Paşazadə və Tatarıstanın rəhbəri Rüstəm Minnixanov ayrılıqda da görüşüb fikir mübadiləsi aparıblar. Şeyxülislam Tatarıstan rəhbərinə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb, Azərbaycan xalqının qardaş Tatarıstana və onun rəhbərliyinə dərin rəğbət və ehtiram bəslədiyini ifadə edib.

Öz növbəsində Minnixanov Azərbaycanın dövlət başçısına öz ehtiramını və salamlarını çatdırmağı xahiş edib və bütün Azərbaycan xalqını Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik edib.

Qeyd edək ki, forum öz işini davam etdirir.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Kazanda bir sıra ikitərəfli görüşlər keçirib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Kazan şəhərində keçirilən "Rusiya - İslam aləmi strateji baxış qrupu"nun növbəti illik görüşündə bir sıra ikitərəfli görüşlər keçirib.**

İdarədən AZƏRTAC-a bildirilib ki, QMİ sədri Rusiya Federasiyası Rusiya müsəlmanları Mərkəzi Ruhani İdarəsinin sədri şeyx Talqat Tacuddin, Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri şeyx Ravil Qaynutdin, Moskva şəhərinin müftisi Albir Krqanov, Fələstin Dövlətinin Qazil-Qüzatı Məhəmməd Əl-Həbbaş, Beynəlxalq İslam Xeyriyyə Cəmiyyətinin sədri Abdulla Əl-Mətuq və bir sıra digər şəxsiyyətlərlə görüşərək, ikitərəfli əlaqələrin inkişaf məsələlərini müzakirə edib.



Şeyxülislam A.Paşazadənin Moskva və bütün Rusiyanın Patriarxı Zati-müqəddəsləri Kiril ilə ikitərəfli görüşü də keçirilib.

Patriarx Kiril Şeyxülislam A.Paşazadə ilə səmimi dostluq və qardaşlıq münasibətlərini, sözdə deyil, əməldə də həmfikir olmalarını çox yüksək qiymətləndirdiyini söyləyib: "Mən bu gün Azərbaycan dövlətinə və xalqına, o cümlədən hörmətli şeyx həzrətlərinə ölkənizdə pravoslavlar üçün yaradılmış yüksək şəraitə görə təşəkkür etmək istəyirəm".

QMİ sədri öz növbəsində Patriarx Kirilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını çatdırmaqdan və Patriarx həzrətləri ilə yenidən görüşməkdən şərəf duyduğunu bildirib.

A.Paşazadə Patriarx Kirilə Ermənistanla Azərbaycan arasında uzun illər davam edən münaqişənin dini zəminə keçməsinin qarşısını almağa, eləcə də Cənubi Qafqazda qarşılıqlı etimadın bərpasına yönəlmiş fəaliyyətinə görə bir daha öz minnətdarlığını bildirib.

Patriarx Kiril bundan sonra da Azərbaycan və erməni dini liderlərinin arasında vasitəçilik rolunu oynamağa hazır olduğunu vurğulayıb. "Xahiş edirəm, mənim səmimi salamdualarımı dərin hörmət və rəğbət bəslədiyim cənab Prezidentə, Mehriban xanıma və Leyla xanıma çatdırın".

Görüş zamanı tərəflər müxtəlif beynəlxalq dini və dinlərarası dialoq qurumları, o cümlədən Ümumdünya Kilsələr Birliyi, KAICIID dinlərarası dialoq mərkəzi, habelə digər beynəlxalq təşkilatlarla bağlı məsələləri müzakirə ediblər.

Görüşdə Rus Pravoslav kilsəsinin iyerarxları, Moskva Patriarxiyası xarici kilsələrarası əlaqələr şöbəsinin sədri, mitropolit Antoniy, Moskva Patriarxiyası İşlər müdiri mitropolit Dionisiy və Kazan mitropoliti Kiril, habelə QMİ tərəfindən sədrin Birinci müavini müfti Salman Musayev iştirak ediblər.

# Hayastan hər diplomatik görüşdən əvvəl təxribat törədir

**Brüssel görüşü ərəfəsində təxribatlara əl atan Hayastan silahlı qüvvələri mayın 18-də də Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı döyüş PUA-ları tətbiq edib. Bu təxribatlar Hayastanın münasibətlərin normallaşmasında və sülhün əldə edilməsində maraqlı olmadığını göstərir.**
**Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, Hayastanın hərbi-siyasi rəhbərliyi vəziyyətin qəsdən gərginləşdirilməsinə cəhd edərək, sülh müzakirələrinin pozulmasına çalışır.**





## Təxribatlar İrəvanın özü üçün problemlər yaradacaq

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib ki, Hayastan sülh danışıqlarının irəliləməsində, münasibətlərin normallaşmasında maraqlı deyil: "Hər diplomatik görüşdən əvvəl və ya sonra Hayastan tərəfindən törədilən təxribatlar bunu sübut edir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə Hayastanın Baş naziri Nikol Paşinyanın Brüsseldə baş tutan görüşü sülh yolunda növbəti addımdır. Dünya birliyi də Cənubi Qafqazda sülh və əməkdaşlığın təmin edilməsi üçün Azərbaycanla Hayastan arasında münasibətlərin normallaşdırılmasını həlledici amil kimi dəyərləndirir. Lakin Brüssel görüşü ərəfəsində, mayın 11-13-də Hayastan Kəlbəcər istiqamətində ordumuzun mövqelərini minaatanlardan, toplardan və digər iriçaplı silahlardan atəşə tutdu. Bu təxribatların hər zaman sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında keçirilən görüşlər fonunda baş verməsi rəsmi İrəvanın sülh prosesində maraqlı olmadığını göstərdi".

Deputat bildirib ki, mayın 18-də Hayastan yenə də Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində mövqelərimizə qarşı döyüş PUA-larından istifadə etməklə hərbi təxribat törətdi: "Bu hərbi təxribatların liderlərin Brüssel görüşündən sonra törədilməsi bir daha suallar doğurur. Bir daha göründü ki, Hayastan vəziyyəti gərginləşdirməklə münasibətlərin normallaşdırılması təşəbbüslərinə qarşı çıxır. Amma unudur ki, belə təxribatlar rəsmi İrəvanın özü üçün problemlər yaradacaq. Hayastan müharibədə məğlub olduğuna görə mövcud reallıqlarla barışmalı, razılaşmalara, o cümlədən beynəlxalq hüquq normalarına və götürdüyü öhdəliklərə əməl etməlidir".

Sevinc Fətəliyeva qeyd edib ki, regionda sülhün təmin olunması üçün müəyyən təşəbbüslər göstərən Avropa İttifaqı tərəflər arasında sülh sazişinin tezliklə imzalanmasına çalışır: "Azərbaycan bu təşəbbüsləri dəstəkləyir. Amma Fransa, erməni lobbisi prosesi pozmaq üçün müxtəlif vasitələrdən istifadə edir. Hayların hərbi təxribatları yanlış rəy formalaşdırmağa xidmət edir. Guya sülh sazişi imzalamaq hələ tezdir, tərəflər buna hazır olmadıqlarına görə dövlətləri və xalqları sülhə hazırlamaq lazımdır. Müxtəlif bəhanələrlə prosesin bu cür uzadılmasının məsuliyyəti isə Hayastan hakimiyyətinin üzərinə düşür. Əgər Hayastan təxribatlarından əl çəkməsə, "dəmir yumruq" bundan sonra da öz sözünü deyəcək. Danışıqlar prosesinə xələl gətirən əməllər beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə pislənilməlidir".

## Hayastanın məqsədi sülh sazişinin imzalanmasından yayınmaqdır

Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, Azərbaycan-Hayastan arasında danışıqlar Vaşinqton, Brüssel və Moskva platformalarında aparılır: "Danışıqlar zamanı əvvəlki görüşlərdə razılaşdırılmayan və ya tamamlanmayan məsələlər müzakirə edilir. Görüşlərin nəticəsi olaraq, müəyyən irəliləyişlər olub. Yerdə qalan bir sıra məsələlər isə növbəti görüşlər zamanı Rusiyanın da iştirakı ilə həll edilməlidir. Nəzərə almaq lazımdır ki, Rusiya regionda nüfuz sahibidir".

Deputatın sözlərinə görə, növbəti Moskva görüşü ilə bağlı verilən proqnozlar sərhəddə vəziyyətin haylar tərəfindən gərginləşdirilməsinə səbəb ola bilər: "Anonslarda deyilir ki, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq və sairə. Yəni bu bəyanatlardan sonra xüsusilə Paşinyanın siyasi rəqiblərinin atacaqları addımların təxribat xarakteri daşıyacağı gözlənilir. Bu, məlum məsələdir. Belə təxribatların digər səbəbi də separatçıların status-kvonu saxlamaq istəkləri ilə əlaqəlidir. Onlar havadarlarının tapşırıqlarını yerinə yetirməyə çalışırlar. Mayın 18-də Kəlbəcər rayonunda yerləşən bir sıra mövqelərimizə döyüş PUA-ları tətbiq etmələri də sübut edir ki, Hayastan çirkin əməllərindən əl çəkmir. Diplomatik görüşlər ərəfəsində mütləq şəkildə təxribat törədir, cavablarını aldıqdan sonra isə yeni iddialar irəli sürürlər".

Arzu Nağıyev vurğulayıb ki, haylar birmənalı olaraq sülh müqaviləsinin imzalanmasının qarşısını almağa çalışırlar: "Hayastanın əsas məramı odur ki, sülh müqaviləsi imzalanmasın. Azərbaycan isə bir dövlət və xalq olaraq sülh istəyini bütün müstəvilərdə ortaya qoyur. Ona görə də prosesi tənzimləmək haylar və havadarlarının boynunun borcudur. Əks halda, Azərbaycan tərəfi "dəmir yumruğ"unu işə sala bilər".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın 1 milyard dollarlıq narkotik biznesi

## Qarabağ və Şərqi Zəngəzurun azadlığı uğrundakı şanlı zəfər Hayastanın qeyri-rəsmi gəlir mənbəyini də çökdürüb

**Ermənistan hər zaman çirkin əməlləri ilə yanaşı, əsrin bəlasına çevrilən narkotik vasitələrin yayılmasında irəlidə gedən dövlətlərdən birinə çevrilib. Hayastanın Milli Təhlükəsizlik Xidmətinin yaydığı son məlumatlar göstərir ki, bu ölkə ümumilikdə böyük narkotik biznesi ilə məşğuldur.**

Belə ki, yayılan məlumatda bildirilir ki, ölkədə dəyəri təxminən 250 milyon avro olan 1 ton kokain müsadirə olunub. Həmin narkotik vasitə Hayastana Ekvadordan meyvə idxal edən şirkət tərəfindən gətirilib. Onların böyük hissəsi İtaliya və Gürcüstandan tranzitlə Ermənistana keçirilib.

Əslində bu, yeni məlumat deyil. Çünki uzun illər Azərbaycan torpaqlarının bir hissəsi Ermənistanın işğalı altında olanda da həmin ərazilər üzərindən narkotik vasitələr daşınırdı. Hayastan Qarabağ və Şərqi Zəngəzuru narkotik biznesi üçün əlverişli ərazi hesab edirdi. Həmin dövrdə bölgədə böyük çətənə plantasiyaları salınmışdı.

Ermənistan statistikasına əsasən, ölkədə narkomanların sayı da ildən-ilə artır. Təbii ki, külli miqdarda narkotik maddələrin ölkəyə keçirilməsi böyük müzakirələrə səbəb olub və bununla bağlı müxtəlif fikirlər səsləndirilib. Ermənistanın müxalif deputatı Andranik Tevanyan isə hökumətdə olan adamları narkotik mafiyası ilə əlaqədə günahlandıraraq bildirib ki, dövriyyəsi 1 milyard dollara çatan nəhəng narkotik ticarəti hakimiyyətin himayəsi olmadan mümkün deyil.

Ermənistanda narkotik vasitələrin qanunsuz dövriyyəsinin 4 tona çatdığını bildirən siyasətçi bunun təxminən 1 milyard dollar olduğunu qeyd edib. O, belə yüksək məbləğin hakimiyyətin diqqətindən yayına bilməyəcəyini vurğulayır.

Xatırladaq ki, bundan əvvəl isə İtaliya mediası yerli limanlardan birində 78 tonluq banan yükünün içərisində gizlədilmiş 2,7 ton kokainin saxlanması barədə məlumat yaymışdı. Qaimələrdə yükün Gürcüstanın Batumi limanı vasitəsilə Ekvadordan Ermənistana göndərildiyi göstərilirdi. Həmin narkotikin ümumi dəyəri isə 800 milyon avro olaraq qiymətləndirilmişdi.

## Narkotik ticarəti Ermənistanın gəlir mənbələri sırasında ilk yerdə durur

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında dedi ki, otuz illik işğal dönəmində Qarabağ və Şərqi Zəngəzurda nəzarətsiz ərazilər Cənubi Qafqazı istər narkotika plantasiyaları, istərsə də narkotranzit üçün ideal məkana çevirmişdi.



Onun sözlərinə görə, bu nəzarətsizlikdən ayrı-ayrı narkotik satışı ilə məşğul olanlar deyil, Ermənistan özü dövlət səviyyəsində faydalanırdı. Narkotik maddələrin ticarəti Ermənistan dövlətinin gəlir mənbələri sırasında qeyri-rəsmi olaraq ilk yerdə durub: "Təbii ki, İrəvan bu ittihamı rəsmi şəkildə qəbul etməyə bilər. Lakin Azərbaycan işğala son qoyduqdan, cənub sərhədlərimizdə nəzarət bərqərar olunduqdan sonra İrandan qanunsuz keçirilməyə cəhdin qarşısı alınan narkotik vasitələrin həcmi və statistikası çox şeydən xəbər verir".

Deputatın fikrincə, bu günlərdə beynəlxalq xəbər agentliklərində əsas gündəm olan tonlarla narkotik vasitənin İrəvana daşınması bir daha göstərdi ki, Ermənistan hakimiyyəti bu çirkabın içindədir. Bu prosesdə xüsusən Cənubi Amerikadakı güclü erməni diasporunun və Ermənistanın dövlət rəsmilərinin birgə fəaliyyəti ciddi şübhələr doğurur. Artıq Ermənistanda aralarında parlamentin deputatları da olmaqla, vətəndaş cəmiyyəti təmsilçiləri dövlət hakimiyyəti orqanlarından mövcud hadisə və bütövlükdə situasiya ilə bağlı açıqlama gözləyirlər.

"Maraqlıdır ki, bu günə qədər Ermənistan sərhədlərindən ölkəyə qanunsuz narkotik vasitələrin keçirilməsinin qarşısının alınmasına dair ciddi bir statistika yoxdur. Xüsusən İrandan böyük həcmdə narkotik vasitələrin qanunsuz olaraq Ermənistan ərazisinə daşınmasına dair bir fakt da olsa rəsmiləşdirilməyib. Azərbaycan hər il çoxsaylı əməliyyat tədbirləri və sərhəd-gömrük nəzarəti vasitəsilə İrandan yüz kiloqramlarla narkotik vasitənin keçidinin qarşısını aldığı halda, sanki İran Ermənistana, ümumiyyətlə, narkotik maddə keçirmir", - deyə Bəhruz Məhərrəmov deyib.

Bunun absurd olduğunu qeyd edən deputatın sözlərinə görə, bu, onu ehtimal etməyə əsas verir ki, narkotika qaçaqmalçılığında Tehran və İrəvan arasında "centlmen sazişi" mövcuddur və hər iki dövlət bu cinayət əməkdaşlığından faydalanır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Avrasiyanın ticarət körpüsünə çevrilir

## Zəngəzur dəhlizindən istifadə bu prosesə böyük töhfə verəcək

**Coğrafi mövqe və siyasi-iqtisadi müstəqillik Azərbaycanın Cənubi Qafqaz regionunda mühüm nəqliyyat-tranzit qovşağına çevrilməsinə real zəmin yaradıb.**




Bu gün real imkanları ilə Azərbaycan uzaq Çindən Qərbi Avropaya yüklərin təhlükəsiz daşımalarını təmin edir. Xəzər dənizi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti hazırda yüklərin Asiyadan Avropaya daşınmasında ən əlverişli marşrut hesab edilir. Bunu statistik rəqəmlər də təsdiqləyir. Ötən 5 il ərzində, 2017-2022-ci illərdə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə 1 milyon 347 min 585 ton, təkcə ötən il isə 432 min 284 ton yük daşınıb.

30 oktyabr 2017-ci ildə açılan dəmir yolu xətti Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, sonra isə bundan daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

## Çin Xəzər dənizi üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin qurulmasını dəstəkləyir

Bu günlərdə Çin lideri Si Cinpin Mərkəzi Asiya ölkələri dövlət başçıları ilə görüşündə bildirib ki, ölkəsi Xəzər dənizi üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin qurulmasını dəstəkləyir.

Si Cinpin əlverişli coğrafi mövqeyi sayəsində Mərkəzi Asiyanın Avrasiyada əlaqə üçün vacib qovşaq olma əsaslarına, şərtlərinə və üstünlüklərinə malik olduğunu deyib, ölkəsinin Çin-Avropa yük qatarlarının fəaliyyəti üçün nəqliyyat hablarının inşasını sürətləndirəcəyini söyləyib.

Hazırda bu istiqamətdə ən əlverişli marşrut Orta dəhlizdir. Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz günə azaltmaq potensialına malikdir. O, həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək gücündədir. Bu dəhliz həm də tarixi Böyük İpək yolunun yenidən canlandırılmasını şərtləndirir.

Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna müharibəsidir. Çünki Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı daha da artırıb. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biri sayılır.

Azərbaycan Orta dəhlizin reallaşması üçün çox mühüm addımlar atmaqdadır. Bunu Prezident İlham Əliyev xarici ölkələrə səfərləri və iştirak etdiyi beynəlxalq konfranslarda da bəyan edib. Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş dördüncü beynəlxalq konfransda İlham Əliyev bir daha bu mövzuya toxunaraq Azərbaycanın Orta dəhlizə böyük əhəmiyyət verdiyini vurğulayıb. Prezident bu layihənin daim dəstəkləndiyini və onun nəhəng potensialının mövcud olduğunu deyərək bildirib ki, tərəfdaşlar yalnız yük daşımaları üçün tranzit marşrutu olmamalı, bu imkandan istifadə edərək, marşrutboyu biznes fəaliyyətini stimullaşdırmalıdırlar. Yəni Orta dəhlizin tərkib hissəsi olan ölkələr yalnız tranzitdən gələn gəlirin əldə olunması ilə kifayətlənməməlidirlər. Bu fürsətdən yerli istehsalın stimullaşdırılmasında istifadə edilməlidir. İlham Əliyev həmçinin bildirdi ki, Azərbaycan "Şərq-Qərb", eyni zamanda "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində yerləşir. Ölkəmizin bütün nəqliyyat imkanları var, bu istiqamətdə infrastruktur tam müasirləşdirilib. Yəni potensial böyükdür.

## Vladimir Putin: "Rusiya, Azərbaycan və İranın gələcək uğurlu koordinasiyası üçün zəruri hüquqi baza yaranacaq"

Reallıq isə budur ki, Rusiya-Ukrayna müharibəsi Avrasiyadan keçən müxtəlif Çin-Mərkəzi Asiya - Rusiya-Avropa tranzit dəhlizlərinin statusuna birbaşa təsir göstərib. Xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün Şimal dəhlizi qolu ciddi problemlər və məhdudiyyətlərlə üzləşib. Rusiya, Ukrayna, Polşa və Belarusu Şərqlə birləşdirən "Yeni Avrasiya Quru Körpüsü" layihəsi dayandırılıb.

İndi ən real marşurut Cənub-Şərqi Asiya və Çindən başlayan, Rusiyadan yan keçərək Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha çox Avropa ölkələrinə gedən tranzitdir. Rusiya üçün ərazisi boyunca "Şərq-Qərb" marşrutlarının saxlanması ilə bağlı artan çətinliklər Moskvanı Mərkəzi Asiya - Cənubi Qafqaza və oradan Türkiyə və İrana daha çox transregional "Şimal-Cənub" marşrutlarına diqqət yetirməyə sövq edib. İndi Rusiya üçün ən mühüm perspektivlərdən biri "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin quru və dəmir yolu marşrutlarının gücləndirilməsidir. Xəzər dənizinin şərqində Rusiyadan Qazaxıstan və Türkmənistandan keçməklə İrana, Xəzərin qərb sahili boyunca, Cənubi Qafqaz regionunda işləyən dəmir yolu marşrutu mövcuddur.

Xəzərin Cənub-Qərb küncü ilə hərəkət edəcək Astara-Rəşt-Qəzvin dəmir yolu Hindistan, İran, Azərbaycan, Rusiya və Avropa arasında multimodal marşrut olan daha uzun "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin mərkəzi əlaqəsini təşkil edir. Dəmir yolunun Astara (İran) - Astara (Azərbaycan) transsərhəd hissəsinin rəsmi açılışı 29 mart 2018-ci ildə, İran daxilindəki Rəşt-Qəzvin hissəsi isə 2019-cu il martın 6-da həyata keçirilib. Buna görə də qalan yeganə boşluq Rəştdən Astaraya qədər olan 170 kilometrlik dəmir yolu hissəsidir. Bu günlərdə Rusiya və İran Rəşt-Astara dəmir yolunun inşası barədə imzalanan sazişə əsasən, uzunluğu 170 kilometr olan və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizini birləşdirən Rəşt-Astara dəmir yolunun layihələndirilməsi və inşası birgə maliyyələşdiriləcək. Mərasimdə videoəlaqə vasitəsilə çıxış edən Rusiya Prezidenti Vladimir Putin bildirib ki, "Şimal-Cənub" Beynəxalq Nəqliyyat Dəhlizinin yaradılması sahəsində qarşılıqlı fəaliyyət Azərbaycan ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilir: "Biz Azərbaycan tərəfinin iştirakı ilə üçtərəfli formatda dəmir yolu infrastrukturunun inkişafı və "Şimal-Cənub" marşrutu üzrə yük daşımalarına dair əməkdaşlıq haqqında sazişin imzalanmasına hazırlığın tezliklə başa çatacağına ümid edirik. Bununla da üç ölkənin gələcək uğurlu koordinasiyası üçün zəruri hüququ baza yaranacaq". Sazişə əsasən, Rusiya və İran uzunluğu 170 kilometr olan və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizini birləşdirən Rəşt-Astara dəmir yolunun layihələndirilməsi və inşasını birgə maliyyələşdirəcək. İran Astarası ilə Azərbaycan Astarası arasında olan sahə isə Azərbaycan, Rusiya və İranın iştirakı ilə inşa olunacaq.

Vladimir Putin Rəşt-Astara dəmir yolunun tikintisini dünya nəqliyyat infrastrukturu üçün mühüm hadisə adlandıraraq, "Şimal-Cənub" nəqliyyat arteriyasının bir hissəsi olacaq Rəşt-Astara dəmir yolunun yük daşımalarını şaxələndirməyə imkan verəcəyini vurğulayıb.

Göründüyü kimi, regionun inkişafı, təhlükəsizliyin təmin olunması istiqamətində işlər görən, təşəbbüslərlə çıxış edən Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına öz töhfəsini verməkdədir. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan həm də regionun nəqliyyat-tranzit habına çevriləcək. Beləliklə də, Azərbaycan üzərindən yükdaşımaların artması həm ölkəyə daxil olan valyutanı çoxaltmaqla iqtisadiyyatın inkişafına mühüm töhfə verəcək, həm də ölkəmizin etibarlı tərəfdaş kimi nüfuzu daha da yüksələcək.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin qlobal təşəbbüsləri ilə bu gün Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat və ticarət körpüləri yaradır. Ölkəmiz "Şərq-Qərb", "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi üzərinə düşən bütün öhdəlikləri vaxtında reallaşdırır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Mina terroru qurbanlarının ailələri beynəlxalq ictimaiyyətə müraciət ediblər

**"Minaların Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi Horadiz şəhərində "Minalardan Azad Cənubi Qafqaz" regional kampaniyası çərçivəsində "Minalarla çirklənmə və bunun azərbaycanlı məcburi köçkünlərin öz doğma şəhər və kəndlərinə qayıtmasına təsiri" mövzusunda görüş keçirib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdə ANAMA-nın, Ombudsman Aparatının, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, Füzuli Rayon İcra Hakimiyyəti başçısı aparatının, bu cür hadisələrlə üzləşən icmaların, o cümlədən Alxanlı, Şükürbəyli, Horadiz, Qazaxlar, Əhmədalılar kəndlərinin ərazi icra nümayəndələri, mina qurbanlarının yaxınları və KİV nümayəndələri iştirak ediblər.

Tədbirin əsas məqsədi məcburi köçkünlərin geri qayıtması və onların rifahı ilə bağlı prosesdə mina təhlükəsinin yaratdığı çağırışları və mina terrorunun ağır nəticələri barədə hesabatın hazırlanması və beynəlxalq təşkilatlara təqdim edilməsi olub.

Görüşdə təqdimatlar olunub. Bildirilib ki, Azərbaycan ərazilərinin minalarla və PHS ilə çirklənmə səviyyəsinə görə dünyada ilk yerlərdən birini tutur. Azərbaycanda mina qurbanlarının sayının davamlı artması da mina problemlərinin çox ciddi olduğunu təsdiqləyir. Füzuli rayonunun 1994-cü ildə işğaldan azad edilən Alxanlı, Şükürbəyli, Horadiz, Qazaxlar, Əhmədalılar kəndlərinin əraziləri təmizlənsə də, hələ də həmin kəndlərin sakinləri psixoloji gərginlik səbəbindən bu ərazilərdən tam səmərəli istifadə edə bilmirlər.

Tədbirdə iştirak edən mina terroru qurbanlarının ailələri adından həm Azərbaycan, həm də beynəlxalq ictimaiyyətə müraciət səsləndirilib. Qeyd olunub ki, beynəlxalq ictimaiyyət Azərbaycandakı mina problemlərinə ciddi yanaşmalı və bu problemin tez zamanda həll olunması üçün Azərbaycana dəstək verilməlidir.

Görüş "LINKS Europe" ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin və Böyük Britaniyanın Bakıdakı səfirliyinin dəstəyi ilə təşkil olunub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## AYİB Azərbaycanın iqtisadiyyatı sarıdan nikbindir

**Azərbaycanın uzun müddət sovetlər birliyinin tərkibində olması iqtisadiyyatın sərbəst fəaliyyət göstərməsini məhdudlaşdırmışdı. Respublikamızın iqtisadiyyatı bilərəkdən başqa respublikaların iqtisadiyyatından asılı hala salınmışdı. Məqsəd də o idi ki, sadə dildə desək, 15 respublika bir-birindən ayrı yaşaya bilməsin. Qeydlərimizə belə uzaqdan başlamağımızın səbəbi var.**



Bu gün Azərbaycan zəngin təbii sərvətlərə malik müstəqil ölkədir. İqtisadiyyatın inkişafına böyük təkan verən həmin zənginlik ildən-ilə istehsal və qeyri-istehsal sahələrində qazanılan uğurlar hesabına aydın görünür. Sənaye, nəqliyyat, rabitə, kənd təsərrüfatı, tikinti kimi sahələr mükəmməl iqtisaqdi siyasət sayəsində inkişaf dinamikasını sürətləndirir. Prezident İlham Əliyev tərəfindən maliyyə sabitliyinin möhkəmlənməsi istiqamətində çevik iqtisadi addımların atılması və sosial siyasətin dərinləşməsi Azərbaycan iqtisadiyyatında pozitiv meyilləri dərinləşdirir.

Məlumdur ki, Azərbaycan iqtisadiyyatının əsas gəlir mənbəyi hələlik neft və qaz olaraq qalır. Güclü iqtisadi artımda karbohidrogen ixracından gələn gəlirlərin də payı az deyil. Bununla belə, iqtisadi strategiya, həm də Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olmasını, xarici investisiyaların daha çox qeyri-neft sektoruna yönəldilməsini, əlverişli sahibkarlıq və münbit biznes mühitinin təmin edilməsini şərtləndirir. Prezident İlham Əliyev çıxışlarının birində demişdir: "Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Artıq bir müddətdir ki, qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əgər biz vaxtilə ölkəmizin qeyri-neft sektorunun inkişafına bu qədər böyük diqqət göstərməsəydik, bəlkə də bu gün bu nəticələr o qədər də ürəkaçan olmazdı".

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda istehsalın həcmi 4,6 faiz artmışdır. Qeyri-neft və qaz sektorlarında isə artım 9 faiz olmuşdur. Bu faktın özü bir daha Prezidentin sitat gətirdiyimiz fikirlərinin təsdiqidir.

Bu tendensiya ötən bir ildə də özünü aydın şəkildə göstərib. Bunu Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "Regional iqtisadi perspektivlər" hesabatı da təsdiq edir. Hesabatda deyilir ki, yüksək neft və qaz qiymətləri ixrac gəlirlərini artırıb. Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsini artırmağa davam edib və bankın son qərarına əsasən, uçot dərəcəsi 8,75 faizədək yüksəlib. AYİB Azərbaycanda ÜDM istehsalının 2023-cü ildə 2,5, 2024-cü ildə 2,7 faiz artacağını proqnozlaşdırıb.

Yeri gəlmişkən qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda 2023-cü ilin yanvar-aprel aylarında ÜDM istehsalı 2022-ci ilin analoji dövrü ilə müqayisədə 0,1 faiz artaraq 39,986 milyard manata çatıb. 2023-cü ilin hesabat dövründə 2022-ci ilin analoji dövrü ilə müqayisədə qeyri-neft sektorunda əlavə dəyər 3,1, neft-qaz sektorunda isə 2,9 faiz artıb.

Məlumdur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi resursları çox böyükdür. Bu resurslardan səmərəli yararlanmaq üçün həmin ərazidə müvafiq infrastruktur yaradılır. Dövlət məhz bu istiqamətdə kompleks tədbirlər və əməli fəaliyyətini həyata keçirir. Bir çox xarici şirkətlərin də iştirakı ilə yaradılan infrastruktur təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının deyil, bütövlükdə regionun inkişafında artıq əsas amilə çevrilib. Təbii ki, bundan ən böyük fayda götürən Azərbaycandır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## SOCAR 1923 ağac əkib



**"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlər həyata keçirilir.**

Bu sırada SOCAR tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ağacəkmə aksiyası təşkil olunub.

Baş ofisin ərazisində keçirilən ağacəkmə aksiyasında SOCAR-ın prezidenti Rövşən Nəcəf, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və "SOCAR Könüllüləri" qrupunun üzvləri tərəfindən simvolik olaraq üç ağac əkilib.

SOCAR-ın vitse-prezidentlərinin və SOCAR prezidentinin müşavirlərinin də iştirakı ilə aksiya eyni gündə SOCAR-ın 20-dən çox müəssisə və təşkilatının ərazisində təşkil olunub və rəmzi olaraq ümumilikdə 1923 ağac əkilib.

Tədbir çərçivəsində aksiyanın keçirildiyi ərazilərdə müvafiq abadlıq işləri də aparılıb.

## Kənd təsərrüfatı məhsulları istehsalında 3,5 faiz artım qeydə alınıb

**Kənd təsərrüfatında cari ilin yanvar-aprel aylarında diri çəkidə 187,3 min ton ət, 697,6 min ton süd, 726,5 milyon ədəd yumurta, 2,1 min ton yun, 128,3 min ton tərəvəz və 50,3 min ton kartof istehsal olunub.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin eyni dövrü üzrə müqayisədə ət istehsalı 3,1, süd istehsalı 1,8, yumurta istehsalı 13, tərəvəz istehsalı 0,6, kartof istehsalı 9,5 faiz artıb, yun istehsalı isə 4,3 faiz azalıb.

Ötən ilin yanvar-aprel ayları ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3,5, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,5, bitkiçilik məhsulları istehsalı 3,2 faiz artıb.

## Əmək müqavilələrinin sayı artır

**Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşması istiqamətində görülən kompleks tədbirlər əmək müqavilələrinin sayında artımın davam etməsinə imkan verir.**

Bu ilin yanvar-aprel aylarında da ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 17,4 min müqavilə və ya 1 faiz artaraq 1 milyon 763 min 669-a çatıb.

Ardıcıl əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında mütəmadi artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. 2023-ci ilin yanvar-aprel aylarında əməkhaqqı fondunda daha 8,5 faiz artım qeydə alınıb.

Ümumilikdə son 5 ildə əmək müqavilələrinin sayında 34 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.

## Metan qazı ilə işləyən gələcəyin traktoru təqdim olunub

**"New Holland" şirkəti Azərbaycan şəraitinə uyğun traktor və kombaynlar istehsalı üzrə liderdir. Sərgiyə gətirilən traktor metan qazı ilə işləyir. Bu, həm də gələcəyin traktorudur.**

Bu barədə AZƏRTAC-a müsahibəsində Bakı Ekspo Mərkəzində 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin iştirakçısı, şirkətin meneceri Orxan Rəsulov məlumat verib. Onun sözlərinə görə, traktorun özəlliyi ondan ibarətdir ki, fermalarda hazırkı vəziyyətdə təsərrüfatda olan təbii orqanik gübrədən metan qazı alaraq işləyir: "Bu o deməkdir ki, fermerlər öz fermalarının daxilində bütün dövriyyəni qapadır, yəni dizel və yaxud başqa bir yanacaqdan yox, məhz təbii gübrədən alınmış metan qazından traktoru işlədə bilir. Bu yanacağı almaq fermerə faktiki pulsuz başa gəlir".

O.Rəsulov qeyd edib ki, "New Holland" şirkəti İtaliya brendidir. Traktor isə İngiltərədə istehsal olunub. Şirkətin dünyanın 25 ölkəsində, o cümlədən İngiltərədə, Amerikada, İtaliyada və Türkiyədə zavodları fəaliyyət göstərir.

"New Holland" traktorlarının dizel mühərrikləri Azərbaycanda çox istifadə olunur, həmçinin kombaynlarda. Azərbaycanda 500-dən çox "New Holland" kombaynı işləyir.

## Qaz ixracımız: 4 ayda 8,4 milyard kubmetr

**Bu ilin yanvar-aprel aylarında ölkəmizdən xaricə qaz satışı 8,4 milyard kubmetr təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz çoxdur.**



4 ay ərzində Avropaya 3,9 milyard kubmetr, Türkiyəyə 3,4 milyard kubmetr, Gürcüstana 1,1 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) 1,9 milyard kubmetr qaz nəql edilib.

Bu gün Azərbaycan qaz hasil edən və onun ixracı üçün mükəmməl infrastruktura malik ölkə kimi diqqət mərkəzindədir. Avropanın mavi yanacağa tələbatı artdığından ölkəmizdən qaz idxal etmək istəyənlərin sayı getdikcə çoxalır. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, 2027-ci il üçün qaz təchizatımız iki dəfə artırılacaq. Bu, təqribən 20 milyard kubmetrdir.

Mayın 10-da Prezident İlham Əliyev Şuşadan Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı müraciətində həmin məsələyə bir daha toxunaraq demişdir: "Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır".

İxracın artması isə bilavasitə hasilatın artması ilə bağlıdır. Energetika Nazirliyinin məlumatına görə, yanvar-aprel aylarında ölkəmizdə 16,2 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 4,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən (AÇG), 8,8 milyard kubmetri "Şahdəniz"dən, 3 milyard kubmetri SOCAR üzrə əldə olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 2,6 faiz, yəni 411 milyon kubmetr artımla qaz çıxarılıb.

İstismara verildikləri vaxtdan bu il mayın 1-dək AÇG-dən 208 milyard kubmetr, "Şahdəniz"dən isə 192 milyard kubmetr qaz hasil olunub. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 135 milyard kubmetrə qədəri ixraca göndərilib.

İxracı artırmaq üçün də potensialımız var. "Şahdəniz" yatağından gözlənilən əlavə qaz, AÇG-nin vəd etdiyi "dərin qaz" bunu deməyə əsas verir. Yaxın zamanda, yəqin ki, elə bu il "Abşeron" yatağından hasilat əldə olunacaq. "Ümid" , Babək", "Qarabağ" və digər perspektivli karbohidrogen mənbələrimiz də var. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr civarındadır. Başqa sözlə, qarşıdakı 100 ildə Azərbaycan həm özünü, həm də bir sıra digər ölkələri qazla təmin etmək imkanına malikdir.

Hazırda Azərbaycan Gürcüstana, Türkiyəyə,Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya qaz ixrac edir. Yaxın zamanda ixrac ünvanlarının sayının artacağı da aydındır. Lakin heç 10 ölkə də hələ son hədəf deyil.

Qazın ixracı üçün eləcə də infrastruktur genişləndirilməli, təkmilləşdirilməlidir. Zaman bu məsələni də gündəmə gətirib. TANAP-ın və TAP-ın ötürücülük gücü artırılmalı, yeni interkonnektorlar istifadəyə verilməlidir. Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda həmin məsələdən bəhs edərkən Prezidentimiz demişdir: "Trans-Balkan boru kəmərinə çıxışımız olmalıdır ki, bizim qazı gözləyən ölkələri təchiz edə bilək. Avropada interkonnektorlar vaxtında tikilsə, biz bu ilin sonunda Macarıstanı və Serbiyanı qazla təmin edə bilərik. Bu il artıq Rumıniyaya qazın nəqli başlayıb. Yunanıstan, İtaliya və Bolqarıstana qaz nəql edilir, Albaniyada qazpaylayıcı şəbəkənin yaradılması layihəsinə sərmayə qoyuluşuna dair danışıqlar aparılır. Çünki Albaniya tranzit ölkəsi olmasına baxmayaraq, qazpaylayıcı şəbəkəyə malik deyil. Biz həmin şəbəkənin yaradılmasına böyük sərmayə yatırmağı planlaşdırırıq. Mən bir neçə gün əvvəl Sofiyada idim və "Həmrəylik Halqası" layihəsinin başlanılması tədbirində iştirak etdim. Artıq Slovakiya da bu prosesə qoşulur... Bazar olarsa və interkonnektorlar tikilərsə, bizə hələ də müraciət edən ölkələr var. Balkanlarda və Avropanın digər regionlarından adını çəkmədiyim ölkələr var ki, onlar da Azərbaycan qazını ala bilərlər".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İçməli suyun yeni dövlət standartı qüvvəyə minib

**Azərbaycanda "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" AZS 929:2023 dövlət standartı qüvvəyə minib.**

Yeni standart BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasının "Su və Sağlamlıq Protokolu"na əsasən, Azərbaycan Respublikası tərəfindən rəsmi qəbul edilmiş Məqsədli Göstəricilərin icrası ilə əlaqədar Səhiyyə Nazirliyinin əmri ilə yaradılmış işçi qrup tərəfindən hazırlanıb. Aidiyyəti dövlət qurumlarının, elmi müəssisələrin, vətəndaş cəmiyyəti institunun müsbət rəyini almış yeni standart İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Standartlaşdırma İnstitutunun (AZSTAND) qərarı ilə təsdiq edilib.

AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" standartına mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş su təchizatı sistemlərində içməli suyun təhlükəsiz idarə edilməsinə dair tələblər, içməli suyun keyfiyyət göstəriciləri və onların yol verilən qatılıq hədlərinin siyahısı daxildir. Bu standart Ümumdünya Səhiyyə Təşkilatının Avropa ofisi tərəfindən təqdim olunan işçi sənədin tövsiyələri, insan istehlakı üçün nəzərdə tutulmuş suyun keyfiyyətinə dair 16 dekabr 2020-ci il tarixli 2020/2184 saylı Avropa Parlamenti və Avropa Şurası Direktivi, QOST 2874-82, SanPin 2.1.4.1074-02, USEPA standartları nəzərə alınaraq tərtib olunub.

Yeni standarta əsasən, içməli suyun mikrobioloji (8 göstərici), orqanoleptik, fiziki-kimyəvi (100 göstərici) və radioloji (2 göstərici) göstəriciləri öyrəniləcək. Qeyd edək ki, indiyə qədər ölkəmizdə içməli suyun keyfiyyətinə nəzarət SSRİ dövrü qəbul olunmuş QOST 2874-82 standartları əsasında aparılırdı.

# Bakıda Bədii Gimnastika üzrə Avropa Çempionatı davam edir

## Zöhrə Ağamirova 4 finala vəsiqə qazanıb

Bakıda keçirilən Bədii Gimnastika üzrə Avropa Çempionatında milli komandamızın üzvü Zöhrə Ağamirova top və halqa ilə hərəkətləri uğurla icra edərək hər iki növdə finala vəsiqə qazanıb.




Azərbaycan Gimnastika Federasiyasından aldığımız məlumata görə, o, halqa ilə hərəkətlərdə 32.150, topla hərəkətlərdə isə 32.550 xal toplayıb və müvafiq olaraq, 6 və 5-ci yerləri tutub.

Yığmamızın digər üzvü İlona Zeynalova halqa ilə hərəkətlərdə hakimlərdən 23.900 xal alaraq 59-cu olub. Gimnast topla hərəkətlərdə isə 27.300 xal toplayıb və yekunda 35-ci yeri tutub.

Xatırladaq ki, yarışların ilk günündə Azərbaycanın gənclərdən ibarət qrup hərəkətləri komandası (Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərova) 2 bürünc medal qazanıb. Qeyd edək ki, Azərbaycan gimnastika tarixində ilk dəfə olaraq gənc təmsilçilərimiz qitə çempionatında iki çıxış proqramında medal qazanmağa müvəffəq olublar.





Dünən Azərbaycanın iki bədii gimnastı fərdi proqramda növbəti çıxışlarını ediblər.

Zöhrə Ağamirova ilə İlona Zeynalova təsnifat mərhələsində gürzlər və lentlərlə proqramlarını göstəriblər.

Gürzlərlə hərəkətlərin icrasından sonra hakimlərdən 31.050 xal alan Z. Ağamirova adını finala yazdırıb. Lentlə hərəkətlərdə isə o, 28.900 xal toplayıb. Beləliklə, 4 hərəkətin cəmində 95.750 xal yığan gimnastımız ümumi sıralamada 5-ci yeri tutaraq, çoxnövçülükdə də finala adlayıb.

"Ulduz kimi parla" şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast mübarizə aparır. Fərdi gimnastlar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edirlər. Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top ilə yarışlarda güclərini sınayacaqlar.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# *Nikola VASİLEVA:* "Milli Gimnastika Arenası indiyədək çıxış etdiyim ən möhtəşəm məkanlardan biridir"

"Milli Gimnastika Arenası indiyədək çıxış etdiyim ən möhtəşəm və rahat məkanlardan biridir. Bir çox beynəlxalq turnirdə, dünya kuboku yarışlarında iştirak etmişəm. Etiraf etməliyəm ki, Bakıda təşkil olunan yarışlar həmişə yüksək səviyyədə keçir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda təşkil olunan Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının iştirakçısı latviyalı Nikola Vasileva deyib.

Gimnast bildirib ki, halqa və top ilə təsnifat mərhələsində çıxışımdan razı qalmadım. Çıxışım zamanı çox həyəcanlı idim. Bu, hamıda baş verir. Valideynlərim Bakıya



gələ bilmədilər. Onlar mənim çıxışımı onlayn formada izləyirlər. Həmişə Bakının gözəlliyi barədə Latviyada dostlarıma danışıram. Buradan xoş təəssüratlarla ayrılıram. Cari səfərim zamanı da Bakını gəzmək imkanım oldu. Paytaxtınızda gözəl arxitekturaya malik binalar çoxdur. Onları izləməkdən zövq alıram.



# *Yelizaveta LUQOVSKİX:* "Bakıda keçirilən gimnastika yarışları həmişə çox baxımlı olur"

"Avropa çempionatının açılış mərasimini çox bəyəndim. Təşkilatçılar möhtəşəm şou hazırlamışdılar. Zalın tərtibatı və işıq effektləri gözəl idi".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda təşkil olunan Bədii Gimnastika üzrə 39-cu Avropa Çempionatının iştirakçısı monteneqrolu Yelizaveta Luqovskix deyib.

Top və halqa ilə təsnifat yarışlarındakı çıxışından narazı qalan gimnast bildirib ki, lent və gürzlərlə təsnifat mərhələsində iştirak edəcəyəm. Mübarizəyə birinci qrupdan başladım. Etiraf edim ki, bu, mənim üçün çətindir. Adətən, yarışın sonlarına doğru xalça üzərinə çıxmağı sevirəm. Bakıda keçirilən gimnastika yarışları həmişə çox baxımlı olur. Azarkeşlər möhtəşəmdir. Bütün bunlar yarışların yüksək səviyyədə təşkilindən xəbər verir.

"Ulduz kimi parla" şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər - 191, gənclər 124) mübarizə aparırlar. Fərdi gimnastlar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edəcəklər. Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top proqramında güclərini sınayacaqlar.

Xatırladaq ki, gənclərdən ibarət qrup komandamız çempionatın ilk günündə çoxnövçülükdə və beş topla yarışlarda bürünc medal qazanıb. Yarışa mayın 21-də yekun vurulacaq.

# "AzerGold" QSC "4SİM"lə "Ağıllı Sənaye Hazırlığı İndeksi" və "Smart" transformasiya üzrə əməkdaşlığa başlayıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) arasında "Ağıllı Sənaye Hazırlığı İndeksi" (Smart Industry Readiness Index - SIRI) qiymətləndirməsi və "Smart" transformasiya üzrə əməkdaşlığa dair müqavilə imzalanıb.




Müqaviləni "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və "4SİM"in icraçı direktoru Tamerlan Tağıyev imzalayıblar.

Sənədə əsasən, "4SİM" tərəfindən "AzerGold" QSC-nin istehsalat müəssisəsində rəqəmsal hazırlığın ölçülməsi və rəqəmsallaşmanın sürətləndirilməsi məqsədi ilə məsləhət xidmətləri göstəriləcək. Belə ki, Dünya İqtisadi Forumu tərəfindən tövsiyə edilən və Dördüncü Sənaye İnqilabı üçün ən effektiv rəqəmsal hazırlıq qiymətləndirmə proqramlarından biri kimi qəbul edilən SIRI qiymətləndirilməsi metodunun tətbiqi ilə istehsalat və biznes proseslərində rəqəmsallaşma ilə bağlı real vəziyyət təhlil ediləcək, istehsalatda fəaliyyətin ən optimal texnoloji həllər vasitəsilə 2-3 ilədək zamanı əhatə edən dövr ərzində inkişafın təmin edilməsi üçün yol xəritəsi hazırlanacaq, prioritetləşdirilmiş layihələrin metodologiyası və digər təfərrüatları işlənib təqdim ediləcəkdir.

Qeyd edək ki, istehsal prosesinin daim optimallaşdırılması ilə yanaşı, işçilərin sağlamlığının qorunması, əməyin təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin mühafizəsi QSC-nin əsas prioritetlərini təşkil edir. Bu məqsədlə bütün fəaliyyət istiqamətləri üzrə səmərəliliyin daha da artırılması üçün innovativ həllərin tətbiqində maraqlı olan "AzerGold" QSC dağ-mədən sahəsində ən müasir texnologiyaların tətbiqini həyata keçirir və mütəmadi qaydada maddi-texniki bazasını müasir tələblərə uyğun olaraq yeniləyir. Təsadüfi deyil ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən müəssisənin texnoloji innovasiya imkanlarının müəyyən edilməsi məqsədi ilə ölkə üzrə ilk innovasiya auditi də "AzerGold" QSC-də həyata keçirilib və şirkətin rəqəmsal transformasiya, innovativ həllərin tətbiqi, ekosistemin gücləndirilməsi sahəsində fəaliyyəti müsbət qiymətləndirilib.

# "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri öz işini başa çatdırıb

Mayın 19-da "Bakı-Ekspo" Mərkəzində regionun ən böyük sərgiləri - 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgiləri öz işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, sərgilərin işində ən mühüm hadisələrdən biri dövlət başçısının tədbirə qatılması olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlət başçısına və birinci xanıma sərgilər barədə məlumat verib.

"Bakı-Ekspo" Mərkəzinin bütün pavilyonları və açıq meydançasını əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunub. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edib, 9 ölkə isə milli stendlərlə təmsil olunub. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiya, eləcə də ilk dəfə sərgiyə gələn Tunis və Çexiyanın regional qrupları iştirak ediblər.










Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərgidə "Grow Group" Azərbaycan, "Maschio Gaspardo", "New Holland", "Rostselmash", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "CanPa", həmçinin Çexiya, İtaliya, Belarus, Gürcüstan, ABŞ və Niderland şirkətlərinin stendləri ilə tanış olublar. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkin və biçin üçün aqreqatlar və kənd təsərrüfatı məhsulları nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirilib ki, qida təhlükəsizliyi kənd təsərrüfatı məhsullarının istehsalında ən vacib şərtlərdən biridir və buna görə də Naxçıvan fermerləri üzvi məhsulların becərilməsinə üstünlük verirlər.

Kənd Təsərrüfatı Nazirliyinin pavilyonunda Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş xüsusi təqdimat hazırlanıb. Azərbaycanda aqrar sektorun inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Pavilyonda elmi-tədqiqat institutlarının ən son nailiyyətləri, "yaşıl enerji" mənbələri ilə bağlı qurğular və məhsullar təqdim olunub.

Burada müxtəlif müsabiqə və yarışların qalibləri olan kənd təsərrüfatı startapçılarının təqdim etdiyi arıların varroatozuna qarşı mübarizə üsulları, ənənəvi balıqçılıq üsullarını hidropon əkinçiliklə birləşdirən sistem, alternativ enerji mənbələrindən alınan bioqaz, hidrogen, ağıllı istixanalar üçün idarəetmə sistemi, lazer sistemi vasitəsilə sahələri alaq otlarından təmizləyən aqrorobot, avtomobillər üçün portativ enerji bloku, külək və günəşi müşahidə qurğuları, idarə olunan günəş panelləri, uzaqdan idarə olunan sayğaclar, külək turbinləri, iqlim stansiyaları, dəqiq suvarmanı idarəetmə sensorları, suvarmada istifadə olunan və günəş enerjisi ilə işləyən inventorlar nümayiş etdirilib.

"Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri öz məhsul və xidmətlərini təqdim ediblər.

Azərbaycanın müxtəlif bölgələrindən olan fermerlərin sərgilərdə ənənəvi iştirakı beynəlxalq əməkdaşlığın səciyyəvi xüsusiyyətlərini daha da rəngləndirib. Bu il "Caspian Agro" sərgisində Azərbaycanın qırx rayonundan rekord sayda fermer iştirak edib.

Sərgi çərçivəsində "Azərtexnika" MMC, "Aqritex" MMC, "Aqromotors" və Gəncə Avtomobil Zavodu tərəfindən kənd təsərrüfatında istifadə olunan texnika açıq meydançada nümayiş etdirilib.

Aqrar İnnovasiya Forumu da böyük maraq doğurub. Burada "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Üzvi kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və s. mövzular müzakirə olunub.

Sərgilərin xarici iştirakçıları ənənəvi B2B görüşlərinin məhsuldarlığını xüsusi qeyd ediblər ki, bu da təkcə Azərbaycan şirkətləri ilə deyil, həm də digər ölkələrin alıcıları ilə uzunmüddətli əməkdaşlığa təsir göstərir.

"Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərinin təşkilatçıları "Caspian Event Organisers" şirkəti və onun beynəlxalq tərəfdaşlarıdır.

